# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 441 İyul 2024




AYLIQ DƏRGİ

ISSN 2218-2772
khazar-review.khazar.org



# XƏZƏR UNİVERSİTETİNİN 53-CÜ MƏZUNLUQ MƏRASİMİ

İyulun 9-da Bakı İdman Sarayında Xəzər Universitetinin 53-cü məzunluq mərasimi keçirildi. Tədbirdə universitetin rəhbərliyi, dekanlar, departament müdirləri, müəllim və tələbələr, valideynlər, qonaqlar iştirak edirdilər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlandı, sonra Xəzər Universitetinin himni də səsləndirildi.

Aparıcılar - Təbiət elməri, sənət və texnologiya yüksək təhsil fakültəsinin koordinatoru Ülkər Rəsulova və həmin fakültənin magistr məzunu Siyuan Wang iştirakçıların nəzərinə çatdırdılar ki, bu gün 479 bakalavr, 189 magistr Xəzər Universitetinin məzunu olur. Bugünkü buraxılış məzunları da daxil olmaqla, universitetdən 5462 bakalavr, 1286 magistr və doktorant məzun olmuşdur. Onlardan 1438 nəfəri universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Bildirdilər ki, builki məzunlar arasında artıq Polşa, İtaliya, Fransa, Macarıstan, Estoniya, Belçika, Litva, Niderland, İngiltərə, İsveç və ABŞ kimi ölkələrin nüfuzlu universitetlərinin magistrantı adını qazananlar var.

Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova çıxışında məzunları təbrik etdi, yeni həyat yollarında onlara uğurlar arzuladı.

Sonra bakalavr, magistr və doktorantlara diplomların təqdim olunmasına başlanıldı. Diplomları məzunlara universitetin rəhbərliyi, fakültə dekanları, departament müdirləri, müəllimlər, əməkdaşlar və qonaqlar təqdim etdilər.

*(Ardı səh.6-da)*

**Jurnalın üz qabığında:** ***Brilliant Windy Khairunnisa və Aygün Gardiner***







**"Təhsildə mükəmməllik" sertifikatı ilə təltif olunan tələbələr :** ***Siyuan Wang, Əfsanə Dəmirçiyeva, rektor İradə Xəlilova, prorektor İsaxan İsaxanlı, Gülay Ələkbərova, Afar Mirələmli, Hüseyn Şahbazlı***

# 53RD GRADUATION CEREMONY OF KHAZAR UNIVERSITY

On July 9, Khazar University held its 53rd graduation ceremony at the Baku Sports Hall. University administration, deans, department heads, faculty members, students, and parents,guests attended the event.

The ceremony commenced with the performance of the National Anthem of the Republic of Azerbaijan, followed by Khazar University's anthem.

The presenters, Ulkar Rasulova, coordinator of the Graduate School of Science, Art, and Technology, and Siyuan Wang, a master's graduate from that faculty, informed the participants that 479 bachelor's and 189 master's students are graduating from Khazar University today. Including today's graduates, the university has produced a total of 5462 bachelor's and 1286 master's and doctoral graduates, with 1438 of them graduating with honors. They also mentioned that among this year's graduates, some have already earned master's degrees from prestigious universities in Poland, Italy, France, Hungary, Estonia, Belgium, Lithuania, the Netherlands, England, Sweden, and the United States.

Khazar University Rectorr Assoc. Prof. Irada Khalilova congratulated the graduates and wished them success in their future endeavors.

The presentation of diplomas to bachelor's, master's, and doctoral students then began, with university management, faculty deans, department heads, faculty members, staff, and guests presenting the diplomas.

(*To be continued page 6*)



**On the cover of the journal:** ***Brilliant Windy Khairunnisa and Aygun Gardiner***

# İÇİNDƏKİLƏR


Xəzər Universitetinin 53-cü məzunluq mərasimi ........................................6
Mərkəzi Asiya universitetlərinə işgüzar səfər........................................8
Xəzər Universitetində geniş müşavirə ........................................10
İran İslam Respublikasının Prezidentinə məktub ........................................12
Xəzər Universiteti Avropanın ən yaxşı 400 universiteti sırasında yer alıb ........................................13
Vrotslav və Balıkesir universitetlərinin nümayəndələri "Xəzər"də ........................................14
"Təhsilin idarə olunması və müəllim hazırlığı" mövzusunda beynəlxalq elmi simpozium ............18
"Xəzər"in məzunları: "Nar"da təyinat ........................................21
"Kaspi" qəzetinin Prof. Akad. Hamlet İsaxanlı ilə müsahibəsi ........................................22
Çinli magistrantın Azərbaycan-Çin dillərinin müqayisəsinə aid məruzəsi ........................................26
"Xəzər"in məzunları: Bank of Baku`da yeni təyinat ........................................27
"Xəzər"in departament müdiri Mərakeşdə keçirilmiş "Şuşa günləri"ndə........................................28
Xəzər Universitetində AccessBank Günü........................................30
Seminar: "Kvant materialları: dizayn, tədqiqat və tətbiq perspektivləri"........................................31
Tələbə guşəsi: Xəzər Universitetinin tələbəsi, "Əbədi Birlik" Gənclər İctimai Birliyinin sədri Şahin Əliyev Şimali Kipr Türk Cümhuriyyətində səfərdə olub ........................................32
Böyük Britaniya və Şimali İrlandiyanın kralı III Çarlz`ın Bakıda təvəllüd günü qeyd olunub......36
Xəzər Universitetinin rektoru "2024 - Sağlam Gələcəyin Proqnozlaşdırılması Qlobal Sammiti"ndə ........................................37
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri........................................38
*Hamlet İsaxanlı*. Şahmat ehtirası ........................................40
Əl-Fərabi Qazax Milli Universitetinin nümayəndələri "Xəzər" də ........................................50
Manisa Celal Bayar Universitetinin akademik heyəti Xəzər Universitetində ........................................52
Bakı vaxtı.az xəbər portalının Prof. Akad. Hamlet İsaxanlı ilə müsahibəsi........................................56
Braqança Politexnik Universitetinin nümayəndələri "Xəzər"də ........................................58
"Xəzər"in məzunları: AZAL prezidentinə müşavir təyin olunub ........................................59
*Xankişi Məmmədov*. Dəyişən dünya müstəvisində dəyişməyən Mir Cəlal fenomeni ........................................60
Xəzər Universiteti "Türk Dünyası Təhsil Sərgisi"ndə ........................................67
"Dizayn Portfolio" buraxılış işlərinin müdafiəsi........................................68
"Xəzərin ləpələri" adlı sərgi və xeyriyyə yarmarkası........................................70
Korrupsiyaya qarşı mübarizə mövzusunda seminar........................................73
Xəzər Universitetinin rektoru Kapusçinski İnkişaf Mühazirələrindən birində iştirak etmişdir........................................74
Xəzər Universiteti "Yaşıl dünya naminə həmrəylik: dayanıqlı gələcək üçün tullantılardan dəyərə" mövzusunda beynəlxalq forumda təmsil olunub ........................................75
Xəzər Universitetinin əməkdaşları üçün təşkil olunan dil kursu başa çatıb ........................................76
Elmi Şuranın növbəti iclası ........................................77



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Məsul katib:**
Valeh Mirzə

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000



**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində**
mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS


**53rd Graduation Ceremony of Khazar University ..... 6**
**Working Visit to Central Asian Universities ..... 8**
**Comprehensive Meeting Held at Khazar University ..... 10**
**A Letter to the President of the Islamic Republic of Iran ..... 12**
**Khazar University Ranks in Top 400 Universities in Europe ..... 13**
**Representatives of Wroclaw and Balıkesir Universities at Khazar University ..... 14**
**International Scientific Symposium on "Education Management and Teacher Training" ..... 18**
**Khazar University Alumni: Appointment at "Nar" ..... 21**
**"Kaspi" Newspaper's Interview with Prof. Acad. Hamlet Isakhanli** *(in Azerbaijani)* **..... 22**
**Chinese Master's Student Delivers Speech on Comparison of Azerbaijani-Chinese languages ..... 26**
**Khazar University Alumni: New Appointment at Bank of Baku ..... 27**
**Khazar University's Department Head in "Shusha Days" in Morocco ..... 28**
**AccessBank Day at Khazar University ..... 30**
**Seminar on "Quantum Materials: Design, Exploring and Applications Perspectives " ..... 31**
**Student Corner: Khazar University Student and " Eternal Unity" Youth Public Union Chairman Shahin Aliyev Visits Turkish Republic of Northern Cyprus ..... 32**
**Baku Celebrates the Birthday of King Charles III of Great Britain and Northern Ireland ..... 36**
**Khazar University Rector Attends "2024 Forecasting Healthy Futures Global Summit" ..... 37**
**News of the Institute of ANAS Named after Nizami** *(in Azerbaijani)* **..... 38**
*Hamlet Isakhanli*. **Passion for Chess** *(in Azerbaijani)* **..... 40**
**Al-Farabi Kazakh National University Representatives at Khazar University ..... 50**
**Khazar University Hosts Academic Staff of Manisa Celal Bayar University ..... 52**
**Bakı vaxtı.az News Portal Interviews Prof. Acad. Hamlet Isakhanli** *(in Azerbaijani)* **..... 56**
**Polytechnic Institute of Bragança Representatives Visit Khazar University ..... 58**
**Khazar University Alumni: Advisor to the President of AZAL Appointed ..... 59**
*Khankishi Mammadov*. **Mir Jalal: An Unchanging Phenomenon in a Changing World** *(in Azerbaijani)* **..... 60**
**Khazar University at "Turkish World Education Exhibition" ..... 67**
**Final Defense of 'Design Portfolio' Graduation Projects ..... 68**
**Exhibition and Charity Fair Called "Ripples of Khazar" ..... 70**
**Seminar on Fight Against Corruption ..... 73**
**Khazar University Rector, attends Kapuscinski Development Lecture ..... 74**
**Khazar University Represented in the "Green World Solidarity: Waste to Value for a Sustainable Future" International Forum ..... 75**
**Khazar University's 'English for Staff Members' Course Concludes ..... 76**
**Next Scientific Council Meeting ..... 77**



It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Editorial Secretary:** Valeh Mirza

**Photo**: Multimedia Centre

Khazar University

Adress: 41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org

Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:** Zamira Gurbanova

**Computer graphics:** Gunel Akbarova





*İradə Xəlilova*

# XƏZƏR UNİVERSİTETİNİN 53-CÜ MƏZUNLUQ MƏRASİMİ
# 53RD GRADUATION CEREMONY OF KHAZAR UNIVERSITY

Nailəxanım təqaüdünün ilk məzun tələbəsi Brilliant Windy Khairunnisa'ya diplom Xəzər Universiteti "Dünya" Məktəbi Təhsil Kompleksinin direktoru Aygün Gardiner tərəfindən təqdim olundu.



*Elza Səmədova*

2023-2024-cü tədris ilində Xəzər Universitetini birinciliklə bitirən məzunların müvəffəqiyyətləri xüsusi qeyd edildi. Onlara "Təhsildə mükəmməllik" sertifikatı təqdim olundu.

Məzunlar Xəzər Universitetində əldə etdikləri bilik və bacarığı tətbiq edərək öz ailələri, xalq və vətən üçün faydalı olacaqlarına, Xəzər Universitetinin şərəfini qoruyacaqlarına and içdilər. Andın mətnini İqsadiyyat və menecment fakültəsinin məzunları Əfsanə Dəmirçiyeva, Namiq Əlizadə və Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin məzunu Yuxuan Tang səsləndirdilər.

Aygun Gardiner, director of Khazar University "Dunya" School Educational Complex, presented the diploma to Brilliant Windy Khairunnisa, the first graduate student of Nailekhanim scholarship.

The accomplishments of the honor graduates from Khazar University in the 2023-2024 academic year were specifically emphasized. They were awarded with the certificate of " Academic Excellence".

The graduates swore to use their knowledge and skills to benefit their families, people, and homeland, and to uphold the honor of Khazar University. The oath was recited by Afsana Demirchiyeva and Namig Alizade from the School of Economics and Management, and Yuxuan Tang from the Graduate School of Science, Arts, and Technology.

Ahmed Hasanov, head of the State Procurement Control Department of the Antimonopoly and Consumer Market Control State Service under the Ministry of Economy of the Republic of Azerbaijan, former dean Elza Samadova, head of the State Agency for Science and Higher Education, head of the Executive Committee of SABAH groups, and Khazar University graduate Prof. Sevinj Iskenderova (Bridgewater College, University of Virginia (USA)) spoke, offering their well wishes to the graduates. Finally, Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees, was invited to the stage to congratulate all the graduates.

Hamlet Isakhanli reviewed the University's journey and achievements and gave recommendations to the graduates.



*Hamlet İsaxanlı tələbələrlə*

Mərasimdə universitetin məzunu, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Dövlət Satınalmalarına Nəzarət şöbəsinin müdiri Əhməd Həsənov, universitetin sabiq dekanı, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Ali təhsil müəssisələri ilə iş sektorunun müdiri, SABAH qrupları İcra Komitəsinin rəhbəri Elza Səmədova və Xəzər Universitetinin məzunu Prof. Sevinc İsgəndərova (Bricvoter kolleci, Virciniya, ABŞ) çıxış edərək, məzunlara xoş arzularını bildirdilər

Sonda bütün məzunlar və onları təbrik etmək üçün Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad Hamlet İsaxanlı səhnəyə dəvət olundular. Hamlet İsaxanlı çıxışında universitetin keçdiyi yola və qazandığı nailiyyətlərə nəzər saldı, məzunlara tövsiyələrini verdi.

Mərasim konsert proqramı ilə müşayiət olundu. Xəzər Universitetinin Kamera orkestri (bədii rəhbər: Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova), tələbələrdən ibarət rəqs qrupu (quruluşçu müəllimlər: Səbinə Minasazova və Vüqar Bağırov) "Xəzər"in məzunu Toğrul Musayev və onun musiqi qrupu, universitetin müəllimi aşıq Ramin Qarayev, "Bakı-Təbriz" musiqi qrupunun rəhbəri Elman İbrahimi və müğənni Şahin Əlizadə çıxış etdilər.

Xəzər Universittinin daha bir ənənəvi məzunluq mərasimi başa çatdı.



*Əhməd Həsənov*

The ceremony included a concert program featuring the Khazar University Chamber Orchestra (artistic director Zulfiyya Sadigova), a student dance group (choreographed by Sabina Minasazova and Vugar Bagirov), Togrul Musayev and his music group, university faculty member ashug Ramin Garayev, and "Baku-Tabriz" Music Group led by Elman Ibrahimi and Shahin Alizade.

Another traditional graduation ceremony at Khazar University concluded.

## MƏRKƏZİ ASİYA UNİVERSİTETLƏRİNƏ İŞGÜZAR SƏFƏR

İyunun 17-25-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad Hamlet İsaxanlı universitetin Nano-Bioanalitik Kimya Mərkəzinin direktoru Prof. Mustafa Soylak ilə Mərkəzi Asiya universitetlərinə işgüzar səfər ediblər.

## WORKING VISIT TO CENTRAL ASIAN UNIVERSITIES

From June 17-25, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, along with Prof. Mustafa Soylak, director of the university's Nano-Bioanalytical Chemistry Center, were on a working visit to Central Asian universities.

During the visit, they met with representatives of Al-Farabi Kazakh National University in Al-maty on June 18, Kyrgyz-Turkish university "Manas" in Bishkek on June 20, Tashkent State Technical University and Tashkent State Transport University on June 21, Uzbekistan "Silk Road" International Tourism University and Samarkand State University on June 24.

During the meeting, special emphasis was placed on the development of cooperation between universities in promising fields and bilateral agreements were signed.



*Əl-Fərabi Qazax Milli Universitetinin birinci prorektoru Yerkin Duisenov, Hamlet İsaxanlı*



*Səmərqənd Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Akmal Ahatov*

Səfər çərçivəsində onlar iyunun 18-də Almatıda Əl-Fərabi Qazax Milli Universiteti, iyunun 20-də Bişkekdə Qırğızıstan-Türkiyə Manas Universiteti, iyunun 21-də Daşkənd Dövlət Texniki Universiteti və Daşkənd Dövlət Nəqliyyat Universiteti, iyunun 24-də isə Özbəkistan "İpək Yolu" Beynəlxalq Turizm Universiteti və Səmərqənd Dövlət Universitetinin nümayəndələri ilə görüşüblər.

Görüşdə universitetlərin perspektiv sahələrdə əməkdaşlığının inkişafına xüsusi diqqət yetirilib və ikitərəfli müqavilələr imzalanıb.



*Daşkənd Dövlət Nəqliyyat Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Bahodur Turayev*



*Qırğızıstan-Türkiyə Manas Universitetinin rektoru Alpaslan Ceylan*



*Özbəkistan "İpək Yolu" Beynəlxalq Turizim Universiteti Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Sardorbek Samaridnov*





*Hamlet İsaxanlı*

## XƏZƏR UNİVERSİTETİNDƏ GENİŞ MÜŞAVİRƏ

İyulun 4-də universitetin Buzovnadakı Konfrans-Konsert Mərkəzində tədris ilinin yekunları və strateji planlaşdırmaya həsr olunmuş geniş müşavirə keçirildi. Müşavirədə universitetin rəhbərliyi, fakültə dekanları, departament müdirləri, mərkəzlərin direktorları, əməkdaşlar və qonaqlar iştirak edirdilər.

Müşavirənin gündəliyinə akademik departamentlərin elmi fəaliyyəti, 2024-cü il üçün impakt faktorlu jurnallarda məqalələrin nəşri, tədqiqat mərkəzləri və şöbələrin fəaliyyətinin müzakirəsi daxil idi.

## COMPREHENSIVE MEETING HELD AT KHAZAR UNIVERSITY

On July 4, a comprehensive meeting focused on the results of the academic year and strategic planning was held at the University's Conference-Concert Center in Buzovna. University management, faculty deans, department heads, center directors, employees, and guests participated in the event.

The meeting's agenda included discussions on the scientific activities of academic departments, the publication of articles in impact factor journals for 2024, and the evaluation of the activities of research centers and departments.



*Zülfiyyə Sadıqova, Ləman Vurğun, Lamiyə Xəlilova*

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı geniş məruzə ilə çıxış etdi. Natiq təhsil tarixi, fəlsəfəsi haqqında məlumat verdi. Xəzər Universitetinin keçdiyi inkişaf yolu, fəaliyyəti haqqında danışdı, universitetin cari tədris ilində gördüyü işlərə yekun vurdu. Departamentlərin ixtisas və tələbə saylarının müqayisəsi, elmi məqalələrin nəşrinin keçən illə müqayisəsi əsasında hazırlanmış statistik məlumatları və beynəlxalq əməkdaşlıqla əlaqədar görülən işləri ətraflı təhlil etdi.



*Cəmalə Eldarova, Səidə Şərifova*

Sonra H. İsaxanlı magistr və doktorantura səviyyələrinə daha ciddi yanaşmaq, bakalavr səviyyəsində oxuyan tələbələri tədqiqata istiqamətləndirmək, doktoranturaya maraq yaratmaq, "Research" seminar təcrübəsini tətbiq etmək, tədqiqat mərkəzlərini gücləndirmək və beynəlxalq mərkəzlərə çevirmək, tədqiqata maliyyə ayırmaq, "ildə ən azı iki məqalə" prinsipini saxlamaq və Azərbaycanın görkəmli tədqiqatçılarını cəlb etmək haqqında tapşırıqlar verdi.

Tədbir iştirakçıları üçün konsert təşkil olundu.

Bununla da ənənvi Buzovna müşavirəsi işini başa çatdırdı.



*Aygün Verdiyeva, Pərvin Kərimova*

Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, delivered an extensive speech. The speaker gave information about the history and philosophy of education. He discussed the development and activities of Khazar University and reviewed the university's achievements for the current academic year. He analyzed in detail the statistical data prepared on the basis of the comparison of the number of majors and students of the departments, the publication of scientific articles compared to last year, and the progress made in international cooperation efforts.

H. Isakhanli then provided directives on placing greater emphasis on the master's and doctoral programs, encouraging undergraduate students to engage in research, and fostering interest in doctoral studies. He recommended implementing the "Research" seminar model, enhancing research centers to achieve international status, allocating funds for research, upholding the principle of publishing "at least two articles a year," and attracting distinguished researchers from Azerbaijan. With these points, the traditional Buzovna meeting concluded its proceedings.

# İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİNƏ MƏKTUB

# A LETTER TO THE PRESIDENT OF THE ISLAMIC REPUBLIC OF IRAN

**İran İslam Respublikasının Prezidenti cənab Məsud Pezeşkian`a**

**Hörmətli cənab Prezident!**

Sizi İran İslam Respublkasınm Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ortaq dini-mədəni və qardaşlıq kimi möhkəm təməllərə əsaslanan, sınaqlardan çıxmış ənənəvi dostluq və çoxşaxəli əməkdaşlıq münasibətləri mövcuddur. Sizin prezidentliyiniz dövründə bu əlaqələrin daha yüksək səviyyəyə çatacağına bütün qəlbimizlə inanırıq.

Azərbaycanın ilk özəl universiteti olan Xəzər Universiteti İranın ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinə böyük əhəmiyyət verir. Bir sıra universitetlərlə, o cümlədən Təbriz Universiteti, Tehran Universiteti, İsfahan Universiteti, Əmir Kəbir Texnologiya Universiteti, Nəsirəddin Tusi Texnologiya Universiteti, Təbriz Tibb Universiteti, Təbriz Şəhid Mədəni Universiteti, Ərdəbil Tibb Elmləri Universiteti və digər universitetlərlə işgüzar münasibətlər qurulmuş, müqavilələr imzalanmış, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri olub və bu əlaqələr bundan sonra daha da inkişaf etdiriləcəkdir. Universitetimiz beynəlxalq, o cümlədən İranlı tələbə və müəllimlərin oxuduğu, çalışdığı bir elm və təhsil ocağıdır.

**Hörmətli cənab Prezident!**

Sizə ən xoş arzularımı yetirir, İran İslam Respublikasının Prezidenti kimi şərəfli və məsuliyyətli fəaliyyətininzdə uğurlar diləyirəm.

Bakıya, Azərbaycan Respublikanıza səfəriniz zamanı Sizi böyük məmnuniyyətlə Xəzər Universitetinə dəvət edirəm.

**Böyük hörmətlə,**



**Prof. Hamlet İsaxanlı**
*Xəzər Universitetinin təsisçisi,*
*Direktorlar və Qəyyumlar Şurasının sədri*
*09.07.2024*

**To the President of the Islamic Republic of Iran Mr. Masoud Pezeshkian**

**Dear Mr. President,**

I extend my heartfelt congratulations on your election as the President of the Islamic Republic of Iran. The Republic of Azerbaijan and the Islamic Republic of Iran share strong, time-honored relations rooted in shared religious and cultural ties and brotherhood. We are confident that, under your leadership, these traditional bonds of friendship and multifaceted cooperation will be further elevated.

Khazar University, as Azerbaijan's first private university, places significant emphasis on fostering cooperative relations with Iranian higher education institutions. We have established partnerships and signed agreements with several universities, including Tabriz University, Tehran University, Isfahan University, Amir Kabir University of Technology, Nasiruddin Tusi University of Technology, Tabriz Medical University, Tabriz Shahid Madani University, Ardabil University of Medical Sciences. There have been mutual visits, and we are committed to further developing these relationships. Our university is scientific and educational center where international, including Iranian, students and faculty study and work.

**Dear Mr. President,**

I convey my best wishes to you and wish you success in your honorable and demanding role as President of the Islamic Republic of Iran. During your visit to Baku, the Republic of Azerbaijan, it would be our honor to welcome you to Khazar University.

**With great respect,**



**Prof. Hamlet Isakhanli**
*Founder of Khazar University and*
*Chairman of its Board of Directors and Trustees*
*09.07.2024*

# XƏZƏR UNİVERSİTETİ AVROPANIN ƏN YAXŞI 400 UNİVERSİTETİ SIRASINDA YER ALIB




QS reytinq agentliyi 2024-cü il iyulun 10-da Avropanın ən yaxşı universitetlərinin siyahısını açıqlayıb.

Xəzər Universiteti "QS World University Rankings: Europe 2025"-in nəşrinə əsasən 12 pillə irəliləyərək, 360-cı yerdə qərarlaşıb. Eyni zamanda, Qərbi Asiya universitetləri arasında 16-cı yer tutmuşdur.

Bununla yanaşı, Xəzər Universiteti məqaləyə sitat gətirmə üzrə 53 pillə irəliləyərək, Avropanın ən yaxşı 685 universiteti arasında öz mövqeyini gücləndirərək, 17-ci yerdə qərarlaşmışdır.

Bu nüfuzlu reytinqdə Avropa Şurasına daxil olan 42 ölkədən 685 ali təhsil müəssisəsi yer alıb. Azərbaycandan siyahıda 9 universitet təmsil olunmuşdur.

Reytinq qlobal təhsil məkanında tanınma, tədqiqat nəticələri, tədris resursları, beynəlmiləlləşmə, məzunların işlə təminatı və digər göstəriciləri özündə birləşdirir.

Reytinq haqqında daha ətraflı məlumat aşağıdakı linkdə:

*https://www.topuniversities.com/europe-university-rankings*

Ölkənin informasiya agentlikləri və xəbər portalları bu barədə çoxlu xəbər yayımlayıb.

*https://azertag.az/xeber/xezer_universiteti_avropanin_en_yaxsi_400_universiteti_sirasinda_yer_alib-3092026* və s.

# KHAZAR UNIVERSITY RANKS IN TOP 400 UNIVERSITIES IN EUROPE

On July 10, the QS rating agency released its list of the top universities in Europe.

According to the "QS World University Rankings: Europe 2025" publication, Khazar University climbed 12 spots to rank 360th. Additionally, it was placed 16th among universities in West Asia.

Furthermore, Khazar University advanced 53 places in article citation rankings, securing its position among the top 685 universities in Europe, where it now ranks 17th.

This prestigious ranking features 685 higher education institutions from 42 countries within the Council of Europe, including 9 universities from Azerbaijan.

The ranking evaluates global education recognition, research outcomes, teaching resources, internationalization, graduate employability, and other factors.

For more detailed information about the ranking, visit the following link:

*https://www.topuniversities.com/europe-university-rankings*

National news agencies and online portals have widely reported on this.

*https://azertag.az/xeber/xezer_universiteti_avropanin_en_yaxsi_400_universiteti_sirasinda_yer_alib-3092026 et c.*

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN TƏRƏFDAŞ UNİVERSİTETLƏRİ İLƏ ONLAYN GÖRÜŞ

## ONLINE MEETING WITH AZERBAIJANI PARTNER UNIVERSITIES WITHIN DIRNA PROJECT

İyunun 3-də Xəzər Universitetinin koordinatorluğu ilə həyata keçirilən DIRNA ("Azərbaycanda İnstitusional Repozitoriyalar şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının inkişafı") layihəsi çərçivəsində Azərbaycan tərəfdaş universitetləri ilə onlayn görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli və tərəfdaş Azərbaycan universitetlərinin nümayəndələri (Bakı Dövlət Unversiteti, Azərbaycan Texniki Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti) iştirak ediblər.

Raziyə İsayevanın moderatorluğu ilə baş tutan görüşdə Gəncədə keçiriləcək yay məktəbində iştirak edəcək şəxslərin müəyyənləşməsi, növbəti pillələrdə sistemə daxil ediləcək resursların toplanılması kimi məsələlər müzakirə olunub.

On June 3, an online meeting with Azerbaijani partner universities took place as part of the DIRNA (Developing Research Capacity through Institutional Repositories Network in Azerbaijan) project, coordinated by Khazar University.

The meeting was attended by Raziya Isayeva, director of the Development Center at Khazar University, Aytaj Misgarli, deputy director of the Library Information Center, and representatives from partner universities (Baku State University, Azerbaijan Technical University, Academy of the State Customs Committee, Ganja State University, Nakhchivan State University, Lankaran State University, Mingachevir State University).

The meeting, moderated by Raziya Isayeva, covered the issues such as identifying participants for the summer school in Ganja and collecting resources to be included in the system in the next steps.

## VROTSLAV VƏ BALIKESİR UNİVERSİTETLƏRİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

## REPRESENTATIVES OF WROCLAW AND BALIKESIR UNIVERSITIES AT KHAZAR UNIVERSITY

İyunun 3-4-də Polşa Respublikasının Vrotslav Universitetinin nümayəndəsi Jakob Bornio və Türkiyənin Balıkesir Universitetinin nümayəndələri Ece Kanbur, Dinçer Kanbur, Muhammed Melih Gündüz Erasmus+ İşçi Heyətinin Mobilliyi Mübadilə Proqramı (Erasmus+ KA107171) çərçivəsində Xəzər Universitetində oldular və Siyasi elmlər və fəlsəfə departamenti, həmçinin Beynəlxalq əlaqələr şöbəsi tərəfindən qəbul edildilər.

Proqramın ilk günü qonaqlarla tanışlıq prosesi başa çatandan sonra hər iki universitet nümayəndələri öz təhsil ocaqları haqqında məlumat verdilər. Görüşdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva

On June 3-4, Jakob Bornio, a representative from the University of Wroclaw in Poland, along with Ece Kanbur, Dincer Kanbur, and Muhammed Melih Gunduz from Balıkesir University in Turkey, visited Khazar University as part of the Erasmus+ Staff Mobility Exchange Program (Erasmus+ KA107171) and engaged with the departments of Political Science and Philosophy, as well as International Relations.

On the first day, after the introductions were completed, representatives from both universities gave information about their universities. Fatima Valiyeva, head of the International Relations Department, and Arzu Badalova, the international



*Jakob Bornio*

və beynəlxalq əlaqələr üzrə koordinator Arzu Bədəlova iştirak etdilər. Görüş zamanı Arzu Bədəlova Xəzər Universiteti haqqında geniş məlumat verdi və qonaqlar üçün kampus turu təşkil olundu.

Proqramın ikinci günü Fatimə Vəliyeva Xəzər Universitetinin Erasmus+ mübadilə proq-



*Muhammed Melih Gündüz* *İradə Xəlilova*

ramı çərçivəsində fəaliyyətini əks etdirən geniş təqdimat nümayiş etdirdi, sonra isə qonaqların bu istiqamətdə təcrübələri müzakirə olundu. Universitetin rektoru Dos. İradə Xəlilova qonaqlarla görüşərək, onlara sertifikat və hədiyyələr təqdim etdi.

Proqram Atəşgah məbədinə səfərlə başa çatdı.



*Ece Kanbur*

relations coordinator, attended the meeting. During the meeting, Arzu Badalova provided detailed information about Khazar University and guided the guests on a campus tour.



*Dinçer Kanbur*

On the second day, Fatima Valiyeva gave a comprehensive presentation on Khazar University's activities within the Erasmus+ exchange program, followed by a discussion on the guests' experiences in this area. The rector of the university, Assoc. Prof. Irada Khalilova, welcomed the guests, presenting them with certificates and gifts.

The program concluded with a visit to the Ateshgah Temple.

## VROTSLAV UNİVERSİTETİ MÜƏLLİMİNİN SEMİNARI

İyunun 4-də Xəzər Universitetində Polşa Respublikasının Vrotslav Universitetinin Avropa Araşdırmaları Mərkəzinin müəllimi Dr. Jakub Bornio`nun "Polşanın şərq siyasətində Cənubi Qafqaz" mövzusunda seminarı keçirilib.

Seminarda Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev, departamentin müəllimləri Gülcan Qulaxmed, Ruslan Xəlilov, departamentin assistent və müəllimi Aydan Raufqızı, magistrant və tələbələr iştirak ediblər.

Dr. Jakub Bornio seminarda Polşanın müstəqillik əldə etdikdən sonrakı siyasi xətti, Avropa İttifaqına inteqrasiyası, Şərq ölkələri ilə münasibətləri, Azərbaycan - Polşa münasibətlərinin yüksək səviyyədə inkişafı və digər məsələlərə toxunub.

Sonda müəllim və tələbələrin sualları cavablandırılıb.

## SEMINAR BY THE LECTURER FROM WROCLAW UNIVERSITY

On June 4, a seminar on "Southern Caucasus in Poland's eastern policy" was held at Khazar University by Dr.Jakub Bornio, a lecturer of European Studies at Wroclaw University of the Republic of Poland.

Dr. Orkhan Valiyev, the head of Khazar University's Department of Political Sciences and Philosophy, along with department lecturers Guljan Gulakhmed and Ruslan Khalilov, as well as department assistant and lecturer Aydan Raufqizi, graduate students, and undergraduate students, participated in the seminar.

During the seminar, Dr.Jakub Bornio touched upon Poland's political line after independence, its integration into the European Union, relations with Eastern countries, the South Caucasus in Poland's eastern policy, the high level of development of Azerbaijan-Poland relations, and other issues. After the presentation, the questions of faculty members and students were answered.

## "MİLLİ KİMLİK MƏKTƏBİ" LAYİHƏSİ BAŞA ÇATIB

Aprel-may aylarında Elm və Təhsil Nazirliyinin dəstəyi və "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin təşkilatçılığı ilə baş tutan "Milli Kimlik Məktəbi" layihəsi 2024 - cü il iyunun 6-da Qusar rayonundakı Zabit Rizvanov adına İmamqulukənd tam orta məktəbində Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev tərəfindən keçirilən sonuncu təlimlə başa çatıb.

Qeyd edək ki, Orxan Vəliyev layihənin fəal icraçılarından olaraq ali məktəb, lisey, kollec və tam orta məktəblərdə təlimlər baş tutub.

Ümumilikdə layihə çərçivəsində 1-i ali məktəb olmaqla 35 təhsil müəssisəsində təlim keçirilib.

Layihənin məqsədi Azərbaycanın gələcəyi olan gənclər arasında birgəyaşayışın möhkəmlənməsinə töhfə vermək, müxtəlifliklərin Azərbaycan xalqının zənginliyi olduğunu onlara aşılamaq idi. Layihə müddətində təhsil alanlara Azərbaycanın əldə etdiyi tarixi hərbi-siyasi zəfərin əhəmiyyəti haqqında da geniş məlumat verilib.

## "NATIONAL IDENTITY SCHOOL" PROJECT COMPLETED

The "School of National Identity" project, organized by the Ministry of Science and Education and the "One" student-voluntary organization from April to May, concluded in June 2024 with its final seminar led by Dr. Orkhan Valiyev, head of the Department of Political Science and Philosophy at the Secondary School of Imamgulukend village, named after Zabit Rizvanov, in the Gusar region.

Note that, Dr. Orkhan Valiyev actively participated in the project, conducting seminars across high schools, lyceums, colleges, and secondary schools. In total, seminars were held in 35 educational institutions, including one higher education institution.

The aim was to foster stronger coexistence among young people, the future of Azerbaijan, and to instill in them that diversity is a valuable asset of the Azerbaijani people. Throughout the project, the students were also trained on the importance of the historical military and political victory achieved by Azerbaijan.



*Tuğba Ortaç, Tuğba Belenli, Necdet Hayta, Kəmalə Mustafayeva*

## "XƏZƏR"İN ƏMƏKDAŞI QAZİ UNİVERSİTETİNDƏ

İyunun 3-7-də Tarix və arxeologiya departamentinin müəllimi Kəmalə Mustafayeva Türkiyənin Qazi Universitetinə Erasmus+ İşçi Heyətinin Mobilliyi Mübadilə Proqramı (Erasmus+KA107171) çərçivəsində işgüzar səfər edib. Səfər çərçivəsində departament müəllimi Qazi Universitetinin Təhsil fakültəsinin Tarix bölməsindən Prof. Mustafa Safran, Prof. Necdet Hayta, Dos. Tuğba Belenli, Dos. Ayşegül Nihan Erol Şahin`lə görüşüb.

Kəmalə Mustafayeva Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin fəaliyyəti və müvafiq ixtisasları haqqında türkiyəli həmkarlarına ətraflı məlumat verib. İyunun 6- da Prof. Güray Kırpıkın rəhbərliyi ilə Tarix müəllimliyi ixtisasının birinci və ikinci kurs tələbələri ilə birlikdə Türk Tarix Muzeyinə səfər təşkil olunub. Kəmalə Mustafayeva Muzeydə “Azərbaycan Xalq Cumhuriyyətindən bu gümümüzə uzanan Türkiyə-Azərbaycan münasibətləri” mövzusunda çıxış edib.

Sonda Kəmalə Mustafayevaya sertifikat təqdim olunub.

## KHAZAR UNIVERSITY STAFF MEMBER AT GAZI UNIVERSITY

Between June 3 and June 7, Kamala Mustafayeva, a faculty member from the Department of History and Archeology, visited Gazi University in Türkiye as part of the Erasmus+ program. During this visit, she met with Prof. Mustafa Safran, Prof.Necdet Hayta, Assoc. Prof. Tugba Belenli, and Assoc. Prof. Ayshegül Nihan Erol Şahin from the History Department of the Faculty of Education at Gazi University.

Kamala Mustafayeva provided her Turkish counterparts with detailed information about the activities and specific programs of Khazar University's History and Archeology Department. During her visit. On June 6, led by Prof. Guray Kırpık, a visit to the Turkish History Museum was arranged for first and second-year students specializing in history teaching. At the museum, Kamala Mustafayeva delivered a speech on "Türkiye-Azerbaijani relations from the People's Republic of Azerbaijan to the present day".

At the end, a certificate was presented to Kamala Mustafayeva.

# "TƏHSİLİN İDARƏ OLUNMASI VƏ MÜƏLLİM HAZIRLIĞI" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ SİMPOZİUM



*Leyla Əliyeva*



# INTERNATIONAL SCIENTIFIC SYMPOSIUM ON "EDUCATION MANAGEMENT AND TEACHER TRAINING"

İyunun 6-7-də Xəzər Universitetinin Təhsil departamentnin təşkilatçılığı, Türkiyənin Qazi Universitetinin Qazi Təhsil Fakültəsinin tərəfdaşlığı ilə "Təhsilin idarə olunması və müəllim hazırlığı" mövzusunda beynəlxalq elmi simpozium keçirilib.

İyunun 6-da Xəzər Universitetinin Mərmər zalında baş tutan simpoziumun açılış mərasimi universitetin Kamera orkestrinin (bədii rəhbər Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Dos. Zülfiyyə Sadıqova) musiqi nömrələri ilə başlayıb.



*Yucel Gelişli*

Sonra tədbiri giriş sözü ilə simpoziumun Təşkilat Komitəsinin həmsədri, Təhsil departamentinin müdiri

On June 6-7, Khazar University's Department of Education, in collaboration with the Gazi Faculty of Education at Gazi University of Türkiye, hosted an international scientific symposium on "Management of Education and Teacher Training."

The symposium's opening ceremony, held on June 6 in Khazar University's Marble Hall, began with a musical performance by the university's Chamber Orchestra, directed by Assoc. Prof. Zulfiyya Sadygova, an honored teacher and pianist.

Assoc. Prof. Leyla Aliyeva, co-chair of the Symposium Organizing Committee and head of the Education Department, delivered the introductory speech, welcomed the participants, and wished them success in the conference.



*Mahmut Selvi*

Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Direc-



*Elza Səmədova*

Dos. Leyla Əliyeva açaraq, iştirakçıları salamlayıb və konfransın işinə uğurlar arzulayıb.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı çıxışında qeyd edib ki, təşkilatçıların fikrincə, bu simpozium gələcəkdə keçirəcəyimiz daha böyük miqyaslı simpoziuma hazırlıq xarakteri daşıyır. Ali məktəblərdə müəllim hazırlığı ciddi, mürəkkəb



*Gürcü Erdamar Koç*

məsələ kimi həmişə müzakirə mövzusu olub və əminəm ki, bu simpoziumda da problemlər dərindən təhlil olunacaq və onların həlli yolları da mütəxəssislərimiz tərəfindən müəyyənləşdiriləcək.

Qazi Universitetinin rektor yardımçısı Prof. Yucel Gelişli söyləyib ki, biz iki ölkənin ali təhsil ocaqları olaraq səylərimizi, təcrübələrimizi birləşdirərək, birgə fəaliyyətimiz sayəsində qarşıya qoyulan hədəfə nail olmalıyıq. Çünki müəllim hazırlığı bütün zamanlarda prioritet məsələ olub və bu gün də öz aktuallığını saxlayır. Əminəm ki, Türkiyənin Qazi Universiteti ilə Xəzər Universiteti qarşıya qoyulan hədəfə sıx əməkdaşlıq şəraitində nail olacaq. Qazi Universitetinin Qazi Təhsil fakültəsinin dekanı Prof. Mahmut Selvi, Azərbaycan Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsildə məzmun və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu,

*(Ardı səh.20-də)*

tors and Trustees, stated in his speech that this symposium serves as a preparation for a larger future event. He emphasized that teacher training in higher education is a complex and important issue, and he is confident that the symposium will thoroughly analyze the problems and identify solutions.



*Salih Şahin*

Prof. Yucel Gelisli, assistant rector of Gazi University, expressed that higher education institutions in both countries should combine their efforts and experiences to achieve their goals through joint activities. He stressed that teacher training has always been a priority and remains relevant today, and he believes that Gazi University and Khazar University will reach their objectives through close cooperation. Prof. Mahmut Selvi, dean of the Gazi Education Fa-



*Mehmet Taşpınar*

culty of Gazi University, Vafa Yagublu, Head of the Department of Content and Assessment in General and Preschool Education of the Ministry of Science and Education of Azerbaijan,Assoc. Prof. Elza Samadova, head of the work sector with higher education institutions of the State Agency for Science and Higher Education, head of the Executive Committee

*(To be continued page 20)*



*Afət Süleymanova*

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Ali təhsil müəssisələri ilə iş sektorunun müdiri, SABAH qrupları İcra Komitəsinin rəhbəri Dos. Elza Səmədova da simpoziumun mühüm önəm daşıdığını vurğulayıblar.

Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva təmsil etdiyi ali təhsil ocağı haqqında iştirakçılara geniş məlumat verib.

I Panel "Müəllim hazırlığında yerli və beynəlxalq təcrübə" mövzusuna həsr olunub. İclasa Prof. Mahmut Selvi və Prof. Hümeyir Əhmədov moderatorluq ediblər. Mövzu ətrafında Qazi Universitetinin təmsilçiləri – Prof. Yucel Gelişli, Dos. Nurcan Uzel, Prof. Mehmet Taşpınar, Prof. Salih Şahin, Prof. Gürcü Erdamar Koç, Prof. Paşa Tevfik Cephe, Prof.Yılmaz Yeşil, Azərbaycan Elm və Təhsil Nazirliyindən Dr. Afət Süleymanova və Elm və Ali təhsil üzrə Dövlət Agentliyindən Dos. Elza Səmədova, Bakı Dövlət Universitetindən Prof. Hikmət Əlizadə, Azərbaycan Dövlət Pedaqoji Universitetdən Dos.Yeganə Cəlilova çıxış edərək, təkliflərini veriblər; təqdim olunan təkliflər, onların həlli yolları müzakirə olunub.

II paneldə müzakirə mövzusu "Təhsilin idarə olunmasında milli prioritetlər, beynəlxalq çağırışlar" olub. Bu iclasın moderatorları isə Prof.Yüsel Gelişli və Prof. Akif Abbasov idi. Çıxışçılar – Qazi Universitetindən Prof. Mahmut Selvi, Prof. Seyfullah Yıldırım, Dr. Sinan Demirtürk, Prof. Muhammed Koçak, Dos. Derya Yüregilli Gökşu, Prof. Dr. Pınar Bilasa, Xəzər Universitetindən Raziyə İsayeva, Dos. Leyla Əliyeva, Mingəçevir Dövlət Universitetindən Dos. Üzeyir Zeynalov təhsil sistemində qazanılan uğurlar, mövcud problemlər və onların həlli yolları barədə mütəxəssis rəylərini bildiriblər. Təqdim olunan bütün təkliflər və mövcud nöqsanlar ətraflı müzakirə olunub.

Bununla da "Təhsilin idarə olunması və müəllim hazırlığı" mövzusuna həsr olunmuş beynəlxalq elmi simpozium öz işini başa çatdırıb.

of SABAH groups, highlighted the significance of the symposium.

Fatima Valiyeva, head of Khazar University's International Relations Department, gave detailed information to the participants about the higher education institution she represents.

The first panel focused on "Local and International Experience in Teacher Training." The session was moderated by Prof. Mahmut Selvi and Prof. Humeyir Ahmadov. Participants included Prof. Yucel Gelisli, Assoc. Prof. Nurcan Uzel, Prof. Mehmet Tashpınar, Prof. Salih Shahin, Prof. Gurcu Erdamar Koch, Prof. Pasha Tevfik Cephe, and Prof. Yılmaz Yeshil from Gazi University; Dr. Afat Suleymanova from the Ministry of Science and Education of Azerbaijan; Assoc. Prof. Elza Samadova from the State Agency for Science and Higher Education; Prof. Hikmat Alizadeh from Baku State University; and Assoc. Prof. Yegana Jalilova from Azerbaijan State Pedagogical



*Yeganə Cəlilova*

University. They presented their proposals, which were then discussed along with potential solutions.

The second panel discussed "National Priorities in Education Management, International Challenges." Moderated by Prof. Yusel Gelisli and Prof. Akif Abbasov, the panel featured speakers from Gazi University, including Prof. Mahmut Selvi, Prof. Seyfullah Yıldırım, Dr. Sinan Demirturk, Prof. Muhammed Kochak, Assoc. Prof. Derya Yuregilli Gokshu, and Prof. Dr. Pinar Bilasa. From Khazar University, Raziya Isayeva and Assoc. Prof. Leyla Aliyeva participated, along with Assoc. Prof. Uzeyir Zeynalov from Mingachevir State University. They shared their expert insights on the successes and challenges in the education system and discussed potential solutions.

With that, an international scientific symposium "Management of Education and Teacher Training" concluded.



*Hökümə Kərimova*

## "NAR"DA TƏYİNAT

Azərbaycanın telekommunikasiya şirkəti "Azerfon" MMC-nin ("Nar") departamentinə təyinat olub. Hökümə Kərimova İctimaiyyətlə Əlaqələr və Korporativ Ünsiyyət Departamentinin direktoru təyin edilib.

H.Kərimova bundan öncə Xarici İşlər Nazirliyi, İsrailin Azərbaycandakı səfirliyi, YARAT Müasir İncəsənət Məkanı və ADA Universitetində çalışıb, müəyən iş təcrübəsinə malikdir.

"Ümid edirəm ki, şirkətin uğurla davam edən kommunikasiya strategiyasına öz töhfələrimi verəcəyəm. Bu yeni mərhələdə bilik və təcrübəmə arxalanaraq, istedadlı komandamız və dəyərli tərəfdaşlarımızla əməkdaşlığı səbrsizliklə gözləyirəm" – deyə H.Kərimova bildirib.

H.Kərimova 2005-2009-cu illərdə Xəzər Universitetində Beynəlxalq münasibətlər üzrə bakalavr dərəcəsi, ADA Universitetində MBA (Biznesin idarə edilməsi) üzrə magistr dərəcəsi alıb.

Xatırladaq ki, "Nar" hal-hazırda 2.2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə yüksək nəticə göstərən mobil operatordur.

Saytlar bu barədə xəbər yayımlayıb.

## APPOINTMENT AT "NAR"

There has been a recent appointment at the department of "Azerfon" LLC ("Nar"), a telecommunications company in Azerbaijan. Hokuma Karimova was appointed as the Director of the Public Relations and Corporate Communications Department.

Hokuma Karimova has extensive work experience, having previously worked at the Ministry of Foreign Affairs, the Embassy of Israel in Azerbaijan, the YARAT Contemporary Art Center, and ADA University.

"I hope to contribute to the company's successful communication strategy. I am eagerly looking forward to collaborating with our talented team and valued partners in this new phase, drawing on my knowledge and experience," said H. Karimova.

Between 2005 and 2009, H. Karimova obtained a bachelor's degree in International Relations from Khazar University and a master's degree in Business Administration (MBA) from ADA University.

Note that "Nar" currently provides high-quality communication services to 2.2 million subscribers. "Nar" has achieved the highest results in the country in the Customer Loyalty Index over the last 5 years among mobile operators.

It has been covered by various news outlets.

*https://banker.az/narda-t%C9%99yinat-olub/* və s.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi

# BİR ÇOX İNSANI DÜŞÜNDÜRƏN SUAL: SÜNİ İNTELLEKT MÜƏLLİMİ ƏVƏZ EDƏCƏKMİ?




**"İndi zaman dəyişib - elm adamları, mühəndislər, texnoloqlar və kimyaçıların həyatı daha rahatdır. Bəstəkarın əsərini isə alan yoxdur. Rəssam bilmir ki, əsərini kimə satsın. Bu, elm adamının yox, texnologiyanın - biotexnologiyanın, nanotexnologiyanın, kompüter mühəndisinin, aqrar texnologiyanın dövrüdür".**

*Bu sözləri "Kaspi" qəzetinə müsahibəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, "Dünya" məktəbinin həmtəsisçisi, çoxbilgin şəxs Prof. Hamlet İsaxanlı deyib.*

**- Hamlet müəllim, dünyada dövlət universitetləri, yoxsa özəl universitetlər güclü hesab olunurlar?**

- Hansısa universitetin necə olması özünə, gücünə və fəaliyyət göstərdiyi ölkədəki ənənəyə bağlıdır. Mərkəzi və Qərbi Avropada olan güclü universitetlərin, demək olar ki, hamısı dövlət və ictimai (publik) universitetlərdir. Söhbət Oksford, Kembric, Sarbon kimi məşhur universitetlərdən gedir. Amma oradakı "dövlət universiteti" anlayışı bizdəki "dövlət universiteti" anlayışından xeyli fərqlidir. Çünki Oksford Universiteti Azərbaycanda olan hər hansı özəl ali məktəbdən qat-qat çox müstəqildir. Oksford və ya Kembric universitetləri heç bir işinə, heç bir siyasətinə, məsələn, tələbə qəbul prosesi, hansısa ixtisas açmalarına və s. görə heç kimdən icazə almalı deyil. Onların idarə heyətləri var, özləri planlaşdırır, universitetin strategiyasını, istiqamətini müəyyənləşdirir, rektoru təyin edirlər. Dövlət yalnız maliyyə verə bilər. Maliyyə alan da elə ən güclü universitetlərdir. Onlar güclü olduqları üçün tədqiqat aparırlar. Dövlət müəyyən kömək etsə də universitet özü qazanır,

özü də müəllimə maaş ödəyir. Fransada bir az fərqlidir, daha mərkəzləşmişdir. Azərbaycana daha çox bənzəyir, müəyyən şeylər üçün icazə almalısan. ABŞ kimi ölkələrdə fərqlidir. Dünyada (çoxu ABŞ-da) ilk iyirmiliyə düşən universitetlərin böyük əksəriyyəti özəl universitetlərdir. Özəl universitetdən sonra publik universitetlər gəlir. Bu o demək deyil ki, publik universitetlərin arasında özəl universitetlərlə yarışanı yoxdur. Publik universitetlərin bir hissəsi çox güclüdür. Məsələn, Berkli Universiteti publik universitetdir. Sonuncu kateqoriya dövlət universitetləridir. Dövlət universitetləri içərisində tək-tək universitetlər olur ki, özəl və publik ali məktəblərlə (ABŞ-da) yarışa girir.

Yaponiyada əvvəl dövlət universitetləri güclü olub, sonra özəl sektor inkişaf edib. Çində dövlət sektoru olub, amma yenə çox güclü özəl universitet qurublar. Hər ölkə tarixi ənənəsinə, inkişafına uyğun universitet qurub. Azərbaycana gəlincə, sovet dövründə "özəl" anlayışı yox idi. Yeni dövrdə yeni ideyaları biz gətirdik. Necə ki, dövlət universitetləri hər yerdə, o cümlədən Azərbaycanda eyni səviyyədə deyil, qaynaqları fərqlidir, özəl universitetlər də yarananda fərqli-fərqli oldular. Onların da güclüsü, ortası, zəifi, pisi var. Dövlət universitetləri də o cürdür. Amma özəl universitetlərin (yaxşıların) bir xüsusiyyəti var ki, onlar daha çox rəqabət içərisindədirlər. Bu, onların inkişafına təkan verir.

**- Bəzi universitetlər öz missiyasını təhsil və sosial sahədə yeni tip mütəxəssislər hazırlamaqda görürlər. Bu yeni mütəxəssislərin hansı peşəkar və "yumşaq" bacarıqları var?**

- Birincisi, ali məktəblərin danışdıqlarının çox hissəsi təbliğatdır. Deyilən sözlərin çoxunun arxasında real əməl yoxdur. Zaman çox dəyişdiyi üçün dövrə uyğun olaraq ixtisasların da strukturu dəyişir. Müəyyən ixtisaslara ehtiyac çox artır, bəzi sahələrə ehtiyac azalır. Məsələn, bu yaxınlarda Ankarada tərəfdaşlarımız olan Orta Doğu Texnik və Bilkent universitetlərinin rektorları ilə görüşdüm. Bilkent Universitetinin rektoru dedi ki, onların ən populyar ixtisası həmişə elektrik və elektronika mühəndisliyi olub. Hazırda isə kompüter mühəndisliyi birinci yerə keçib. Bizim universitetdə də elədir: kompüter mühəndisliyində hər il təxminən 100 tələbə qəbul olunur. Onların təhsil haqqını dövlət ödəyir. Çünki yüksək balla gələnlər dövlət sifarişi ilə gəlir. Keçən tədris ilində tələbələrimizin 66 faizi dövlət sifarişi ilə gəlib. Universitetlərin yeni ixtisaslar üzrə mütəxəssisləri necə hazırlaması da vacib amildir. 10 il əvvəlki kompüter elmləri ilə bugünkü arasında kəskin fərq var. Dəyişiklik o qədər sürətlə gedir ki, Azərbaycanda universitetlərin böyük əksəriyyəti heç onu izləyə bilmirlər. Ona görə ki, Azərbaycanda kompüter elmi sahəsində məktəb olmayıb. Bu sahə üzrə Azərbaycanda, demək olar ki, bir nəfər də xaricdə doktorluq müdafiə etmiş, yəni dünyadakı böyük dəyişmələri bilib-görən mütəxəssis yoxdur. Yenilik, əsasən ABŞ, Yaponiya, İngiltərə, Çin, İsrail kimi dövlətlərdədir. Bu qədər yaxşı uşaqlar gəlir, onlara kim dərs desin? Ona görə bu sahədə çalışan müəllimlərimizin 90 faizi xaricilərdir. Biz xaricdən yaxşı mütəxəssis gətirməyə məcburuq. Populyar ixtisasın müasir tələblərə uyğun gəlməsi üçün o, yaxşı tələbələrə yaxşı müəllim verməlisən. Sənin dünya ilə bağlılığın olmalıdır. Bəzi universitetlər bu işi görə bildikləri üçün bir addım öndədirlər.

Vacib sahələrdə doktoranturada oxuyanların çox olması elm, texnologiya üstünlüyü deməkdir. Bu günlərdə Nobel mükafatçısı Aziz Sancar AMEA-dakı görüşündə "Türk dünyası və Çin" adlı təqdimat etdi. ABŞ-da məşhur "Nature" jurnalının sonuncu nömrəsini göstərib dedi ki, bu jurnalda doqquz elmi məqalə var, onun yeddisini çinlilər yazıb. Kim dünyadakı bu dəyişmələri izləyə və işində tətbiq edə bilirsə, qabağa getmək ehtimalı var. Kim bu yeniliklərlə maraqlanmırsa, sadəcə əyalət məktəbi qurur. Heç yaxşı ali məktəbə düşə bilməyən adamlar zəif yerdən beş manat pul verib bir diplom alacaqlar. Sabah o diplomun da heç bir xeyri olmayacaq. Zamanın fərqini öz işində göstərə bilən ali məktəblər rəqabətdə irəli çıxa biləcəklər. Bu, artıq dünya rəqabətidir. Kiminsə "Azərbaycanda bir universitet niyə Oksfordla yarışmır" deməsi gülməlidir. Çünki Oksford 800 ildir qurulub. İngiltərə bu gün də dünyanın elm mərkəzlərindən biridir. Heç Almaniyada, Fransada da Oksforda bənzəyən universitet yoxdur (çox səviyyəli universitetlər olsa da) Çalışmalıyıq ki, Oksford universiteti hansı yolla gedirsə, biz də ona bənzər olan bir yolla gedək. Aydındır, orada olan professor məndə olmayacaq, amma mən istəyirəm ki, Oksfordda dərsi hansı kitabdan keçirlərsə, o kitabı oxutdurum. İstedadlı tələbə onu başa düşəcək, sonra ardını, mümkündür ki, Oksfordda keçəcək.

**- Azərbaycan təhsili rəqəmsal təhsilə necə transformasiya olunur?**

- Bu günlərdə kompüter elmləri üzrə kafedrada tədris proqramlarını yeniləşdirməklə bağlı

müzakirələr oldu. İki il bundan əvvəl yeniləmişdik. Məsələn, Elm və Təhsil Nazirliyinin standartları ilə bizimki düz gəlmir. Çünki biz daim dəyişirik. İndi kim süni intellekt keçmirsə, qəribə görünür. Biologiya, linqvistika, kilinik psixologiya kimi sahələr də həmin kompüter elmləri olmadan inkişaf edə bilmir. Nanotexnologiya, biotexnologiya da rəqəmsallaşmadan, kompüterləşmədən faydalanırlar.

**- Belə bir fikir var: 60-cı illər fiziklər, 90-cı illər hüquqşünaslar, humanitar və iqtisadçılar dövrü olub. İndiki dövrü də yaqin süni intellekt dövrü kimi xarakterizə edəcəklər...**

-"Fiziklər-liriklər" deyilən problem var. Bir var, maddi nemətləri yaradan sahələr - təbiət elmləri, mühəndis və texnologiya. Bir də var, zövq, ruh üçün olan sahələr - ədəbiyyat, musiqi və s. Zaman göstərir ki, bunların ikisi də lazımdır. Amma dövlətlər İsaak Nyuton`un dövründən başlayaraq təbiət elmləri və mühəndisliyə daha çox fikir veriblər. Çünki körpünü onlar salıblar, televiziyanı onlar yaradıblar və s. Bundan da liriklər həmişə şikayət ediblər. Sovet dövründə bir balans vardı - ikisinə də fikir verirdilər. Bəstəkarın, rəssamın əsərinə, şairin hər sətrinə görə pul verirdilər. Səməd Vurğun Azərbaycanın ən zəngin adamı idi. İndi zaman dəyişib, mühəndislərin, texnoloqların, kimyaçıların həyatı daha rahatdır. Bəstəkarın əsərini isə alan yoxdur. Rəssam bilmir ki, əsərini kimə satsın. Bu dövr nəzəri elm adamından daha çox, texnologiyanın - biotexnologiyanın, nanotexnologiyanın, kompüter mühəndisinin dövrüdür.

**- Bəs əmək bazarı necə, texnologiya dövrünə adekvatdırmı?**

- Kompüter elmlərinə birinci kurs tələbələri gəlir. Proqram yazıb şirkətlərdən xeyli pul qazanırlar. Mühəndislikdə oxuyan tələbələrin çoxunu artıq üçüncü kursda işə çağırırlar. Buraxmasaq, universiteti atıb gedəcəklər, buraxacağıq, pis oxuyacaqlar. Onlar üçün xüsusi çalışırıq: dərslərini şənbə-bazar günlərinə salırıq. Dərs deyənlərin bir qismi də xarici şirkətlərdə çalışdıqlarından həmin günlər gəlirlər. Tələbələrimizin xeyli hissəsi universiteti qurtarmamış işləyirlər, onları əl-əl axtarırlar. Amma bu ədəbiyyatçıya, tarixçiyə aid deyil. Onlar həmişə iş axtarırlar. Mühəndislər də zəif universitetləri qurtarıblarsa zəif iş tapırlar. Baxmayaraq ki, ixtisas yaxşıdır, deyirlər ki, filan yeri qurtarıb, orada savad vermirlər. Yəni ixtisasdan başqa, diplomu kimin verməsi də önəmlidir.

**- Bu il buraxılış imtahanlarından 300 bal toplayan şagirdlərin sayı keçən illə müqayisədə xeyli çox oldu. Sizcə, bir il ərzində nə baş verdi ki, belə bir dönüş yarandı?**

- Bunun dəqiq elmi izahı yoxdur. Görürsən, müəllimlər deyirlər ki, bu il gələn coğrafiyaçılar keçən ildəkilərdən zəifdirlər. Növbəti il "bu il yaxşı uşaqlar gəliblər" deyirlər. Bunun səbəbini dəqiq bilmək olmur. Məktəblərdə müəllimlər dəyişirlər. Yaxşı bir müəllim təqaüdə çıxır, yeni gələn müəllim onu əvəz edə bilmir. Dövlət məktəblərinin əksəriyyətində uşaqlar yuxarı siniflərdə adlarını məktəbə yazdırırlar, hazırlıqlara gedirlər. Repetitorluqda yaxşı olan bəzən gəlib universitetdə özünü doğrultmur. Bəzən elə olur ki, uşaq nisbətən zəif qiymətlə gəlir. Sonra burada elə açılır ki... Görünür, uşağın daxilində potensial olsa da, ya ailəsində ona imkan yaratmayıblar, ya məktəbi, ya da müəllimi zəif olub. Və yaxud, yaxşı balla daxil olan uşaq universitetdə bəzən orta oxuyur. DİM-in testləri dəyişməsi də səbəb ola bilər. Testin suallarını bir balaca çətinləşdirsən qiymətlər aşağı düşür, bir balaca asanlaşdırsan qiymətlər yuxarı qalxır. İndi uşaqların bir hissəsi ali təhsil üçün xaricə gedir. Yaxşı uşaqlar seçilib bir hissəsi Türkiyəyə, bir hissəsi Almaniya və s. gedəndə ölkədə qalan uşaqların zəiflik faizi çoxalır.

**- Söz düşmüşkən, xaricdə təhsilə kütləvi axın var.**

- 90-cı illərdə biz ABŞ-ın Kaliforniya Universiteti ilə əməkdaşlıq etmək üçün qrant aldıq. Oranın proqram direktoru deyirdi ki, çalışın, bakalavr səviyyəsində xaricə çox uşaq göndərməyin. Çünki bakalavr ali məktəbin aşağı pilləsidir. Burada yaxşı ali məktəb olsa, uşaq bakalavrda öyrənəcək. Çünki faktiki ali məktəbə gələn uşaq ana uşağıdır. Birdən-birə xaricdə fərqli mühitə düşəndə stress olur, başqa dil və şəraitlə qarşılaşır və ya pis yola düşə bilir və s. Amma bakalavr pilləsini qurtarıb xaricdə magistraturaya daxil ola bilsə, artıq yetişmiş adam olur. Xaricə gedənlər yaxşı universitetdə oxumaq istəyirlər. Avropaya, Amerikaya gedə bilməyənlər heç olmasa Türkiyədəki yaxşı universitetdə oxumağa çalışırlar. Türkiyənin Avropa universitetlərinə yaxın 10-12 universiteti var.

**- Bu yaxınlarda elm və təhsil naziri "biz tədqiqatçı yetişdirə bilmirik, ən yaxşı halda mütəxəssis yetişdiririk", - deyə bildirib. Çıxış yolunu elmi tədqiqat institutlarının birləşməsində, eyni statusluların ixtisarında və universitetlərin nəzdinə verilməsində görənlər var. Sizin fikirləriniz necədir?**

- Bizim universitet işə başlayanda həmişə fikirləşmişəm ki, bura elmi tədqiqat universiteti olacaq. Bilirəm ki, bu, ölkənin nüfuzunu göstərən amildir. Azərbaycanın Elmlər Akademiyası kimi çox institutları və binaları olan akademiya dünyanın inkişaf etmiş heç bir ölkəsində yoxdur. Məsələn, Almaniya EA-nın bir ikimərtəbəli binası var. Çünki orda akademiya müxtəlif universitetlərdə işləyən alimlərin birliyidir - Yazıçılar Birliyi kimi. ABŞ-da, İngiltərədə də elədir. "On min adamlıq akademiya saxlayım, hamısının maaşını verim", hökumətlər bunu edə bilməz. Fikrimcə, bizdə də hökumət islahat etməlidir. Gürcüstan, Baltikyanı ölkələr etdilər. Bizdə müzakirələr getdi, təkliflər səsləndi, amma yarımçıq bir iş görüldü. Dedilər təbiət elmi institutlarını verək Elm və Təhsil Nazirliyinə, humanitar sahə qalsın akademiyada. Dünyadakı akademiyalar daha çox humanitar sahələr üzərində yox, təbiət elmləri üzərində qurulur. İslahatın yarımçıq olması islahat aparmamaqdan daha pisdir.

**- Bu gün bir çox peşə sahələrində verilən sual: süni intellekt müəllimi əvəz edəcəkmi?**

- Qətiyyən mümkün deyil. Süni intellekt var və güclənir. Bu, həmişə olub. Məsələn, evində oturub heç nəyə dəymədən televiziyaya baxırsan, radioya qulaq asırsan. Bu, süni intellektdir. İndi deyirsən "dostuma bir təşəkkür məktubu yaz", süni intellekt onu yazır. Sənayeləşmənin, texnologiyanın yeni bir dövrüdür. Süni intellekt insanı ağır əməkdən qurtarır. Əvvəllər insanların ürəyi tutanda ölüb gedirdilər. İndi xəstəxanalarımızda maşın-mexanizmlərin, texnologiyaların köməyi ilə ürək əməliyyatı edən nə qədər həkimlərimiz var. Süni intellekt maşın-mexanizmlərin keyfiyyətinin, həssaslığının artmasıdır. Süni intellekt istənilən halda bir cihazdır. Onu insan icad edir, təkmilləşdirir və idarə edirsə, o, insanı necə əvəz edə bilər?

**- Sonuncu sualım: müasir və milli dəyərləri kombinə edən təhsilin açarını tapmaq çoxmu çətindir?**

- Hesab etmirəm ki, çətindir. İnsan müəyyən dəyərləri seçir. Bu, onun vicdanıdır. Məsələn, valideynə xidmət etmək övladın borcudur. Təhsildə də milli və bəşəri dəyərləri, maddi və ruhi dəyərləri birləşdirmək olar. Əslində, düzgün təhsil ona deyirlər. Kimliyimizdə o qədər yaxşı dəyərlər var ki, onları itirmək olmaz.

*https://www.kaspi.az/suni-intellekt-insani-agir-emekden-qurtarir-musahib*

***15.06.24***

## "KASPI" NEWSPAPER INTERVIEWS PROF. ACAD. HAMLET ISAKHANLI

In its June 15, issue, the "Kaspi" newspaper featured an in-depth interview with Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of its Board of Directors and Trustees, titled "The Question That Makes Many People Think: Will Artificial Intelligence Replace a Teacher?"

In the interview, H. Isakhanli shared his views on various topics, including the comparison of public and private universities globally, the training of a new type of specialists, the shift of Azerbaijani education towards digital education, the alignment of the labor market with the technological age, the mass movement of students pursuing education abroad, the merging of scientific research institutes, and their reduction and integration into universities.

Other sites have also published the interview, citing the "Kaspi" newspaper as the source.

Around 20 national news portals published the interview with reference to "Kaspi" newspaper.

*https://www.kaspi.az/suni-intellekt-insani-agir-emekden-qurtarir-musahib*

Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına DİLÇİLİK İNSTİTUTU

# ÇİNLİ MAGİSTRANTIN AZƏRBAYCAN-ÇİN DİLLƏRİNİN MÜQAYISƏSİNƏ AİD MƏRUZƏSİ

İyunun 7-də AMEA Nəsimi adına Dilçilik İnstitutunda elmi seminar keçirilib.

Seminarda Xəzər Universitetinin çinli magistrantı Yuxuan Tang "Azərbaycan dilində hal kateqoriyası və onun Çin dilində ifadə vasitələri" mövzusunda məruzə edib.

Azərbaycan dilində səlis nitq nümayiş etdirən Yuxuan Tang söyləyib ki, Çin dili kök dil olduğuna görə bu dildə qrammatik kateqoriya və hal anlayışı yoxdur, amma hal kateqoriyasının ifadə vasitələri var. Azərbaycan dilində olan adlıq hallı sözlər Çin dilində də heç bir əlavə olmadan işlənir O, Çin dili ilə Azərbaycan dili arasındakı eyni və fərqli çəhətləri məruzə boyu şərh edib.

Sonda professorlar İlham Tahirov və Sayalı Sadıqova, dosentlər Şəbnəm Həsənli Qəribova və Reyhan Mədətova çinli magistrantın məruzəsinə münasibət bildirərək, aparılan araşdırmanın əhəmiyyətli olduğunu vurğulayıblar.



*Yuxuan Tang*

# CHINESE MASTER'S STUDENT DELIVERS SPEECH ON COMPARISON OF AZERBAIJANI-CHINESE LANGUAGES

On June 7, a scientific seminar was held at the Institute of Linguistics named after Nasimi of ANAS.

Yuxuan Tang, a Chinese graduate student from Khazar University, delivered a speech titled "Azerbaijani Case Category and Its Means of Expression in Chinese."

Yuxuan Tang, who speaks Azerbaijani fluently, explained that Chinese, being an isolating language, does not have grammatical categories or cases, but it does have means of expressing case. He noted that nominative words in Azerbaijani are used in Chinese without any addition. Throughout the speech, he discussed the similarities and differences between the Chinese and Azerbaijani languages.

At the end of the seminar, professors Ilham Tahirov and Sayali Sadigova, along with associate professors Shabnam Hasanli Garibova and Reyhan Madatova, commented on Yuxuan Tang's speech and highlighted the significance of his research.



*Fərdi Həsənli*

## BANK OF BAKU`DA YENI TƏYİNAT

Həsənli Fərdi Mirzalı oğlu Bank of Baku`da Biznes satışı üzrə sahə direktoru vəzifəsinə təyin olunub. O, bankın KOB bankçılıq, Korporativ bankçılıq, Məhsul və müştəri idarə etməsi departamentlərini kurasiya edəcək.

Fərdi Həsənli iş fəaliyyətinə 2008-ci ildə TBC Kreditdə - Bank Olmayan Kredit Təşkilatında başlayıb. Bank of Baku komandasına 2012-ci ildə Daxili audit departamentinin auditoru kimi qoşulub. 2020-ci ildən Daxili Nəzarət Departamentinin direktoru, 2021-ci ildən yeni təyinata qədər isə Risklərin idarə edilməsi və nəzarət departamentinin direktoru vəzifəsini icra edib.

Qeyd edək ki, Fərdi Həsənli 2005-2009-cu illərdə Azərbaycan Dövlət İqtisad Universitetində Maliyyə və kredit üzrə bakalavr, 2010-2013-cü illərdə Xəzər Universitetində Maliyyə üzrə magistr dərəcəsi alıb.

Ölkə mediasında bu barədə xəbər yayıb:

## NEW APPOINTMENT AT BANK OF BAKU

Hasanli Fardi Mirzali oglu has been appointed as the field director for business sales at Bank of Baku. He will curate the bank's SME banking, Corporate banking, Product and customer management departments.

Fardi Hasanli began his career in 2008 at TBC Kredit, a Non-Bank Credit Institution. He joined Bank of Baku in 2012 as an auditor in the Internal Audit Department. He was the director of the Internal Control Department from 2020, and the director of the Risk Management and Control Department from 2021 until this recent promotion.Note that Fardi Hasanli received a bachelor's degree in finance and credit from Azerbaijan State University of Economics in 2005-2009, and a master's degree in finance from Khazar University in 2010-2013. The national media have covered this appointment:

***https://qafqazinfo.az/news/detail/bank-of-bakuda-yeni-teyinat-439837*** **və s.**

## "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİ MƏRAKEŞDƏ KEÇİRİLMİŞ "ŞUŞA GÜNLƏRİ"NDƏ

## KHAZAR UNIVERSITY'S DEPARTMENT HEAD IN "SHUSHA DAYS" IN MOROCCO



*Aydın Kərimov* *Salim bin Məhəmməd əl-Malik*

ICESCO-nun qərarı ilə Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Mərakeşdə iyunun 6-7-də Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı, Azərbaycan Respublikasının Mərakeş Krallığındakı səfirliyi, ICESCO və Dövlət Turizm Agentliyinin dəstəyi ilə "Şuşa günləri" keçirilib.

"Şuşa günləri" iyunun 7-də ölkənin paytaxtı Rabatda ICESCO-nun Baş qərargahında keçirilən geniş tədbirlə yekunlaşıb. Tədbirdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov, Dövlət Turizm Agentliyinin Qoruqların İdarəetmə Mərkəzinin sədri Murad Ağabəyli, Xəzər Universiteti Tərcümə Mərkə-

Following ICESCO's decision to declare Shusha the "Cultural Capital of the Islamic World" for 2024, "Shusha Days" were organized in Morocco on June 6-7. The event was coordinated by the Shusha City State Reserve Department, the Embassy of the Republic of Azerbaijan in Morocco, with support from ICESCO and the State Tourism Agency.

"Shusha Days" concluded on June 7 with a major event at the ICESCO Headquarters in Rabat, Morocco's capital. The event was attended by Aydin Karimov, the special representative of the President of Azerbaijan in the Shusha region; Salim bin Muhammad al-Malik, the Director General of ICESCO; Nazim Samadov, the Ambassador of Azerbaijan to Morocco; Murad Aghabeyli, the Chairman of the Reserves Management Center of the State Tourism Agency; Dr. Elvin Abbasbeyli,the coordinator of the Center

zinin koordinatoru Dr. Elvin Abbasbəyli, həmçinin müxtəlif ölkələrin Mərakeşdə akkreditə olunmuş səfirləri, ICESCO rəsmiləri, dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Rəsmi hissədən, AZƏRTAC-ın təqdim etdiyi fotolardan ibarət sərgiyə baxışdan, XVIII-XIX əsrlərə aid Qarabağ milli geyimlərinin nümayişindən və Şuşa mətbəxinin təqdimatından sonra tədbir konsert proqramı ilə davam edib. Konsert proqramında Azərbaycanın tanınmış incəsənət xadimləri Qarabağı, Şuşanı vəsf edən mahnılar, Azərbaycan Dövlət Rəqs Ansamblının üzvləri isə milli rəqsləri ifa ediblər. Konsert Xəzər Universittinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın iştirakı ilə (həm solo, həm müşayiət) keçib.

Tədbir mediada geniş işıqlandırılıb.

*https://special.azertag.az/az/xeber/3044082*
*https://www.xalqqazeti.az/az/last-news/182776-merakesde-susa-gunleri* və s.



*Əməkdar artist İlahə Əhmədova, Zülfiyyə Sadıqova*




for Translation and Interpretation; ambassadors from various countries accredited to Morocco, ICESCO officials, and representatives of state institutions also participated.

After the official part, attendees viewed an exhibition of photos presented by AZERTAC, a display of 18th-19th century Karabakh national costumes, and a presentation of Shusha cuisine. The event continued with a concert program where well-known Azerbaijani artists performed songs glorifying Karabakh and Shusha, and members of the Azerbaijan State Dance Ensemble performed national dances. The concert featured solo and accompaniment performances by Zulfiya Sadighova, the honored teacher and head of the Music and Art Department of Khazar University. The event was widely covered in the mediae.

*https://special.azertag.az/az/xeber/3044082*
*https://www.xalqqazeti.az/az/last-news/182776-merakesde-susa-gunleri* et.c.



Xumar Hüseynova



# XƏZƏR UNİVERSİTETİNDƏ AccessBank GÜNÜ

İyunun 11-də Karyera və Məzunlar Mərkəzinin və Təbiət elmləri və mühəndislik fakültəsinin birgə təşkilatçılığı ilə "Kompüter elmləri" və "Kompüter mühəndisliyi" ixtisası üzrə təhsil alan sonuncu kurs tələbələri üçün "AccessBank Günü" keçirilib. Görüşdə AccessBankın Təhsil və inkişaf meneceri Xumar Hüseynova şirkətin fəaliyyəti, məqsədləri, əsas hədəfləri barədə geniş məlumat verib.

Sonra bankın İnformasiya texnologiyalarının inkişafı departamentinin direktor müavini Fərid Heydərov öz çıxışında daha çox "İnformasiya texnologiyaları (İT) üzrə yay məktəbi" proqramı və müəssisənin işə qəbul prosesi ilə bağlı danışmışdır.

AccessBankın Biznes tərəfdaşlığı üzrə mütəxəssisi Rima Cəfərova işə qəbul, karyera maraqları, şəxsi brend, CV-nin yazılması, müsahibəyə hazırlıq kimi məsələlərdən bəhs edib.




Fərid Heydərov




Rima Cəfərova

# AccessBank DAY AT KHAZAR UNIVERSITY

On June 11, the "AccessBank Day" took place for senior students majoring in "Computer Science" and "Computer Engineering," organized jointly by the Career and Alumni Center and the School of Science and Engineering. During the session, Khumar Huseynova, Education and Development Manager at AccessBank, provided comprehensive details about the company's operations, objectives, and primary aims.

Following that, Farid Heydarov, Deputy Director of AccessBank's Information Technology Development department, elaborated on the "IT summer school" program and the bank's recruitment procedures, addressing student inquiries during his presentation. AccessBank's Business Partnership Specialist, Rima Jafarova, discussed the company's recruitment success strategy, initial research, career interests, personal branding, CV writing techniques, interview preparation, and frequently asked questions. The session concluded with responses to questions from the students.

# SEMİNAR: "KVANT MATERİALLARI: DİZAYN, TƏDQİQAT VƏ TƏTBİQ PERSPEKTİVLƏRİ"




*Ziya Əliyev*



# SEMINAR ON "QUANTUM MATERIALS: DESIGN, EXPLORING AND APPLICATIONS PERSPECTIVES "

İyunun 11-də Xəzər Universitetində BDU-nun müəllimi, Texniki elmlər doktoru Dos. Ziya Əliyev tərəfindən "Kvant materialları: dizayn, tədqiqat və tətbiq perspektivləri" mövzusunda seminar keçirilib. Müzakirə şəraitində keçən seminarda Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad. Hamlet İsaxanlı, professor- müəllim heyəti və tələbələr iştirak ediblər.

Qeyd edək ki, Ziya Əliyev 2009-cu ildə Bakı Dövlət Universitetində fəlsəfə doktoru, 2021-ci ildə isə texniki elmlər doktoru elmi dərəcələri alıb. 2013-2014-cü illərdə İspaniyanın Donostia Beynəlxalq Fizika Mərkəzində və Bask Ölkə Universitetində postdoktoranturada oxuyub. Onun tədqiqatı əsasən termoelektrik enerjinin çevrilməsi, spintronika, kvant hesablamaları və optoelektronika üçün innovativ qabaqcıl elektron materialların dizaynı, sintezi və monokristal sahələrinə aiddir. Ziya Əliyevin tədqiqat nəticələri nüfuzlu indeksli jurnallarda dərc edilib.

On June 11, a seminar on "Quantum Materials: Design, Exploring and Applications Perspectives " was held by Doctor of Technical Sciences, a faculty member of BSU Assoc. Prof. Ziya Aliyev at Khazar University. The Chairman of the Board of Directors and Trustees of Khazar University, Prof. Acad. Hamlet Isakhanli, professor-teacher staff and students took part in the seminar, which took place in a discussion environment.

Note that, Ziya Aliyev earned his Doctor of Philosophy from Baku State University in 2009 and his Doctor of Technical Sciences in 2021. During 2013-2014, he pursued postdoctoral studies at the Donostia International Physics Center and the University of the Basque Country in Spain. His research primarily focuses on the design, synthesis, and development of single crystals for advanced electronic materials used in thermoelectric energy conversion, spintronics, quantum computing, and optoelectronics.Ziya Aliyev's research findings have been published in prestigious indexed journals.

# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ, "ƏBƏDİ BİRLİK" GƏNCLƏR İCTİMAİ BİRLİYİNİN SƏDRİ ŞAHİN ƏLİYEV ŞİMALİ KİPR TÜRK CÜMHURİYYƏTİNDƏ SƏFƏRDƏ OLUB

# KHAZAR UNIVERSITY STUDENT AND " ETERNAL UNITY" YOUTH PUBLIC UNION CHAIRMAN SHAHIN ALIYEV VISITS TURKISH REPUBLIC OF NORTHERN CYPRUS

Mayın 12-17-də Xəzər Universitetinin tələbəsi, "Əbədi Birlik" Gənclər İctimai Birliyinin sədri Şahin Əliyev Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) Məclisinin sədri Zorlu Töre`nin özəl qonağı olaraq, ölkəyə səfər edib. O, səfər zamanı rəsmi dəvətlə Azərbaycan-ŞKTC və Türkiyə-ŞKTC parlamentlərarası əlaqələr üzrə işçi qrupları nümayəndə heyətlərinin iştirakı ilə keçirilən bəzi tədbirlərə də qatılıb.

Şahin Əliyev "Əbədi Birlik" Gənclər İctimai Birliyinin Şimali Kipr nümayəndəliyinin rəhbəri Serdar Şengül'lə birlikdə ilk olaraq Cümhuriyyət Məclisinin sədri Zorlu Töre ilə görüşərək, ona rəhbərlik etdiyi ictimai birliyin "Şərəfli Xidmət" və şəxsi katibi İrem Uygun`a "Xidmət" mükafatını və müəllifi olduğu "İlhamlı Zəfər - 20", həmçinin "Kıbrıs - Şərqi Aralıq Dənizində Türklərin Əbədi Qalası" kitablarını təqdim edib.

From May 12-17, Shahin Aliyev, a student of Khazar University and chairman of the " Eternal Unity " Youth Public Union, visited the Turkish Republic of Northern Cyprus (TRNC) as a special guest of the Chairman of the TRNC Assembly, Zorlu Tore. During his visit, he attended several events involving working group delegations on inter-parliamentary relations between Azerbaijan-TRNC and Türkiye-TRNC, based on an official invitation.

Shahin Aliyev, along with Serdar Shengul, the head of the North Cyprus representative office of the " Eternal Unity" Youth Public Union, first met with the Chairman of the Republic Assembly, Zorlu Tore, and presented him with the "Honorable Service" Award from the public union he leads. He also awarded the "Service" award to personal secretary Irem Uygun and presented the books "Victory with Ilham Aliyev-20" and "Cyprus - the Eternal Fortress of the Turks in the Eastern Mediterranean," which he authored. In return, Chairman of the Republic Assembly Zorlu Tore gave gifts from the Republic



*Şahin Əliyev, Zorlu Töre*

Cümhuriyyət Məclisinin sədri Zorlu Töre də öz növbəsində Şahin Əliyevə Cümhuriyyət Məclisinə məxsus hədiyyələr təqdim edib.

Digər görüş Türkiyə Respublikası Gənclər və idman koordinatoru Mithat Tekçam və Şimali Kiprin AK Parti nümayəndəliyinin sədr müavini Metin Yılgın ilə baş tutub. Görüş zamanı Azərbaycan-Türkiyə-Şimali Kipr gənclərinin mübadilə proqramlarının və birgə layihələrin icrası ilə bağlı fikir mübadiləsi aparılıb.

Mayın 13-də Azərbaycandan olan heyət 1964-cü ilin dekabrında yunan EOKA-cılar tərəfindən qətlə yetirilən 12 türk şəhidinin İskele şəhərində Xatirə abidəsinin açılışında olub. Zorlu Töre çıxışında bu torpaqları canlarından keçərək Vətən edən qəhrəmanların heç zaman unudulmayacağına əminliyini bildirib. Şahin Əliyev bu tədbirdə Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti Ersin Tatar`la görüşüb.

Cümhuriyyət Məclisinin sədri Zorlu Töre Türkiyə-Azərbaycan, Türkiyə-ŞKTC və Azərbaycan-ŞKTC parlamentlərarası əlaqələr üzrə işçi qrupları və onları müşayiət edən nümayəndə heyətləri ilə birlikdə Maraş şəhərini gəzib. Şahin Əliyev və Serdar Şengül də bu gəzintiyə dəvət olunublar. Azərbaycan Milli Məclisinin ŞKTC

*(Ardı səh.34-də)*



*Mine Emiroğlu*

Assembly to Shahin Aliyev.

Another meeting was held with Mithat Tekcam, Youth and Sports Coordinator of the Republic of Türkiye, and Metin Yılgın, Deputy Chairman of the AK Party Representation of Northern Cyprus. During the meeting, opinions were exchanged regarding the implementation of the exchange programs and joint projects of young people of Azerbaijan- Türkiye -Northern Cyprus.

On May 13, the Azerbaijani delegation attended the opening of a monument in Iskele dedicated to the 12 Turkish martyrs killed by the Greek EOKA in December 1964. In his speech, Zorlu Tore expressed his confidence that the heroes who gave their lives

*(To be continued page 34)*



*İrem Uygun, Serdar Şengül, Fazil Mustafa, Şahin Əliyev*

Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Cavanşir Feyziyev, Türkiyə-ŞKTC Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Orhan Erdem mərasimdə çıxış ediblər. Maraşı gəzinti zamanı Şahin Əliyev AK Parti ŞKTC nümayəndəsi Fahri Yönlüer ilə görüşüb və onlar gənclərin inkişafı üçün prioritet istiqamətlər mövzusunda fikir mübadiləsi aparıblar.

Şahin Əliyev və Serdar Şengül ŞKTC Turizm və Ekologiya Nazirliyinin Tanıtım və marketinq şöbəsinin rəhbəri Mine Emiroğlu ilə də görüşüblər. Görüş zamanı onlar turizm əlaqələri, birgə keçiriləcək layihələr haqqında danışıblar. Şahin Əliyev və Serdar Şengül Mine Emiroğlu'ya Azərbaycan-Şimali Kipr dostluq əlaqələrinin inkişafındakı əməyinə görə "Xidmət Mükafatı" təqdim ediblər. Mine Emiroğlu da Şahin Əliyevə Şimali Kipr mədəniyyətini özündə əks etdirən əl işlərindən ibarət hədiyyə verib.

Sonra Şahin Əliyev və Serdar Şengül Torex Trading şirkətinin rəhbəri Tuygun Töre ilə görüşüblər.

Torex Trading ŞKTC təşkilatıdır və təkrar emal edilmiş tullantı torbaları istehsal edir, həmçinin təmizlik və gigiyena məhsulları satır. Bu mövzuda Şahin Əliyev Tuygun Töre ilə Azərbaycanda 2024-cü ilin "Yaşıl Dünya Naminə Həmrəylik İli" elan olunması və Bakıda keçiriləcək COP29 ilə bağlı fikir mübadiləsi aparıblar.

Şahin Əliyev ŞKTC Ülkü Ocaklarının rəhbəri Fatih Arıcı ilə görüşüb. Görüş zamanı hər iki tərəf öz fəaliyyət istiqamətlərindən, birlikdə icra ediləcək layihələrdən danışıblar.

Mayın 16-da isə Cümhuriyyət Məclisinin sədri Zorlu Töre Azərbaycan Milli Məclisinin Azərbaycan - ŞKTC Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyevi və onu müşayiət edən nümayəndə heyətini Ercan hava limanından yola salıb. Mərasimdə Şahin Əliyev, Serdar Şengül iştirak ediblər.

Mayın 16 -da Zorlu Töre yenidən Şahin Əliyev, Serdar Şengül və Türkiyə nümayəndəliyi ilə görüşüb, onlara uğurlar arzulayıb və Türk dünyası gənclərini birliyə səsləyib.

Mayın 17-də "Əbədi Birlik" Gənclər İctimai Birliyinin səfəri başa çatıb.

to make these lands their homeland would never be forgotten. During this event, Shahin Aliyev met with the President of the Turkish Republic of Northern Cyprus, Ersin Tatar.

Chairman of the Republic Assembly, Zorlu Tore, toured the city of Marash with the Türkiye-Azerbaijan, Türkiye -TRNC, and Azerbaijan- TRNC inter-parliamentary working groups on relations and their accompanying delegations. Shahin Aliyev and Serdar Shengul were also invited on this city tour. Javanshir Feyziyev, Chairman of the Interparliamentary Working Group of Azerbaijan Milli Majlis, and Orhan Erdem, Chairman of the Interparliamentary Working Group on relations of Türkiye -TRNC, spoke at the ceremony. During the city tour, Shahin Aliyev met with Fahri Yonluer, a representative of the AK Party, and they exchanged views on priority areas for youth development.

Shahin Aliyev and Serdar Shengul also met with Mine Emiroglu, the head of the Promotion and Marketing Department of the Ministry of Tourism and Ecology of the TRNC. During the meeting, they talked about tourism relations and joint projects. Shahin Aliyev and Serdar Shengul presented "Service Award" to Mine Emiroglu for her work in the development of friendly relations between Azerbaijan and Northern Cyprus. Mine Emiroglu also gave Shahin Aliyev a gift of handicrafts reflecting the culture of Northern Cyprus.

Then Shahin Aliyev and Serdar Shengul met with Tuygun Tore, head of Torex Trading.

Torex Trading is an TRNC organization that manufactures recycled waste bags and sells cleaning and hygiene products. In this regard, Shahin Aliyev and Tuygun Tore exchanged views on the declaration of 2024 as the "Year of Solidarity for the Green World" in Azerbaijan and the COP29 to be held in Baku. Shahin Aliyev met with Fatih Arıcı, the head of TRNC Idealist Hearths. During the meeting, both sides discussed their respective activities and potential collaborative projects.

On May 16, Chairman of the Republic Assembly Zorlu Tore bid farewell to Javanshir Feyziyev, head of the Azerbaijan Milli Majlis Working Group on Azerbaijan-TRNC inter-parliamentary relations, and his accompanying delegation at Ercan airport. Shahin Aliyev and Serdar Shengul were also in attendance.

On May 16, Zorlu Tore met once more with Shahin Aliyev Serdar Shengul, and the Turkish delegation, extending his best wishes for their success and calling for unity among the youth of the Turkic world.

The visit of the " Eternal Unity" Youth Public Union concluded on May 17.

## KOREYA UNİVERSİTETİNİN DOKTORANT TƏLƏBƏSİ "BK21 MÜKAFATINA LAYİQ GÖRÜLÜB"

Xəzər Universitetinin Tarix və coğrafiya müəllimliyi ixtisası üzrə məzunu (2012-2016), Koreya Universitetinin doktorant tələbəsi Günay Kərimova 6-cı Asiya Hidrobiologiya Cəmiyyətinin Konfransında təqdim etdiyi araşdırmaya görə BK21 mükafatına (BK21 best award) layiq görülüb. G.Kərimovanın araşdırması su bioloji ekosistemlərinin anlaşılmasına və sahəyə potensial təsirinə aiddir.

G.Kərimova fəlsəfə doktoru tədqiqatı üzrə su ekosistemində yaşayan növlərin qarşılıqlı təsirini və onların sağlamlığının qorunmasının vacibliyini araşdırır.




*Günay Kərimova*

## KOREA UNIVERSITY DOCTORAL STUDENT RECEIVES BK21 AWARD

Gunay Elbrus Karimova, a Khazar University alumna who majored in History and Geography Education from 2012 to 2016 and is currently a doctoral student at Korea University, received the BK21 best award for her research presented at the 6th Biannual Conference of the Asian Society for Hydrobiology (ASH). G. Karimova's research focuses on understanding aquatic biological ecosystems and their potential impact on the field.

In her PhD research, G. Karimova studies the interaction of species within aquatic ecosystems and the importance of maintaining their health.



*Günay Məmmədova*

## QAFQAZİNFO.AZ: GƏNC TƏDQİQATÇI İNGİLİS DİLİNİN AKSENT XÜSUSİYYƏTLƏRİNİ TƏDRİS EDİR

İyunun 24-də qafqazinfo.az xəbər portalı Xəzər Universitetinin magistr məzunu, Elm və Təhsil Nazirliyinin keçirdiyi "Təhsilin ulduzu" müsabiqəsinin mükafatçısı Günay Məmmədova ilə müsahibə dərc edib.

Müsahibədə Günay Məmmədovanın ingilis dilinin tələffüzü, aksent xüsusiyyətlərini Azərbaycanda "Ustadım" təhsil brendi adı altında uğurla tətbiq edən ilk mütəxəssis olduğu nəzərə çatdırılır. Yazıda, həmçinin, "Ustadım" Tələbə Uğur Mərkəzinin digər aksent mütəxəssisi Səmayə Müslümzadətə də yer verilmişdir.

## QAFQAZINFO.AZ: YOUNG RESEARCHER TEACHES ENGLISH ACCENT FEATURES

On June 24, 2024, the Qafqazinfo.az news portal published an interview with Gunay Mammadova, a master's graduate of Khazar University, winner of the "Star of Education" competition held by the Ministry of Science and Education.

The interview highlights that Gunay Mammadova is pioneering the application of English pronunciation and accent features in Azerbaijan through the "Ustadim" educational brand. The article also features Samaya Muslimzadeh, another accent specialist at the "Ustadim" Student Success Center.

*https://qafqazinfo.az/news/detail/genc-tedqiqatci-alim-london-tehsilini-bakiya-getirdi-musahibe-439761*



# BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALI III ÇARLZ`IN BAKIDA TƏVƏLLÜD GÜNÜ QEYD OLUNUB

İyunun 12-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfirliyi tərəfindən Bakıdakı Hyatt Regency hotelində Böyük Britaniya və Şimali İrlandiyanın kralı III Çarlz`ın təvəllüd günü – milli bayram tədbiri keçirilmişdir. Azərbaycan hökuməti, Milli Məclis, diplomatik korpus, universitetlər, ictimai-siyasi təşkilatlar və media təmsilçilərinin iştirakı ilə keçən tədbirdə səfir Fergus Auld Azərbaycan dilində çıxış etmiş, digər natiqlər təbrik nitqi söyləmişlər.

Tədbirdə səfirliyin dəvəti ilə Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev də iştirak etmişdir.

# BAKU CELEBRATES THE BIRTHDAY OF KING CHARLES III OF GREAT BRITAIN AND NORTHERN IRELAND

On June 12, the UK Embassy in Azerbaijan held a national holiday event at the Hyatt Regency hotel in Baku to celebrate the birthday of King Charles III of Great Britain and Northern Ireland. Ambassador Fergus Auld delivered a speech in Azerbaijani at the event, which was attended by representatives from the Azerbaijani government, Milli Mejlis, diplomatic corps, universities, socio-political organizations, media. Other speakers also gave congratulatory speeches.

Dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy at Khazar University, attended the event at the embassy's invitation.



*Orxan Vəliyev, Fergus Auld*



*İradə Xəlilova*

## XƏZƏR UNİVERSİTETİNİN REKTORU "2024 - SAĞLAM GƏLƏCƏYİN PROQNOZLAŞDIRILMASI QLOBAL SAMMİTİ"NDƏ

## KHAZAR UNIVERSITY RECTOR ATTENDS "2024 FORECASTING HEALTHY FUTURES GLOBAL SUMMIT"

Hər il COP (Tərəflər konfransı) ərəfəsində baş tutan Sağlam Gələcəyin Proqnozlaşdırılması (FHF) Qlobal Sammiti 2024-cü il iyunun 18-20-də Bakıda keçirilib. Sammitdə Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova iştirak edib

Qlobal sammitin məqsədi iqlim dəyişikliyi və onun insan sağlamlığı üçün nəticələrini müzakirə etməkdən, iqlim və sağlamlıq təşkilatlarını bir araya gətirməkdən, həmçinin birgə fəaliyyət imkanları və strategiyalarını müəyyən etməkdən ibarət idi.

Sammitin ılk günü Sağlam Gələcəyin Proqnozlaşdırılması üzrə Təşkilatların idarəedici direktoru Kelly Willis, Azərbaycan Xarici İşlər Nazirinin müavini Yalçın Rəfiyev, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Ətraf mühit, iqlim dəyişikliyi və sağlamlıq departamentinin direktoru Maria Neira və COP28-in baş direktoru Majid Al Suwaidi açılış nitqi ilə çıxış ediblər. Tədbirin ikinci günü ÜST-nin İqlim dəyişikliyi və sağlamlıq üzrə baş direktorluğunun nümayəndəsi Vanessa Kerry, dünyanın ən böyük sağlamlıq donoru - Qlobal Fondun icraçı direktoru Peter Sands və digərləri çıxış ediblər.

Sonuncu gün Azərbaycan səhiyyə nazirinin müavini Nadir Zeynalov iqlim və insan sağlamlığı haqqında fikir və mülahizələrini bildirib. Bundan əlavə, COP26, COP27, COP28 və COP29 nümayəndələri arasında Davamlı inkişaf üzrə COP Dialoqu baş tutub. COP məsləhətçiləri iqlim və insan sağlamlığı ilə bağlı ən vacib məsələləri müzakirə etmək üçün dəyirmi masalar keçiriblər.

The 2024 Forecasting Healthy Futures (FHF) Global Summit was held on June 18-20 in Baku, Azerbaijan, which is held annually in the run-up to COP. Rector of Khazar University Assoc. Prof. Irada Khalilova participated in the summit.

The purpose of the global summit is to unite the climate and health communities to discuss climate change and its consequences for human health, as well as to identify opportunities and strategies for joint action.

On the first day, Kelly Willis, Managing Director of Forecasting Healthy Futures organizations, Yalchin Rafiyev, COP Lead Negotiator, Deputy Minister of Foreign Affairs of Azerbaijan, Maria Neira, Director of the Department of Environment, Climate Change and Health at the World Health Organization (WHO), and COP28 Director-General Majid Al Suwaidi made opening remarks. The second day of the event was addressed by the Ambassador of the WHO Director General for Climate Change and Health, Vanessa Kerry, Executive Director of the largest health donor in the world - the Global Fund Peter Sands.

On the last day of the event, Azerbaijan's Deputy Minister of Health, Nadir Zeynalov, spoke about climate and human health. Furthermore, there was a COP Dialogue on Sustainable Development between representatives of COP26, COP27, COP28, and COP29. COP consultants held round tables to discuss the most important issues at the intersection of climate and health

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ

ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

# ƏDƏBİYYAT İNSTİTUTUNDA MÜKAFATLAR TƏQDİM OLUNUB



*Qəzənfər Paşayev, İsa Həbibbəyli*

AMEA prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli Ədəbiyyat İnstitutunun baş elmi işçisi professor Qəzənfər Paşayevə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Avropa Şərəf Ordeni"ni və institutun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri professor İslam Qəribliyə 70 illik yubileyi münasibətilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Fəxri Fərmanını təqdim edib.



*İslam Qəribli*

# AKADEMİK MƏMMƏD ARİF DADAŞZADƏNİN 120 İLLİYİNƏ HƏSR OLUNMUŞ ELMİ SESSİYA



Ədəbiyyat İnstitutunda görkəmli ədəbiyyatşünas alim, tərcüməçi, pedaqoq, nasir, akademik Məmməd Arif Dadaşzadənin 120 illiyinə həsr olunmuş elmi sessiya keçirilib.

AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli Məmməd Arif Dadaşzadənin mənalı ömür yolundan, zəngin elmi yaradıcılığından bəhs edib, alimin XX əsr Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslıq elminin inkişafında mühüm xidmətləri olduğunu vurğulayıb.

Ədəbiyyat İnstitutunun XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Asif Rüstəmli, Ədəbiyyat nəzəriyyəsi şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Tahirə Məmməd, Ədəbi tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru Vaqif Yusifli, XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aslan Salmansoy və filologiya üzrə fəlsəfə doktoru, dosent Aqşin Dadaşzadə məruzələrlə çıxış ediblər.

Sonda Məmməd Arif Dadaşzadənin nəvəsi, Bakı Musiqi Akademiyasının professoru Zümrüd Dadaşzadə babasının xatirəsinə göstərilən diqqətə görə AMEA rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirib.



**Gülnar Səma**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# ŞAHMAT EHTİRASI

**Hamlet İsaxanlı**

*Əvvəli jurnalın 437-ci, 438-ci, 439-cu və 440-cı (mart, aprel, may, iyun 2024-cü il) nömrələrində*

## Böyük yaradıcı insanların şahmat dünyası



*Henry Thomas Buckle*

Görkəmli tarixçi və istedadlı şahmatçı Henry Thomas Buckle ("Bokl", 1821-1862) Staunton`un müasiri idi. Dövrünün güclü şahmatçıları Lionel Kieseritsky (1805/6-1853), Loewenthal (1810-1876), Adolf Anderssen, D. Harrwitz və digər şahmatçılar üzərində qələbə çalmışdı. Staunton`la bir heç-heçə oyunu məlumdur. H.T. Buckle şahmatdan (rəsmi yarışlardan) aralanıb, özünü tarixə həsr etdi, "böyük tarixi əsər" üzərində çalışmağa başladı. Bu, onun şah əsəri olan "History of Civilization in England" idi (1-ci cild, 1857 və 2-ci cild, 1861). Buckle bu tarix kitabını 14 cild olaraq planlamışdı. O, tarixyazma və tarix fəlsəfəsinə aid maraqlı fikirlər irəli sürmüşdü. Deyilənə görə, öləndə son sözləri: "Mənim kitabım, mənim kitabım, onu heç vaxt bitirə bilməyəcəm" olmuşdu (James Anthony Froude. Short Studies On Great Subjects. Outlook Verlag GmbH, Frankfurt am Main, 2020; p. 3). Böyük Mirzə Fətəli Axundzadə / Axundov öz müasiri olan bu tarixçi-şahmatçının bu kitabının ruscaya tərcüməsi ilə yaxşı tanış idi (2 cilddə: 1862, 1864), ondan alıntılar etmişdi. (https://capellabook.ru/p/3768--istoriya-civilizacii-v-anglii/). Mirzə Fətəli "Yevropanın son filosoflarından Bokl adlı ingilis alimi"nin (Mirzə Fətəli Axundov. Əsərləri, 2-ci cild. "Elm", Bakı, 1988; səh. 89) adını dəfələrlə çəkmiş, onu möhkəm tərifləmişdi: "Dini etiqadların ölkə və millətin hər xüsusda zillətinə səbəb olması fikrində... əsərləri dünyada tanınan və hər kəs tərəfindən bəyənilən Bokl... bu əqidədə o birilərinə nisbətən daha irəlidə gedir". Mirzə Fətəli Avropa filosofları ilə, xüsusilə sevdiyi Bokl`la həmfikir olduğunu deyir: "*Kəmalüddövlə*`nin müəllifi də Avropa filosofları əqidəsindədir" (orada, səh. 151), üstəlik, oğlu Rəşidin də avropalı filosofların, o cümlədən Bokl`un bu əsərini oxuduğunu qeyd edir (orada, səh. 290).



19-cu əsrin ortalarında İngiltərədə şahmatın populyarlığı çox artmış, müxtəlif elm, sənət və siyasət



*Marmaduke Wyvill*

adamları arasında şahmata ciddi maraq oyanmışdı. Marmaduke Wyvill (Uayvil, 1815-1896) Parlament üzv seçilmiş (1847) və arada fasilə ilə uzun illər burada qala bilmişdi. O, istedadlı şahmatçı idi, Staunton`un təşkil etdiyi ilk beynəlxalq London turnirində (1851) o, Staunton və digər şahmatçıları qabaqlayaraq, Anderssen`dən sonra 2-ci yeri tutmuşdu. "Uduzan tərk edir" qaydası ilə keçirilən bu turnirdə M. Wyvill yalnız finalda Anderssen`ə uduzmuşdu. Sonra o, rəsmi oyunlarda, demək olar ki, iştirak etmədi.

* * *

Luigi Mussini (1813-1888) italyan əsilli almaniyalı rəssam, güclü şahmatçı və şahmat bəstəkarı olub. Düzəltdiyi şahmat etüdləri əsasən tərs və ya əks mat idi: ağlar müəyyən sayda gedişdə qaraları məcbur edir ki, ağ şahı mat etsinlər. 1876-cı ildən şahmat nəşrlərində dərc olunurdu. L. Mussini`nin "İspaniya kralının sarayında şahmat turniri" adlı populyar rəsm əsəri (1883) 1575-ci ildə kral 2-ci Filipp`in təşəbbüsü ilə Madriddə keçirilmiş şahmat turnirini təsvir edir. Leonardo da Kutro (Leonardo Giovanni da Cutro) Madridə gəlib Rue Lopes`lə oynayıb və qələbə çalıb. Bu yarışda 2 ispan, 3 italyan şahmatçısı yarışıb.

Alman rəssam Moritz Retzsch`in (1779-1857) geniş dairələr-



*Luigi Mussini*



*Leonardo Giovanni da Cutro və Rue Lopes*



Moritz Retzsch

də ən çox tanınan və müzakirə olunan əsəri "Şahmatçılar"dır (1830-cu illər). İblis (Satana) bir gənc insanın ruhunu almaq üçün onunla şahmat oynayır.



*"Şahmatçılar" əsəri*

Məşhur fransız-amerikan rəssam Marcel Duchamp`ın (Marsel Düşan, 1887-1968) maraq dairəsi geniş idi, arada rəsmlə məşğuliyyətini azaldıb elm, fəlsəfə öyrənir, texniki (kinetik) heykəltəraşlıqla məşğul olur, musiqi yazırdı. 1918-ci ildə çox şahmat oynayırdı və get-gedə rəsmi buraxıb vaxtını şahmata həsr etməyə başladı, güclü şahmatçıya çevrildi. Şahmata aid rəsmləri mövcuddur. O, Fransa çempionatlarında və şahmat olimpiadalarında oynadı. Şahmatda zirvələrə yüksələ bilməyəcəyini anladı, amma, yenə də, şahmatla yaşayırdı, şahmat jurnalistinə çevrilmişdi. Şahmatın qeyri-adi gözəlliyi onu valeh etmiş, onu dünyada tanıdan əsas məşğələsindən uzaqlaşdırmışdı: "Mən hələ də şahmatın qurbanıyam. O, sənətin bütün gözəlliyinə malikdir – artıqlamasıyla". Şahmatı rəsmdən daha cəzbedici saymış, şahmatdan aralanmağın mümkün olmadığını vurğulamışdı: "Əgər gəncliyində şahmat oynamağa başlayıbsansa, sən şahmat oynaya-oynaya böyüyəcək və öləcəksən. Bu, ehtirasdır". Duchamp 40 yaşında evləndi; bütün vaxtını və fikrini şahmata verirdi, evlilik cəmi altı ay çəkdi. Şahmatın zənginliyini nümayiş etdirən bir ifadəsi populyardır: "Bütün rəssamlar şahmatçı deyil-



*Marcel Duchamp*



*Marcel Duchamp və Man Ray Parisdə Champs Elysées teatrının damında şahmat oynayırlar*

lər, amma bütün şahmatçılar rəssamdırlar" (Marcel Duchamp and Chess. https://www.chess.com/article/view/marcel-duchamp-and-chess).

Fransız M. Duchamp və onun həmkarları, dost və rəqibləri iki ispaniyalı – Pablo Picasso (1881-1973) və Salvador Dali (1904-1989) 20-ci əsr rəsm sənətinin nəhəngləri, radikal üslub sahibləri olmaqla neoklassik, modernist, kubist, sürrealist və s. cərəyan liderləri olaraq heykəltəraşlıq, dizayn və digər sənət sahələrinə də böyük töhfələr vermiş və populyar mədəniyyət ulduzlarına çevrilmişdilər. M. Duchamp qədər olmasa da, P. Picasso və S. Dali də şahmatı sevməklə yanaşı öz çoxtərəfli, rəngarəng yaradıcı sənət fəaiyyətlərində şahmatdan təsirlənən və şahmatdan yaradıcı ilham alan rəssam sayılırlar. S. Dali və Picasso sənət əsəri olaraq şahmat dəsti, şahmat fiqurları düzəldirdilər. Delakrua və



*P. Picasso və S. Dali Nyu-Yorkda*



*S. Dalinin düzəltdiyi (M. Duchamp`ın dəvəti ilə) bürünc şahmat fiqurları*

digər tanınmış rəssamlar da şahmat mövzusuna müraciət etmişdilər.
(https://sologenic.org/nfts/rGfHxojB3PrVF4TsG21o3XcQAtGK6U9QxY?network=mainnet)



*P. Picasso və S. Dali Parisdə*



*Delakrua: Şahmat oynayan ərəblər*

* * *



*Humphrey Bogard*

Məşhur Amerika kino aktyoru, Hollywood`un parlaq ulduzu, 1999-cu ildə American Film Institutu`nun "Amerika kino tarixində ən böyük kişi-ulduz" elan etdiyi Humphrey Bogard`ın (1899-1957) həyatında şahmat mühüm yer tutub (www.chessmaniac.com/humphrey-bogart-and-chess), özünün dediyinə görə, demək olar ki, hər gün şahmat oynayıb. O, dostlarını şahmat bilmək qabiliyyətinə görə sıralayırmış. Şahmat turnirlərində, həmçinin, məktublaşma ilə şahmat yarışlarında oynayıb. ABŞ Şahmat Federasiyası və California Şahmat Federasiyasının işində iştirak edib. Görkəmli kino-aktyor, rejissor və yazıçı Jesse Vint (1952) Dünya məşhurlarının şahmat çempionatında (the World Celebrity Chess



*Jesse Vint*

Championship) iki dəfə (1987, Mexico və 1988, Los Angeles) qalib olub.

* * *



*IV İvan. Müəllif: Konstantin Makovskiy. Şəkil 2014-cü ildə bir Moskva özəl qalereyasından oğurlanıb*



*1-ci Pyotr şahmat oynayır*

İslam dünyasından gələn şahmat Rusiyada maraqla qarşılandı. Rus çarları 4-cü İvan Qroznı (1530-1584), 1-ci Pyotr (1672-1725), bolşeviklərin lideri və Sovet hökumətinin ilk rəhbəri V.İ. Lenin (1870-1924) şahmatı sevir, şahmat oynayırdılar.



*Lenin, M. Qorki və Leninin inqilabçı həmkarı A. Boqdanov Kapri adasında şahmat oynayırlar (1908)*

Lenin bu şahmat partiyasını Boqdanova uduzmuş, onların siyasi rəqabəti də kəskinləşmiş, Lenin "Materializm və empriokritisizm" əsərində Boqdanovu kəskin tənqid etmişdi.

Lenin və şahmat mövzusunda qeyri-müəyyənliyə və bəzi şişirtmələrə də rast gəlinir.

Mütəxəssislər Lenin və Hitlerin 1909-cu ildə Vyanada (Vien`də) şahmat oynadıqlarını təsvir edən şəklin saxta olduğu, belə bir görüşün olmadığı qənaətindədirlər.



*Lenin və Hitler (saxta şəkil)*

Şahmatı sevib-oynayanlar arasında A.S. Puşkin (1799-1837), P.L. Şilling (1786-1837), Lev Tolstoy (1828-1910), İ. Turgenev (1818-1883) və D.İ. Mendeleev (1834-1907) də vardı.

Puşkin uduzur və əsəbiləşirmiş. Kitabxanasında Philidor`un və A. D. Petrov`un şahmat kitabları vardı. Arvadı Natalya Nikolayevna da şahmatı yaxşı öyrənmiş, qadınlar arasında seçilən oyunçu olmuşdu. Puşkin ona ünvanladığı məktubda (1832) yazırdı: "Canım mənim, şahmat öyrəndiyin üçün minnətdaram. Bu, rifah içində olan hər ailəyə lazımdır. Sonra sübut edərəm". (https://bigenc.ru/c/blagodariu-dusha-moia-pushkin-i-shakhmaty-b14c2c). Onun "Evgeni Onegin" roman-poemasında Vladimir Lenskiy və Olqa Larina şahmat oynayırlar.

A.S. Puşkinin yaxın dostu məşhur elektrotexnik,



*Vladimir Lenskiy və Olqa Larina şahmat oynayırlar*



*A.S. Puşkin*



*Pavel Şilling*

elektromaqnit teleqraf daxil olmaqla çoxsaylı texniki ixtiralar müəllifi, görkəmli şərqşünas və diplomat Pavel Şilling çox güclü şahmatçı idi. Ruslaşmış Baltikyanı alman ailəsindən olan Şilling çoxbilgin insan idi, o, şahmatçı kimi də ətrafdakılardan fərqlənirdi. Şilling şahmat lövhəsinə baxmadan eyni zamanda iki partiya oynayır, əksər hallarda udurdu. O, məşhur fransız fizik A.M. Amperlə (1775-1836) şahmat partiyasını da taxtaya baxmadan qapalı gözlə oynamış və udmuşdu.

19-cu əsr, xüsusilə əsrin ikinci yarısında şahmatın populyarlığı çox artmışdı. 19-cu əsrin 80-90-cı illərində dünyanın güclü şahmatçılarından biri olan, Dünya çempionu adı uğrunda Steinitz`lə iki matç keçirən M. Çiqorin (1850-1908) Rusiyada və Sovet hökumətinin başlanğıc illərində bir etalon kimi götürülmüş, şahmatın təbliğində ciddi rol oynamışdı.

Lev Tolstoy şahmatı çox sevir və çox oynayırdı. Hücum etməyi



*Lev Tolstoy M.S. Suxotinlə şahmat oynayır*

çox sevir, səhv edəndə çox həyəcanlanır, qışqırırdı. O, əsərlərində və söhbətlərində şahmat metaforlarından çox istifadə edirdi. Çox əsərlərində qəhrəmanları şahmat oynayırlar. İ.S. Turgenev yaxşı şahmat oynayırdı, onun "güclü həvəskar" olduğu deyilir. Əksər həmkarlarından, o cümlədən Lev Tolstoydan güclü imiş. Tolstoyun oğlu Sergey də buna şahidlik edir. 1862-ci ildə La Regence kafesində oynanılan 64 nəfərlik bir turnirdə 2-ci yeri tutmuşdu. Turgenev əvvəl oynaya-oynaya öyrənmiş, sonra kitab oxumaq və çoxsaylı şahmat partiyalarını təhlil etməklə güclənmişdi.



*İ.S. Turgenev*

Mendeleev şahmatı yaxşı oynayırdı. Oyun zamanı əsəbiləşir, bəzən əli titrəyirdi, uduzanda kefi çox pozulardı, hərçənd ki, çox zaman udurdu. Məşhur Çiqorinlə 13 partiya oynamış, birini udmuşdu. Mendeleev rəssam dostu Arxip Kuindji ilə tez-tez şahmat oynardı, 1882-ci ildə La Regence kafesində oynadıqları şahmat partiyası bir fotoda öz əksini tapmışdır. Mendeleevin arvadı Anna (şahmat oynaya bilirdi) onların oyununu seyr edir. Kuindji`nin daha güclü şahmatçı olduğu deyilir.



*4-cü cütdə, sağda Turgenev*



*Mendeleev və Kuindji şahmat oynayırlar*

* * *

Sovet dövrü şahmat gerçək xalq oyununa çevrildi.

Nikolay Krılenko (1885-1938) Leninin yaxın həmkarlarından və Sovet partiya-hökumət liderləri cərgəsində sayıb-seçilənlərdən biri olmuşdur. Moskva Dövlət Universitetinin hüquq professoru olmuş (1922-1929), çoxsaylı elmi-hüquqi əsərlər müəllifidir. Rusiya və Sovet hüquq-ədliyyə sistemində ən yüksək vəzifələrdə işləmişdir: RSFSR prokuroru (1929-1931), RSFSR ədliyyə xalq komissarı (1931-1936) və nəhayət, SSRİ-nin birinci Ədliyyə xalq komissarı (нарком юстиции, 1938). 1917-1922-ci

illər vətəndaş savaşı dövründə keçirilən və "Qırmızı terror" (Красный террор) adı almış geniş cəza tədbirlərində inqilabi tribunalların fəaliyyətinə rəhbərlik edərkən və sonrakı çoxsaylı həbslərdə və ölüm hökmlərində vəzifəsinə uyğun olaraq birbaşa iştirak etmişdir.



*Nikolay Krılenko*

N. Krılenko`nun yüksək hökumət işi ilə yanaşı, sevimli hobbiləri vardı – birinci növbədə şahmat və alpinizm, həmçinin ovçuluq. Pamir dağlarında iki dəfə zirvə fəth edən, o cümlədən Lenin zirvəsinə qalxan komandada olmuş, "əməkdar alpinizm ustası" adına layiq görülmüşdü (1935). O, Lenin, Kalinin və Frunze ilə şahmat oynamışdır. N. Krılenko öz iş kabinetində saatla şahmat oynayır, şahmat partiyalarını təhlil edir, məsələ və etüd həll edirdi. M. Botvinnik N. Krılenkonun Sovet şahmat həyatında inqilab etdiyini, oyunun kütləviləşməsi və şahmatın böyük inkişafı naminə çalışdığını, yüksək təşkilatçılıq istedadına malik olduğunu deyirdi. 1925-ci ildə N. Krılenko`nun təşəbbüsü ilə Moskvada Beynəlxalq Şahmat Turniri keçirildi. Keçmiş Dünya çempionu E. Lasker, fəaliyyətdə olan dünya çempionu Kapablanka və digər görkəmli şahmat ustalarının iştirak etdiyi bu turnir tarixdə ən çox təbliğ olunan və təsir buraxan şahmat yarışlarından biri, bəlkə də birincisi oldu. "Şahmat qızdırması" (Шахматная горячка) ölkəni bürümüşdü. Sonra yenə də Krılenkonun birbaşa təşəbbüsü ilə Moskvada yenə Lasker və Kapablanka`nın iştirakı ilə daha iki Beynəlxalq Şahmat Turniri keçirildi (1935, 1936).



*Lasker, E.D. Boqolyubov və N. Krılenko*



*P. Malinovski*

Krılenko şahmatın yayılması və peşəkarlığın yüksəldilməsi məqsədilə 1936-cı ildə "Шахматы» adlı kütləvi şahmat-şaşki jurnalını və elə həmin ildə "64" adlı "Şahmat-şaşki" qəzetini (dünyada ilk!) yaratdı, özü də qəzetin redaktoru oldu.

Dövrün SSRİ prokuroru A.Y. Vışinskiy (1935-1939), SSRİ Ali Məhkəməsinin sədri A.N. Vinokurov və Ədliyyə xalq komissarı N. Krılenko ədliyyə sistemini nəzarətdə saxlamaq işində bir-birinə rəqib idi. Bu rəqabət 1937-1938-ci il "Böyük terror" zamanı həll edildi, A.Y. Vışinski qalib çıxdı. 1938-ci il SSRİ Ali Sovetinin sessiyasında (12 yanvar) Azərbaycan Kommunist Partiyasının lideri Mir Cəfər Bağırov çıxış etdi və Krılenko`nu öz partiya işi əvəzinə vaxtını alpinizmə, şahmat oynamağa, ova getməyə sərf etməkdə günahlandırdı. Qeyd edim ki, Vışinski gimnaziyanı Bakıda bitirmiş, gəncliyində Bakıda inqilabi fəaliyyətdə olmuş, Bayıl həbsxanasına düşmüş və orada həbsdə olan Stalinlə tanış olmuşdu. Krılenko həbs edildi və bir qədər sonra "əksinqilabi fəaliyyətinə görə" güllələndi (29 iyun, 1938-ci il). Tezliklə A.N. Vinokurov vəzifədən çıxarıldı və həmin 1938-ci ildə vəfat etdi.

P. Malinovski (1898-1967) sərkərdə, Sovet İttifaqı Qəhrəmanı, müdafiə naziri (1957-1967) şahmat oynayır və şahmat məsələləri tərtib edir, onları jurnallarda dərc etdirirdi.

* * *

Şahmatı çox sevən Sovet xalqı şahmat tacının SSRİ-dən Amerkaya köçməsini kədər hissi ilə qarşıladı. Fisher dünya çempionu olanda Vladimir Vısotskiy «Честь шахматной короны» mahnısını yazdı (mahnının sözləri – bir hissə – aşağıda).

*Я кричал: "Вы что там, обалдели? -*
*Уронили шахматный престиж!"*
*Мне сказали в нашем спортотделе:*
*"Ага, прекрасно - ты и защитишь!*

*Но учти, что Фишер очень ярок,-*
*Даже спит с доскою – сила в нем,*
*Он играет чисто, без помарок..."*
*Ничего, я тоже не подарок,-*
*У меня в запасе – ход конем.*

*..........................................*
*Ох мы - крепкие орешки!*
*Мы корону - привезем!*
*Спать ложусь я - вроде пешки,*
*Просыпаюс я - ферзем!*



*Vladimir Vısotskiy*



*Enrico Caruso*

Şahmata vurğun olan, şahmat oynayan məşhurlar sırasında musiqiçilər də az deyil. İtaliyalı məşhur lirik və dramatik tenor Enrico Caruso (1873-1921) "musiqi aləmindəki ən aqressiv şahmatçılardan biri" kimi tanınmışdı; o, Yuqoslaviya qrossmeysteri Boris Kostic`dən (1887-1963) şahmat dərsi alırmış. İngilis bəstəkar və dirijor Arthur Bliss (1891-1975) "Checkmate" ("Mat" və ya "Şaha mat" adlı birpərdəli balet yazmış, ilk dəfə 1937-ci ildə Parisdə tamaşaya qoyulan bu balet çox populyar olmuş, indiyədək "Royal Ballet" kimi səhnələrdə yer alır. Qırmızı və qara şahmat fiqurları canlanır və insan hissləri keçirirlər. Qırmızı Cəngavər (Knight) Qara Kraliçəyə (Quenn) vurulur. Qara Kraliçə Qırmızı Cəngavərə naz edir və ona qızıl gül atır. Böyük savaşda Qırmızı Cəngavər Qara Kraliçəni məğlub etmə anında duruxur, qızıl gülü xatırlayır, bundan istifadə edən Qara Kraliçə Qırmızı Cəngavərə ölümcül zərbə endirir. Sonda Qara Kraliçə Qırmızı Krala (King) da arxadan zərbə vurur, onu "mat edir".



*Arthur Bliss*

Böyük bəstəkar Serqey Prokovyev güclü şahmatçı sayılırdı, 1-ci kateqoriyası vardı. (https://www.chesshistory.com/winter/extra/prokofievrus.html).

Kapablanka ilə seansda 3 partiya oynamış, birini udmuşdu, Laskerlə seansda heç-heçə edə bilmişdi. Kapablanka və Botvinnik ilə yaxın dostluq edirdi. 1933-cü ildə La Regence kafesində S. Tartakover`lə oynadığı iki partiyadan birini udmuşdu.

Məşhur skripkaçı və dirijor David F. Oystraxt`la (1908-1974) 1937-ci ildə keçirilən matçı 4:3 hesabı ilə Oystraxt udmuşdu (1 qələbə, qalanları heç-heçə). Kənarda oturub baxan Yelizaveta Qulels`dir – pianist Elim Qilels`in bacısı, skripkaçı Leonid Koqan`ın arvadı. M. Botvinnik də orada olmuş,

matç haqqında fikrini bildirmişdi. Prokofyev açıq debütləri, aqressiv oyunu sevir, müdafiədən xoşlanmırdı. Oystraxt isə qapalı debütlərdə ehtiyatlı oynamağı üstün tuturdu.

"Şahmat düşüncənin musiqisidir" (шахматы – эта – музыка мысли) deyən böyük bəstəkar şahmatçı və bəstəkar arasında maraqlı bənzərlik görürdü: "Mürəkkəb, dərin Lasker mənə əzəmətli Bax kimi görünürsə, canlı, cəld Kapablanka elə Kapablanka kimi rahatlıqla, bəzən də xoş zəriflikla yaradan əbədi gənc Motsartı xatırladır".



*S. Prokofyev şahmat taxtası arxasında*



*S. Prokofyev və David F. Oystraxt*

"Şahmat beynin musiqisidir" (шахматы – музыка мозга) deyən digər böyük rus bəstəkarı D. Şostakoviç də şahmatı çox sevirdi.

(https://vk.com/@game_chess-shahmaty-eto-muzyka-mysli).

Şahmatı çox sevən, şahmat oynayan məşhurların sadəcə adlarını çəkmək belə mümkünsüz işdir. Bu istiqamətdə kim nə qədər uzun yazsa da, yarımçıq olacaq. Göstərdiyim adlarla kifayətlənirəm.



*Şostakoviç şahmat oynayır*



*Smıslov oxuyur, Taymanov çalır. 1998-ci il*

*(Davamı var)*


Zanseit Tuymebayev, Hamlet İsaxanlı

# ƏL-FƏRABİ QAZAX MİLLİ UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR" DƏ

# AL-FARABI KAZAKH NATIONAL UNIVERSITY REPRESENTATIVES AT KHAZAR UNIVERSITY

Mayın 21-də Əl-Farabi Qazax Milli Universitetinin rektoru Zanseit Tuymebayev və Xarici işlər departamentinin direktor müavini Almas Bektanov ilə Xəzər Universitetində görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, rektor Dos. İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor Dos. İsaxan İsaxanlı, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar,Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı müavini Günel Bahəddinova, Riyaziyyat departamentinin müdiri Əli Hüseynli, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

On May 21, a meeting was held with Al-Farabi Kazakh National University Rector Zhanseit Tuimebayev and Deputy Director of the Department of Foreign Affairs Almas Bektanov at Khazar University.

The meeting was attended by Khazar University's founder, Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli, Rector Assoc. Prof. Irada Khalilova, Vice-Rector for Administration and Student Affairs Isakhan Isakhanli, Development Director Raziya Isayeva, Director of the Quality Assurance Center Lyudmila Sotova, Head of the Physics and Electronics Department Farida Tatardar, Deputy Dean of the Graduate School of Science, Art and Technology Gunel Bahaddinova, Head of the Mathematics Department Ali Huseynli, and Head of the International Relations Department Fatima Valiyeva.


İradə Xəlilova

Görüşdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə dair müqavilə imzalanıb, eləcə də təhsil müəssisələri arasında tərəfdaşlıq və akademik əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb.

İmzalanma mərasiminin sonunda tərəflər arasında hədiyyə mübadiləsi olub.

During the meeting, an agreement was signed to strengthen bilateral relations, and discussions were held on enhancing the partnership and academic ties between the educational institutions.

At the end of the signing ceremony, gifts were exchanged between the parties

## XƏZƏR UNİVERSİTETİNİN DEKANI TURİN POLİTEXNİK UNİVERSİTETİNDƏ ERASMUS+ BEYNƏLXALQ İŞÇİ HƏFTƏSİNDƏ

## KHAZAR UNIVERSITY DEAN AT ERASMUS+ INTERNATIONAL STAFF WEEK AT TURIN POLYTECHNIC UNIVERSITY

Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva 2024-cü il mayın 27-31-də İtaliyanın Turin Politexnik Universitetində ERASMUS+ Beynəlxalq Mobillik Proqramı çərçivəsində işgüzar səfərdə olub.

Politexnik Universiteti tərəfdaşlıq etdiyi universitetləri bir araya gətirərək, ERASMUS+ Beynəlxalq Kadr Hazırlığı Həftəsi - 2024-ə ev sahibliyi edib. Tədbir STUDI Departamentinin Təhsilin innovasiya və inkişafı bölməsi tərəfindən ali təhsilin beynəlmiləlləşdirilməsində iştirakçıların səriştələrini artırmaq məqsədilə təşkil olunub.

Tədbirdə Avropa İttifaqına daxil olmayan 13 ölkədən: Albaniya, Avstraliya, Azərbaycan, Çili, Çin, Kolumbiya, Yaponiya, Keniya, Livan, Mərakeş, Cənubi Afrika Respublikası, ABŞ və Özbəkistandan gələn tərəfdaş universitetlərin təhsil nümayəndələri iştirak ediblər.

Tədbirin ilk günü Politexnik Universitetinin rektoru vəzifəsini icra edən Prof. Elena Baralis və prorektor Prof. Patrizia Lombardinin nümayəndələri salamlayaraq, tədbirin mahiyyəti ilə bağlı açıqlama veriblər. Sonra isə Beynəlxalq əlaqələr üzrə prorektor Prof. Alberto Sapora qonaq universitetlər haqqında məlumat verib.

Nümayəndələr üç interaktiv seminarda müzakirələr və təcrübə mübadiləsi aparıblar. Tədbir tərəfdaş universitetlərin nümayəndələri arasında dəyərli şəbəkə qurmaq imkanı yaradıb. Həftə ərzində tədbir Politexnik Universitetin əsas kampusuna, Valentino qalasının tarixi məkanına, Torino şəhərinə və Asiya İncəsənət Muzeyinə səfərlərlə tamamlanıb.

Səfər zamanı Dr. Fəxrəndə Əfəndiyeva Beynəlxalq əlaqələr üzrə prorektor Prof. Alberto Sapora ilə görüşərək, gələcəkdə universitetlərarası professor-tələbə heyətinin Beynəlxalq Mobillik Proqramında iştirakı ilə bağlı müzakirələr aparıb.

Khazar University School of Science and Engineering Dean Dr. Fakhranda Efendiyeva paid a professional visit to Italy's Turin Polytechnic University on May 27-31, as part of the Erasmus+ international mobility program.

Polytechnic University hosted the Erasmus+ International Staff Training Week 2024, bringing together partner universities from all over the world.The event was organized by the Education Innovation and Development Center of the STUDI Department in order to increase the participants' competence in the internationalization of higher education.

Academic representatives of partner universities from 13 non-EU countries: Albania, Australia, Azerbaijan, Chile, China, Colombia, Japan, Kenya, Lebanon, Morocco, Republic of South Africa, USA and Uzbekistan took part in the event.

On the first day of the event, Acting Rector Prof. Elena Baralis and Vice-Rector Prof. Patrizia Lombardi from Polytechnic University welcomed attendees and spoke about the event's purpose. Following this, Vice-Rector for International Relations Prof. Alberto Sapora introduced the session where the visiting universities gave their presentations.

The representatives discussed and exchanged experiences in three interactive seminars, creating valuable networking opportunities between partner universities. Throughout the week, the event included guided visits to the main campus of the Polytechnic University, the historic Valentino Castle, the city of Torino, and the Museum of Asian Art.

During the visit, Dr. Fakhranda Efendiyeva met with Vice-Rector for International Relations Prof. Alberto Sapora to discuss future updates to the international mobility program for interuniversity professors and students.

# MANİSA CELAL BAYAR UNİVERSİTETİNİN TƏDRİS HEYƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ

# KHAZAR UNIVERSITY HOSTS ACADEMIC STAFF OF MANISA CELAL BAYAR UNIVERSITY



*Asiye Ayben Çelik*



Mayın 27-31-də ERASMUS+ Beynəlxalq Mobillik Proqramı çərçivəsində Türkiyə Respublikasının Manisa Celal Bayar Universitetinin tədris heyəti - Asiye Ayben Çelik, Şule Öztürk və Mustafa Tepeci Xəzər Universitetində olmuşlar.

Universitetin rəhbərliyi, İqtisadiyyat və menecment departamenti və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları ilə Manisa Celal Bayar Universitetinin akademik heyəti arasında tanışlıq görüşü keçirilib.

Mayın 29-da İqtisadiyyat və menecment fakültəsinin tələbələri üçün Asiye Ayben Çelik "Əlçatan və inklüziv marketinq praktikaları" və Şule Öztürk "Məlumatların idarə edilməsi və prosesi", mayın 31-də isə Mustafa Tepeci "Qonaqpərvərlik və turizm üçün

From May 27th to 31st, Khazar University welcomed academic staff from Manisa Celal Bayar University, Republic of Türkiye, as part of the Erasmus Staff Mobility program. The visit fostered valuable exchanges and collaborative learning opportunities between the two institutions.

An introduction meeting was organized between the university management, staff of the Economics and Management department and the International Relations office and the visiting scholars of Manisa Celal Bayar University.

On May 29th, Asiye Ayben Chelik captivated the audience with her presentation titled "Accessible and Inclusive Marketing Practices," emphasizing the importance of

strateji idarəetmə" mövzularında mühazirə oxuyublar. Asiye Ayben Çelik fiziki məhdudiyyətli insanlara diqqət çəkərək, istehlakçı həssaslığı mövzusuna toxundu. Şule Öztürk real nümunələr və ən yaxşı təcrübələr əsasında məlumatların idarə edilməsi və prosesi haqqında fikirlərini bölüşdü. Mustafa Tepeci isə tələbələrə Porterin "5 qüvvə" modeli, resurslar və im-




*Şule Öztürk, İradə Xəlilova*




considering consumer vulnerability, particularly focusing on individuals with physical disabilities. Shule Ozturk followed with an insightful discourse on "Data Management and Process," showcasing practical applications through real-world examples and best practices. Then, on May 31st, Mustafa Tepeci delivered a comprehensive session on "Strategic Management for Hospitality and Tourism," providing students with invaluable insights into

kanların təhlili, dəyər zənciri təhlili və digər strateji üsullar haqqında geniş məlumat verdi.

İnteraktiv formada keçən hər üç seminarda məruzçəçilər və fakültənin tələbələri arasında müzakirələr aparıldı.

strategic frameworks such as Porter's "5 forces" model, resource analysis, and value chain analysis.

Throughout the seminars, lively discussions ensued between the speakers and the students of the School of Economics and Management.




*Mustafa Tepeci*

# PİCASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ

İyunun 4-də PICASP (Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən təcrübə müəssisələri pilot kursları) layihəsi çərçivəsində Xəzər Universiteti layihə komandasının - İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, İqtisadiyyat və menecment departamentinin koordinatoru Dr.Bahadır Baysal, Tarix və arxeologiya departamentinin müəllimi Dr. Bayram Quliyev, layihə rəhbəri Səlimə Əhmədova və Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotovanın iştirakı ilə daxili iclas keçirildi.

PICASP layihəsinin əsas məqsədləri Təcrübə Müəssisəsi ilə yeni tədris metodologiyalarının işlənib hazırlanması, sahibkarlıq və KOS (Kiçik və Orta Sahibkarlıq) menecmenti üzrə kursların təşkil edilməsi, Avropa İttifaqının tərəfdaşları ilə ən yaxşı təcrübələrin mübadiləsi, kurrikulumun hazırlanması və məzunların məşğulluğuna maraqlı tərəflərin cəlb edilməsidir.

İclas zamanı layihənin başa çatdırılması üçün tələb olunan vəzifələr dəqiqliklə müəyyən edildi. Layihənin ümumi məqsədləri ilə uyğunluğunu təmin etmək üçün görülən işlərin gedişatı nəzərdən keçirildi. Hər bir komanda üzvü səmərəliliyi və keyfiyyəti artırmağa yönəlmiş əməkdaşlıq mühiti yaradaraq, öz fəaliyyətləri haqqında məlumat verdilər. Görüşün əsas mövzularından biri PICASP layihəsi haqqında kitabın nəşri ilə bağlı məsələlərin müzakirəsi olub.

# MEETING HELD WITHIN PICASP PROJECT

On June 4th, internal meeting was held within the Picasp project (Pilot Courses in Practice Enterprise to implement the University-Enterprise Cooperation for the development of Caspian Area) team- Razia Isaeva, head of Development Office, Dr.Jeyhun Mammadov, dean of the School of Economics and Management, Dr. Bahadir Baysal, coordinator of the Department of Economics and Management, Dr. Bayram Guliyev, lecturer of the Department of History and Archeology, Salima Ahmadova, project manager and Lyudmila Sotova, Head of Quality Assurance Center.

The main objectives of the PICASP project are to develop new teaching methodologies with the Practice Enterprise, to develop courses on entrepreneurship and SME (Small and Medium-sized Enterprises) management, to enhance the exchange of best practices with European Union partners and to enforce the involving of stakeholders in the curriculum development and the employment of graduates.

During the meeting, tasks essential for the completion of the project were meticulously outlined. Progress on existing workstreams was reviewed, ensuring alignment with the overarching objectives of the project. Each team member provided updates on their respective contributions, fostering a collaborative atmosphere aimed at optimizing efficiency and quality. One of the essential themes of the meeting was to discuss the main topics regarding with publishing a book about Picasp project.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ SEMİNAR

İyunun 14-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departementinin təşkilatçılığı ilə BƏƏ-nin Şahzadə Sultan Universitetinin Təhsil tədqiqatı laboratoriyasının tədqiqatçısı Muhamməd İmran`ın təqdimatında "Süni intellekt və yazı: humanitar sahədə tədqiqatın aparılması və dərc olunmasındakı çətinliklər" adlı seminar baş tutub. Seminar iki hissədən ibarət olub. İlk hissədə süni intellekt və onun tədris prosesində istifadəsindən bəhs edilib. İkinci hissədə isə süni intellektin tədqiqat prosesində tədqiqatçılara necə yardımçı ola biləcəyi ilə bağlı interaktiv sessiya baş tutub. Seminarın sonunda mövzular ətrafında müzakirələr aparılıb.

## SEMINAR IN THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE

On June 14, a seminar entitled " and Academic Writing: Challenges in Humanities Research Production and Publication " was organized by the Department of English Language and Literature of Khazar University and presented by Muhammad Imran, a researcher in the Education Research Lab, College of Humanities and Sciences at Prince Sultan University, Saudia Arabia. The seminar consisted of two parts. The first part focused on artificial intelligence and its use in the educational process. In the second part, an interactive session was held on how artificial intelligence can help researchers in the research process. At the end of the seminar, the lecturers of the department and Muhammed Imran discussed the topics covered.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ VEBİNAR

İyunun 19-da Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin təşkilatçılığı ilə Yeni Zelandiyadan olan tətbiqi dilçilik və xarici dilin öyrədilməsi üzrə ixtisaslaşmış beynəlxalq mütəxəssis Prof. Cek Riçards`ın təqdimatında "Dil müəllimlərinin professional inkişafına ortaq yanaşma" adlı vebinar keçirilib.

Tədbir departamentin müdiri Milana Abbasovanın məruzəçi haqqında məlumatı ilə başlayıb. Vebinarda İngilis dili və ədəbiyyatı departamentinin müəllimləri və digər universitetlərdən olan müəllimlər iştirak ediblər.

Prof. Cek Riçards tədris prosesində müəllimlərin inkişafına fayda verə biləcək məsələlər və yeniliklər barədə danışıb. Vebinar interaktiv şəkildə, müəllimlərin və professorun mövzu ətrafında diskussiyası ilə tamamlanıb.

## WEBINAR IN THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE

On June 19, a webinar titled " Collaborative approach to professional development for language teachers " was presented by Prof. Jack Richards, a New Zealand applied linguist and international expert in foreign language teaching. The webinar was organized by the Department of English Language and Literature at Khazar University.

The webinar started with the opening speech and presentation of the head of the department, Milana Abbasova. Faculty members from the Department of English Language and Literature and from other universities participated in the webinar.

Prof. Jack Richards spoke about the issues and innovations that can benefit the development of teachers in the teaching process. The webinar was completed interactively, with a discussion of teachers and professors on the topic.



Bakı vaxtı.az

# HAMLET İSAXANLI: “İNDİ MÜƏLLİMLİK QADINLAŞIB, AMMA...”

*“Tarixə düşənlər” rubrikamızın budəfəki qonağı “Xəzər” Univeristetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır. Bakıvaxtı.az alimlə söhbəti təqdim edir.*

**- Son günlər müxtəlif fənlərlə bağlı müəllimlərin sertifikatlaşdırılması ciddi müzakirə predmetinə çevrilib. Uzun illər müəllimlər olduqca sadə, primitiv suallara cavab verə bilməyiblər...**

- Bəzi ali məktəblər keyfiyyətsiz təhsil veriblər. Müəllimlərin bir hissəsi müəllim keyfiyyətinə malik deyil. Savad və başqa cəhətdən zəifdirlər. Əslində, universitetlərdə normal təhsil verilsə idi, sertifikasiyada belə acınacaqlı nəticə ortaya çıxmazdı. Müəllim diplom almağa layiq olmalıdır. Ayrı cür mümkün olmamalıdır. Ali məktəb təhsil veribsə, o müəllim sertifikasiyadan lazımi balı toplayacaq. Söhbət ondan gedir ki, çoxlu sayda müəllim ordusu formalaşıb ki, onların bir hissəsi universiteti zəif nəticələrlə bitirib. Ona görə də, sertifikasiya zərurətə çevrilib və müəllimləri fərqləndirmək üçün ayrı bir yol yoxdur. Sertifikasiya məcburiyyət kimi həyata keçirilir.

**- Sertifikisiya imtahanı ilə seçim aparılır. İlk imtahandan az bal toplayan müəllimlərə ikinci dəfə şans imtahanı təşkil olunur. Şans imtahanından da zəif nəticə göstərənlər olur və onlar dərs demək hüququndan məhrum olurlar. Bu hal cəmiyyətdə birmənalı qarşılanmır. Bəzi hallarda buna sosial rifah hadisəsi kimi yanaşılır və nazirliyin addımı tənqid olunur. Nə etməli?**

- Məktəblərin və bu cür müəllimlərin sayı həddindən artıq çox olduğu üçün bəzi işləri inqilabi şəkildə etmək olmur. Yəni qısa bir zamanda tədbirlər görüb, bu qədər adamı işsiz qoymaq, dəyişiklik etmək ağrılı prosesdir. Ona görə ki, say külli miqdardadır. Həm də o müəllimlər məktəblərdən çıxarılarsa, məktəblər boş qala bilər ki, bunu da etmək düzgün deyil. Ümumiyyətlə, işlə təmin olunma, keyfiyyətin yoxlanılması addım-addım gerçəkləşməlidir.

**- Azərbaycan təhsilini repetitorluqdan necə xilas etməli, sizin buna dair bir təklifiniz, reseptiniz, modulunuz varmı?**

- Buna dair hazır bir formula kəşf etmək asan iş deyil. Bu, daha çox sosial məsələdir. Bir tərəfdən keyfiyyət lazımdır, digər tərəfdən keyfiyyətli təhsil verən müəllimə keyfiyyətli əmək haqqı verilməlidir. Bunun sadə həlli yoxdur. Müəllimlərin maaşı istənilın halda artırılmalıdır. Müəllim çağdaş dövrün bazarına uyğun əmək haqqı almasa, o, necə yaxşı işləyə bilər?! Müəllim dərsdən sonra özünə qazanc yeri axtaracaqsa, keyfiyyət gözləmək olmaz. Onu da deyim ki, müəllimlərin maaşı tək Azərbaycanda deyil, əksər ölkədə problemdir. Tək-tək ölkələrdə bu problem həll olunub. Çətin məsələdir. Universitetlər zəif oxuyanlara güzəşt etməməlidir

**- Orta məktəblərdə kişi müəllimlərin sayı sürətlə azalır. Bəzi hallarda bu, bir nonsens kimi dəyərləndirilir. Siz necə qiymətləndirirsiniz?**

- Bəzi deputatlarımız da iddia edirlər ki, kişi müəllimlərimiz yoxdursa, vəziyyət ürəkaçan olmayacaq. Bu, cəmiyyətin özündən irəli gəlir. Bir ara kişilər müxtəlif sahələrə üz tutublar ki, orada daha yaxşı pul qazansınlar. Qadınlar isə düşünüblər ki, onlar üçün ən yaxşı peşə müəllimlikdir. İndi müəllimlik qadınlaşıb, amma metodik cəhətdən kifayət qədər güclü qadın müəllimlər var. Bu proses davam edəcək. Yaxın zamanlarda statistik dəyişikliklər gözlənilmir. Yenə deyirəm, keyfiyyətli təhsil

istəyiriksə, ali məktəblərin keyfiyyətli təhsil verməsinə müyəssər olmalıyıq.

**- Bunun üçün ali məktəblər nə kimi prioritet hədəflər qoymalıdır?**

- Universitetlər zəif oxuyanlara güzəşt etməməlidir. Zəif oxuyanlar bitirib, diplom ala bilməsə, ali məktəbi yalnız yüksək qiymətlərlə oxuyanlar bitirsə, orta məktəblərdə belə problemlər müşahidə olunmaz. Problemi ali məktəblərin verdiyi təhsilin keyfiyyətində axtarmaq lazımdır. Azərbaycanda iqtisadi və digər vəziyyət normal olsa, insanlarımız niyə xaricə getsin ki?!

**- Gənclərimizin xarici ölkələrə olan "beyin axını"na dair də SOS siqnalı çalınır. Bildirilir ki, proses bu cür davam edərsə, bir neçə il sonra ölkədə ciddi kadr çatışmazlığı yaranacaq. Belə çətinlik yaşana bilərmi?**

- "Beyin axını" təkcə Azərbaycanda müşahidə olunmur, bütün dünyada var. Buna qarşı mübarizə həddindən artıq çətindir. Uzun illər hindistanlılar və çinlilər bütün dünya ölkələrində təhsil alıblar. Qərb dünyasına gedəndə görürsən ki, Çin şəhərləri var. Hər yerdə müxtəlif sahələrdə hindistanlılar mövcuddur. İngiltərədə həkimlərin çoxu hidistanlı və pakistanlıdır. Onlar gəlib, təhsil alıb, orada qalırlar. O insanları qınamaq olmur. Onlara qadağalar da qoya bilməzlər. Amma dövlət öz xətti ilə oxumağa göndərdiyi şəxslərin geri dönüşünü təmin və tələb edə bilər. Bu arada deyim ki, Azərbaycan hökuməti 1990-cı ildə göndərdikləri bütün şəxslərlə müqavilə bağladı ki, onlar gəlib Azərbaycanda işləsinlər. Eyni zamanda, həmin şəxslərdən kimsə sanballı universitetə doktorantura oxumağa gedirdisə, onları məcbur edirdilər ki, yerli universitetlə müqavilə bağlasın, qayıdanda öz universitetimizdə işləsin. Biz Xəzər Universitetində 46 nəfər doktorantı özümüz seçmişik. Onlar bizə müraciət edirlər, biz də seçirik ki, onlar doktoranturanı qurtarıb, Azərbaycana qayıdıb, bir müddət işləsinlər.

Azərbaycanda iqtisadi və digər vəziyyət normal olsa, insanlarımız niyə xaricə getsin ki?! Azərbaycan gözəl ölkədir. Təbiəti, insanları, şəhərləri çox gözəldir. Bakı kimi gözəl şəhər dünyada çox deyil. Hər kəs öz vətənində, ata-ana və dostları olan yerdə işləmək istəyər. Doğma insanların, doğma dilin əhatəsində olmaq istəyərlər. Bu mənada xaricə gedən adamları qınamaq olmur, onlar bir az daha yaxşı təhsil almaq, daha yaxşı pul qazanmaq istəyirlər. Amma onların müəyyən hissəsi gəlib, Azərbaycanda iş tapa bilmir. Yerli universitetlər o kadrların ən azı bir hissəsini universitet müəllimi kimi qaytara bilər.

**- Doktorluq məsələsinə toxundunuz. Azərbaycanda doktoranturaya qəbulda dəyişiklik edildi. Sizcə, bu addımlar doktorluq işinin yazılmasındakı plagiatın qarşısını almaq və Azərbaycan elmini dünyaya çıxarmaq üçün yetərlidirmi?**

- Saxta yollarla alim olmaq təəssüf ki, olub və indi də var. Ali Attestasiya Komissiyası bunun qarşısını ala bilmir. Bu, heç mümkün də görünmür. Məlum sahədəki əyriliklər get-gedə artır. Magistrantlar mərkəzi imtahan verdikdən sonra universitetə doktorant olaraq qəbul olunurlar. Universitetlər qərara alırlar ki, bu doktorant universiteti bitirdi, onlar da diplomu dövlətdən alıb, verirlər. Amma hesab edirəm ki, bu işi ali məktəblərin öz məsuliyyətinə vermək lazımdır. Çünki hər doktorantın arxasında təmsil olunduğu ali məktəbin adı dayanır. Bu gün elə universitetlərimiz var ki, oranı bitirənlər daha tez və rahat iş tapırlar. Çünki onun nüfuzu daha çoxdur. Azərbaycandakı sistem nə Amerika, nə İngiltərə, nə də Avropada var. Gürcüstan, Baltikyanı ölkələr, Qazaxıstan və başqa ölkələr də bu işi universitetlərin özlərinə həvalə ediblər. Bu mənada düşünürəm ki, hər şeyi mərkəzləşdirib, kontrol etmək müsbət effekt vermir. Ən düzgünü odur ki, universitetlərin bir hissəsini akkreditasiya etsinlər, səviyyəli alimləri olan, beynəlxalq əlaqələri güclü olan, tədqiqat və çap gücü olan universitetlərə doktoranturada böyük yerlər verilsin. Bu keyfiyyətləri olmayan univeristetlərə isə ya yer az verilsin, ya da heç verilməsin. Universitetlər də öz doktorantlarına diplomlar versin. Bir az sonra bilinəcək ki, filan universiteti bitirən doktorantların keyfiyyəti qənaətbəxş olmur. Belə olan halda da heç kəs orada doktorant olmaq istəməyəcək. İşi mərkəzləşdirməklə deyil, rəqabət əsasında qurmaq lazımdır. Bu məsələ ilə bağlı dünya təcrübəsi var, dünya təcrübəsində bu proses rəqabətlə həyata keçirilir.

**Aydın Baxış**

*https://bakivaxti.az/az/posts/detail/hamlet-isaxanli-indi-muellimlik-qadinlasib-amma-musahibe-1719898338*

*02 İyul 2024*

## BRAQANÇA POLİTEXNİK UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

İyulun 8-də Portuqaliyanın Braqança Politexnik Universiteti ilə Xəzər Universiteti arasında ERASMUS+ (KA171) mübadilə proqramı çərçivəsində görüş keçirilib.

Görüşdə Jose Carlos Lopez və Maria Olga de Amorim e Sá Ferreira Braqança universitetini təmsil ediblər. İlkin görüşdə Xəzər Universitetindən İqdisadiyyat və menecment departamentinin koordinatoru Kəmalə Babayeva, Kimya mühəndisliyi departamentinin müəllimi Tahir Cavadzadə, Neft mühəndisliyi departamentinin müəllimi Qriqorii Penkov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru Arzu Bədəlova iştirak ediblər.

Proqramın davamında Xəzər Universitetinin 3-cü kurs tələbəsi Cəmilə İsaqova (menecment) və 3-cü kurs tələbəsi Günay Rüstəmova (kompüter elmləri) qonaqlarla görüşdülər. Qeyd edək ki, bu tələbələrin növbəti tədris ilində ikili diplom proqramı çərçivəsində Braqança universitetində təhsil almaları planlaşdırılır.

Bir günlük intensiv proqram Atəşgah məbədinə səfərlə başa çatdı.

## POLYTECHNIC INSTITUTE OF BRAGANÇA REPRESENTATIVES VISIT KHAZAR UNIVERSITY

On July 8, a meeting took place between the Portuguese Polytechnic Institute of Bragança and Khazar University as part of the ERASMUS+ (KA171) exchange program.

The Institute of Bragança was represented by Jose Carlos Lopez and Maria Olga de Amorim e Sá Ferreira. From Khazar University, the participants included Kamala Babayeva, coordinator of the Department of Economics and Management, Tahir Javadzade, a faculty member from the Chemical Engineering Department, Grigorii Penkov, a faculty member from the Petroleum Engineering Department, Fatima Valiyeva, the head of the International Relations Department, and Arzu Badalova, the coordinator.

In the continuation of the program, 3rd year student of Khazar University Jamila Isagova (Management) and 3rd year student Gunay Rustamova (Computer Science) met with the guests. Note that these students are scheduled to study at Institute of Bragança under the dual diploma program in the upcoming academic year.

The intensive one-day program concluded with a visit to the Ateshgah temple.




*Tahir Cavadzadə, Kəmalə Babayeva, Arzu Bədəlova, Maria Olga de Amorim e Sá Ferreira, Qriqorii Penkov, Fatimə Vəliyeva, Jose Carlos Lopez*

# AZAL PREZİDENTİNƏ MÜŞAVİR TƏYİN OLUNUB

# ADVISOR TO THE PRESIDENT OF AZAL APPOINTED



*Fidan Fərzəliyeva*

Xəzər Universitetində 2007-2009-cu illərdə Biznesin təşkili və idarə edilməsi üzrə magistr təhsili almış Fidan Fərzəliyeva "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) prezidentinin müşaviri təyin olunub.

Qeyd edək ki, buna qədər o, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnsan resursları departamentinin müdiri vəzifəsində işləyib. Həmçinin, F.Fərzəliyeva BP şirkətinin İnsanlar və mədəniyyət (keçmiş İnsan resursları) departamentinin direktoru olub. 18 il şirkətdə müxtəlif rəhbər vəzifələrdə işləyərkən, həyata keçirdiyi uğurlu layihələrə və əldə etdiyi proqressiv nəticələrə görə, ötən ilin yanvar ayında BP-nin ümumdünya insan hüquqlarının müdafiəsi üzrə mütəxəssisi təyin olunub. O, bir sıra insan resurslarının transformasiyası layihələrində iştirak və rəhbərlik edib.

Media bu barədə xəbər yayımlayıb.

*https://globalinfo.az/azal-prezidentine-yeni-musavir-teyin-olundu/* və s.

Fidan Farzaliyeva, who earned a master's degree in business organization and management from Khazar University during 2007-2009, has been appointed as an advisor to the president of "Azerbaijan Airlines" CJSC (AZAL).

Previously, F. Farzaliyeva served as the head of the Human Resources Department at the Ministry of Digital Development and Transport. Additionally, she was the director of the People and Culture Department (formerly Human Resources) at BP. During her 18 years with BP, she held various management positions and was recognized for her successful projects and progressive achievements. As a result, she was appointed as BP's global human rights protection specialist in January of last year. She also participated in and led several human resources transformation projects.

The media has covered this news.

*https://globalinfo.az/azal-prezidentine-yeni-musavir-teyin-olundu/* et c.



*Xankişi Məmmədov*

# DƏYİŞƏN DÜNYA MÜSTƏVİSİNDƏ DƏYIŞMƏYƏN MİR CƏLAL FENOMENİ

**Xankişi Məmmədov**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Dünyada hər şey dəyişir: adət, qiymət, qismət, diqqət, qeyrət, qeybət, qətiyyət, ləyaqət, siyasət, ədavət, əyalət, əzəmət, mahiyyət, təbiət, cəmiyyət, vəziyyət, vəsiyyət, nəzarət, keyfiyyət, kəmiyyət, səmimiyyət, millət, sürət, surət, səhhət, niyyət, nifrət, sifət, ləzzət, rüşvət, şöhrət, daha nələr, nələr... Əlbəttə, sadaladığımız sözlərlə eyni qafiyədə olan çoxlu misallar gətirmək mümkündür və bunu hələ elmə məlum olmayan riyazi yollarla müəyyən etmək olar. Bu barədə gələcək yazılarımızda, qismət olsa, söhbət açarıq. Beləliklə, aydın olur ki, "dəyişmək" məfhumu, mexanikada öyrəndiyimiz kimi təkcə bir cismin başqa cismə nəzərən yerdəyişməsi olmayıb, daha geniş məna kəsb edir. Maddələr mübadiləsi də, fizioloji proseslər də, hətta düşüncəmiz də, təfəkkürümüz də bir yerdə dayanmır və daim yerini dəyişərək hərəkət edir. Yeri gəlmişkən, "hərəkat" sözü də "hərəkət" sözündən yaranıb və mahiyyət etibarı ilə eyni semantikaya malikdir. Bu isə, fəlsəfədən bildiyimiz kimi, dünyada hərəkətdən kənarda heç bir şeyin olmadığı anlamını bir daha təsdiq edir.

Dünyanın dəyişən müstəvisində, sözsüz ki, insanlar da var. Əlbəttə, bu, yaxşı haldır. Amma bu dəyişkənlik yaxşı tərəfə olsa, daha yaxşı olar. Zənnimizcə, mənfi tərəfə dəyişkənliyin özü yaxşı olmasa da, heç pis hal da deyil. Bir atalar sözündə deyildiyi kimi: "Pislər olmasaydı, yaxşıların qədri bilinməzdi və ya "Bədrəng özü də bir rəngdir". Yuxarıda sadaladıqlarımızın hamısı yüzə-doxsan doqquz faiz dəyişsə də, insanlarda bu hal fərqlidir. Doğrudur, burada da dəyişkənlik çox insanlara aiddir. Amma elə insanlar var ki, onlar yüzə-yüz dəyişmirlər, sabit qalırlar, öz nüfuzlarını, şəxsiyyətlərini, sanballarını qoruyub saxlaya bilirlər. Dəqiq elmlərdə buna "xüsusi hal" deyilir. Bu cür xüsusi insanları heç kim əqidələrindən dəyişdirə bilmək gücündə deyil. Sözü bütöv, sözünü dəyişməyən, sözünü danmayan, söz verib ona əməl edən, xeyirxahlıq üçün canından keçən, ömrünü xalqına, millətinə, dövlətinə həsr edən bu cür insanlar nadir, az-az dünyaya gələn, başqa sözlə, fenomen insanlar adlanır. Məsələn, Heydər Əliyev fenomeni, İlham Əliyev fenomeni. Ədəbi aləmdə bu ada layiq olanlar içərisində Mir Cəlal Paşayev fenomeni birincilər sırasında qərarlaşıb, sanki o, əlçatmaz zirvədə bardaş qurub, əbədi əyləşib. Müasir izahlı lüğətlərdə də yunan sözü olan "fenomen" sözü "zahir olan", "üzə çıxan", "izah edilə bilinməyən", "qeyri-adi", "əvəzolunmaz" kimi qeyd olunur. Mir Cəlal Paşayev də qeyri-adi şəxsiyyət, əvəzolunmaz yazıçı, alim, pedaqoq, müəllimlər müəllimi olaraq milli düşüncə tariximizdə əbədiyaşar fenomen

şəxsiyyətlərdən biridir. Onu da qeyd edək ki, "fenomen" anlayışına hələ antik dövr fəlsəfəsində, o cümlədən qədim yunan filosofu, klassik yunan fəlsəfəsinin ikinci nümayəndəsi, Sokrat`ın şagirdi, Aristotel`in müəllimi olmuş Əflatun`un (Platon`un), ingilis filosofu Corc Berkli`nin, alman filosofları İmmanuil Kant`ın və Qotfrid Leybnits`in fəlsəfəsində rast gəlirik. Yeri gəlmişkən, Qotfrid Leybnits`i biz daha çox riyaziyyatçı, riyazi analizin banisi, inteqral hesabının yaradıcılarından biri kimi tanıyırıq. Amma Qotfrid Leybnits həm də dahi alman filosofudur.

Bənzərsiz və geniş yaradıcılıq diapazonuna malik olan Mir Cəlal müəllimin qələmə aldığı yetmişdən çox kitabı, romanı, povestləri və hekayələrinin hər biri ayrı-ayrılıqda sanki bir həyat məktəbi, bir insanlıq dərsidir. Sanki bu əsərlərin hamısının xəmiri təbiətlə, folklorla yoğrulub, mayası isə kökdən, süddən, sudan, xalqına olan sonsuz sevgidən irəli gəlir. Elə bir əsəri yoxdur ki, orada atalar sözlərindən, el deyimlərindən, məsəllərdən, aforizmlərdən istifadə edilməsin, elə bir əsəri yoxdur ki, o əsərdən həyat qoxusu, insanlıq ətri, humanizm təravəti hiss olunmasın. Əslində Mir Cəlal müəllimin həyat və yaradıcılığı sirli-sehrli bir ümmanı xatırladır. Bu ümmana varmaq, o dəryadan nə isə götürməyi bacarmaq isə ustadımız Dədə Ələsgər demişkən, ancaq mahir qəvvaslara qismət olar, hər adi adama qismət olmaz:

*Məskən saldım astananda , dərində,*
*Söz bağını becərin də, dərin də.*
*Gövhər olar dəryalarda, dərində,*
*Onu qəvvas çəkər ay üzə tək-tək.*

Mir Cəlal müəllimin yaradıcılığında atalar sözlərindən istifadə arealı çox genişdir. Bu gözəlliyi hiss etməmək, duymamaq, ləzzət almamaq mümkün deyil. Bu mənada ədibin hələ otuz yaşı olmamışkən qələmə aldığı "Bir gəncin manifesti" əsərinə nəzər salmaq kifayət edər. Əsərdə 2-ci fəsil "Qarışqa qanad gətirəndə ölümü yaxınlaşar", 3-cü fəsil "Arxalı köpək qurd basar", 4-cü fəsil "Əsl dostları qılınc da ayıra bilməz", 7-ci fəsil "Ölmək ölməkdir, xırıldamaq nə deməkdir", 8-ci fəsil "İtə ataram, yada satmaram", 11-ci fəsil "Yolçu yolda gərək", 16-cı fəsil "Yüz gün yaraq, bir gün gərək", 17-ci fəsil "El gücü, sel gücü" atalar sözləri ilə başlayır. Yaxud, "Bir gəncin manifesti" əsərinin başlanğıcında Göteyə məxsus "Həyat və azadlıq, ancaq onlar üçün hər gün döyüşə gedən adamlara layiqdir", 1-ci fəsildə "Bütün xoşbəxt ailələr bir-birinə bənzəyirlər, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir" (L. Tolstoy), 6-cı fəsildə istifadə olunan "Həqiqətin gecəsi yoxdur, gecənin də həqiqəti var" və bu kimi aforizmlər dediklərimizə əyani sübutdur.

"Bir gəncin manifesti" romanından bəzi nümunələrə diqqət edək: 1-ci fəsildə Mərdan Hacı İbrahimxəlilin dərsini verib evə qayıdanda, çoxdandı görmədiyi dostu Sureni görür. Nə qədər sevinirsə, bir o qədər də narahat olur. Və Surenə bir söz gəlməsin deyə vaxtın qorxulu, düşmənin güclü və kəmfürsət olduğunu xatırladaraq, "Ehtiyat igidin yaraşığıdır" deyib, gecəykən kənddən çıxmağı məsləhət bilir. Yaxud, "Oğul" hekayəsinin başlanğıcında ustadımız "Kölgədə bitən ağacın kölgəsi olmaz" atalar sözündən istifadə edir. Doğrudur, əsərdə bu atalar sözü formaca bir qədər fərqli işlədilib, amma mənaca hər şey qaydasındadır. Bu deyim atalar sözləri kitablarında belə işlənir: "Kölgədə olanın kölgəsi olmaz". Əlbəttə, belə misallar yetərincədir.

Mir Cəlal müəllimin əsərlərində folklorun istər arxaik, istərsə də çağdaş janrlarından hamısına, məsələn, andlara, dualara, alqışlara, qarğışlara bol-bol rast gəlmək olur. "Bir gəncin manifesti" romanının birinci fəslində Ağaməcid Baharı tut ağacında yerə endirə bilməyəndə ona söyür: - Demirəm düş, ay dul arvadın oğlu? Yaxud, Ağaməcid Baharı şirin dilə tutub aşağı yendirəndə, Ağaməcidin anası Qarınca xanım Baharı qulaqlayır: - Nə cürətlə ona sataşırsan, a qodux?! Yalan danışma itin küçüyü - deyərək, söyüşlər işlədir. Yaxud, romanın üçüncü fəslində oxuyuruq: - Yassar yüzbaşı Ağa əl verib görüşmək istəyəndə, bəy acıqlı-acıqlı ona: - A binamus oğlu binamus, utanmırsan, mənə əl də verirsən? Ay arvaddan əskik! deyərək - təhqirlə cavab verir.

Mir Cəlal müəllimin əsərlərində elə deyimlər var ki, onlar atalar sözləri və məsəllər kitablarında olmasa da, atalar sözləri qədər mənalıdır. Güman edirik ki, nəşr edilən növbəti atalar sözləri kitablarında bu deyimləri görə biləcəyik. Məsələn, "Bir gəncin manifesti" romanında Mərdandan şikayət edilməsi barədə ərizə yazılması haqqında götür-qoy edilərkən, Hacı İbrahimxəlilin qardaşı oğlu Bala Əbülfət deyir: "Ay canım, ərizəni adamdan yazarlar, o nə itdir, əlindən ərizə yazıla? Kişi

arvaddan şikayət eləməz, arvad kişidən şikayət edər". Göründüyü kimi, bu deyimi əslində hamımız atalar sözü kimi işlədirik.

Mir Cəlal müəllimin əsərləri gözəllik dünyasının sirli-sehirli qapılarının sayını müəyyən etməyə, o qapıları açmağa, "gözəllik" məfhumunun formulunu müəyyən etməyə və gözəlliyin tam və dürüst tərifini verməyə imkan verir. Mir Cəlal müəllimin əsərləri mümkünsüz olanın mümkün olmasını öz oxucusuna anladır və onun əsərlərini oxuyarkən elə mənzərələr, bəzəklər, naxışlar, baxışlar yaranır ki, bu duyğular hətta ağıllı olanın da ağlını alır. Fikir fikri, düşüncə düşüncəni, duyğu duyğunu, söz sözü çəkir. Oğul gərəkdir ki, bu gözəllikdən baş aça, onun dadını, tamını duyub, hiss edib ləzzət ala.

Yuxarıda qeyd etdiyimiz kimi, hər kəlməsində dünya dahilərinin, məsələn alman şair və dramaturqu Yohann Volfqanq fon Göte, rus şairi və yazıçısı Nikolay Nikolayeviç Aseyev, alman şairi və jurnalisti Kristian İohan Henrix Heyne kimi dahilərin aforizmlərindən məharətlə istifadə edən Mir Cəlal müəllim atalar sözlərini, el deyimlərini mükəmməl bilən söz və fikir adamı kimi özü də atalar sözlərinə və məsəllərinə həmişə əməl edib. Fikrimizcə, dahiliyə gedən yol elə burdan başlayır. Gərək dediyin sözlə əməlin bir birini tamamlasın.

İndinin özündə də Mir Cəlal müəllimin aforizmlərindən istifadə edənlər çoxdur. Müəllimimiz tələbələrinə deyərmiş: "Hər gün yazın, çox yazın, çoxu ixtisar etmək olur, azı yox". Təzə şeir yazmağa başlayanda mən də istəyirdim ki, yaxşı şeirim olsun. Görürdüm ki, alınmır. Sonra Mir Cəlal müəllimin bu aforizmi köməyimə gəldi. Başladım gündə yazmağa. Elə olurdu gündə beş-on şeir yazırdım. Sonra gördüm ki, aha, deyəsən, yavaş-yavaş babat şeirlər yaranır. Mir Cəlal müəllimin bir aforizmi də heç zaman yadımdan çıxmır. Ustadımız deyərmiş ki, "Uşaq pis söz danışanda ağzını sabunla yuyun". Doğrudur, tez-tez olmasa da, aradabir belə bir el deyimi eşidirik. Görürsən deyirlər ki, "Pis söz danışan uşağın ağzını sabunla yuyarlar". Düzü, neçə dəfə kitabları çox araşdırmışam, amma mənbələrdə belə bir el deyiminə rast gəlməmişəm. Amma sonralar mütaliə edəndən sonra gördüm ki, bu el deyiminin müəllifi bizim Mir Cəlal müəllim imiş. Bizə elə gəlir ki, əsl atalar sözüdür. Atalar sözü necə olmalıdır ki?

Azərbaycanın bəxtinə elə düşüb ki, xalqımız həmişə düşmənlərin əhatəsində, qan-qada, savaş, müharibə içində yaşayıb. Düzdür, aradabir nisbi sakitlik olsa da, başımıza gələnləri hamımız yaxşı xatırlayırıq. Mir Cəlal müəllimin müharibə ilə bağlı bir aforizmi indi də öz orijinallığını saxlamaqdadır. İmam övladı olan Mir Cəlal müəllim deyərmiş ki, "müharibə yataq xəstəliyindən betərdi". Bu fikrin indi nə qədər doğru olduğunu gözlərimizlə görürük.

Mir Cəlal müəllimin bütün əsərləri tərbiyəvi xarakterə malikdir. Ana obrazına diqqət etmək istərdik. Təsəvvür edin, müharibə gedir, düşmən qorxusu bir yana, aclıq insanları məhv edir, ana son ümidi olan xalçanı bazara çıxarıb satmaq istəyir. Elə bu anda həmin səmtə bir əcnəbi gəlib xalçanı almaq istədiyini deyir. Kim olsa sevinər ki, nə yaxşı malım satıldı. Amma bir tikə çörəyə möhtac olan ana qürurunu sındırmır və "itə ataram, yada satmaram" deyərək, xalçanı satmaqdan imtina edir. Bu məqamda "adam ölər, ac qalar amma varını, malını, əmlakını, yurdunun bir daşını da yada satmaz" kimi tərbiyəvi fikirlər qanımıza, varlığımıza hopur. Gəlin etiraf edək ki, bunu heç kim yox, yalnız azərbaycanlı anası edə bilər və belə bir obrazı yaratmaq məhz ömrünün sonunacan ədəbiyyatımızın nazıyla oynayan Mir Cəlal müəllimə nəsib olub.

Mir Cəlal müəllim inanılmaz dərəcədə həssas, qayğıkeş, təmənnasız və sadə adam olub. Deyilənlərə görə, bir gün auditoriyada mürgüləyən uşaqdan "yuxun gəlir, ay oğul?" deyə soruşur. Biləndə ki, həmin tələbə kirayədə qaldığı otaqdan çıxarılıb və keçən gecə vağzalda gecələyib, elə həmin gün məsələni rektor səviyyəsində həll edərək, o tələbəyə yataqxanada yer düzəldir. Gəlin səmimi deyək: indi belə müəllimlərimiz varmı?

Mir Cəlal müəllimin əsərlərində dolğun təsvirləri, canlı lövhələri xatırladan təbiət cizgiləri o qədər ustalıqla, zövqlə, incəliklə, olduğu kimi yazılıb ki, oxucu özünü sanki həmin mühitdə hiss edir. Bu təsvirlərdən birinə diqqət edək: "Səhər yenicə açılmışdı. Yağışlı bir gün idi. Elə yağırdı, deyəsən, göydən yerə dolça ilə su tökülür. Navalçalar kran kimi işləyir, küçələrdən su gedirdi. Üfüqlər elə qaralmışdı, deyərdin bu hava daha açılmaz. Rütubətli ağır havada hər şey bomboz, kədərli idi. Hələ sönməyən lampalar limona bənzəyirdi. Adamlar yerə baxır, yeyin ötür, bir-birini basıb tramvaylara doluşurdular. Cəld ötən çətirli qadınlar səyyar çadır kimi görünürdü. Yer, səma qazan kimi pıq-pıq qaynayırdı". İndi belə təsvirdən, belə bir gözəllikdən necə zövq almayasan? İstər-istəməz bir sual hər kəsi düşündürə bilər: Görəcən, Mir Cəlal müəllim bu zirvələri necə fəth eləyib? Bizə elə gəlir

ki, bu uğurların əsas səbəbi böyük ədibimizin sözün və istedadının gücünə güvənməyindən irəli gəlir. Yoxsa bu qədər uğur qazanmaq mümkün olmazdı. Yaxud, bu təsvirə diqqət edək: "Dərə nə dərə! Elə bil böyük dənizləri dolduran çayların hamısı buradan axıb ötmüşdü. Çılpaq, uca, müdhiş qayalar tərtəmiz, bomboz. Fikir edirsən ki, bədəni çölə çıxmış yerdir. Dərənin tərkindən, göz işləyən yerdən parıltı gəlir, ancaq su görünmür. Sarıköynəklər, qaranquşlar qayalar arasında oynaşır, kollar arasında itirlər". Hər biri orijinal rəsm əsərlərini xatırladan bu duyğuları tablolara köçürən lazımdı bu yerdə.

Mir Cəlal müəllimin müdrik kəlamları yetərincədir: Çörək elə şeydir, tülkünü aslan edir, aslanı tülkü; Bəzi ulduzlar kiçik olduqları üçün yox, yüksəkdə olduqları üçün görünmürlər; Azadlıq verilməz, alınar; Azadlığı qorumaq – onu fəth etmək qədər müqəddəsdir; Zəncirləri qırmaq üçün əql gücü də, əl gücü də işlətmək lazımdır; İtən hörməti qapı-qapı gəzib dilənmək olmaz; Subaylıq – sonsuzluqdur və s.

Onu da qeyd edək ki, dünyada eyibsiz adam olmadığı üçün Mir Cəlal müəllim də eyibsiz olmayıb. Amma çoxlarından fərqli olaraq onun tək bircə eyibi olub. Bu barədə böyük şairmiz Səməd Vurğun Mir Cəlal müəllimin kristal təmizliyinə heyrətlənə-heyrətlənə nədənsə yarırusca, yarı azərbaycanca belə demişdi: "Mir Cəlal, sənin bircə eyibin var, sən "silişkom poryadoçnı" adamsan".

XX əsr Azərbaycan poeziyasının xanımlar xanımı kimi tanıdımız Xalq şairi Mirvarid Dilbazi demişkən "Alim, yazıçı və pedaqoq zirvələrinin fatehi, amma bununla belə Əməkdar elm xadimindən başqa (1969-cu il) heç bir fəxri adı olmayan Mir Cəlal müəllim, ən əsası, xoşbəxt adamdır. Çünki xoşbəxt o kəsdir ki, özündən sonra onun ocağını yandıran, odunu, közünü sönməyə qoymayan, ideyalarını layiqincə davam etdirən, sonrakı ömrünü yaşadan Arif Paşayev, Hafiz Paşayev kimi oğulları, Mehriban Əliyeva, Nərgiz Paşayeva kimi nəvələri, Arzu, Leyla və Heydər kimi nəticələri var." Bu yerdə böyük ədibimizin indi də dillər əzbəri olan bu kəlamı istər-istəməz yada düşür. Mir Cəlal müəllim deyərmiş ki, "həyatımda yaratdığım ən böyük əsər ailəmdir". Bütün bu qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olur ki, heç bir zaman yadımızdan çıxmayan, qəlbi, ruhu, ideyaları, tövsiyələri ürəyimizdə, qəlbimizdə yaşayan, əsərlərindən hər zaman bəhrələndiyimiz üçün Mir Cəlal müəllim həm də bizim müasirimizdir.

Sonda Mir Cəlal müəllimin çox vacib fikriylə bu yazıya nöqtə qoyuram. Mir Cəlal müəllim deyirmiş ki, yazanda həmişə yaşıl qələmlə yazın, yaşıl rəng gözü müalicə edir və korşalmağa qoymur. Elə bu yerdə qəlbimdən aşağıdakı misralar keçdi:

Əlimdə ixtiyar olsaydı əgər,
Sizə hər məkanda heykəl qoyardım.
Haqqın dərgahında, Allah yolunda,
Sizə hər məkanda heykəl qoyardım.

Keçmişə, tarixə söykənmək üçün,
Sonrakı nəsillər, gələcək üçün,
Sizin qarşınızda baş əymək üçün,
Sizə hər məkanda heykəl qoyardım.

Sözləriniz valeh edir hər kəsi,
Artırır insanda eşqi, həvəsi.
Allahın ən doğma, əziz bəndəsi,
Sizə hər məkanda heykəl qoyardım.

Coşdu Xankişinin yenə ilhamı,
Yazdı bu şeiri bayram axşamı.
Ey Allah adamı, göylər adamı,
Sizə hər məkanda heykəl qoyardım.

***16.06.2024***

***

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ DİSSERTASİYA MÜDAFİƏLƏRİ

# DISSERTATION DEFENSE HELD AT DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE

İyunun 20-21-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin Dilşünaslıq və tərcümə ixtisası üzrə təhsil alan magistr tələbələrinin müdafiəsi baş tutub. Aygün Nəcəflinin "İngilis dilinin sosial variasiyaları", Zeynəb Həsənovanın "Xüsusi isimlərin İngilis dilindən Azərbaycan dilinə tərcümə imkanları", Nərmin Zamanlının "İngilis və Azərbaycan dillərində bədənlə əlaqəli idiomların kontrastiv təhlili", Nərgiz Novruzlunun "Kommersiya reklamlarının ingilis dilindən Azərbaycan dilinə tərcüməsi zamanı yaranan çətinliklər", Şamxal Bədəlovun "Azərbaycanlı ingilis dilini öyrənənlərin kimliyinin ikinci dilinin mənimsənilməsi zamanı yenidən formalaşması", Abdullah Miftachul İrvan`ın "İndoneziya kontekstində çoxdilliliyin Sosiolinqvistik Təhlili", Fatimə Məmmədovanın "Qloballaşma dövründə alınma sözyaratma prosesi: ingilis dilindən Azərbaycan dilinə keçmiş alınmaların nümunəsində", Afət Qəhrəmanovanın "Azərbaycan EFL (İXD) siniflərində kod dəyişdirmənin rolu", Firuzə Dadaşovanın "Siyasi diskursda irqçiliyin reallaşmasının tədqiqi", Ləman Umarovanın "Amerika siyasi diskursunda evfemizm və disfemizmlərin tədqiqi", Səbinə Əh-

On June 20-21, the dissertation defense for master's students studying Linguistics and Translation at the Department of English Language and Literature of Khazar University took place. The students defended their dissertations on various topics: Aygun Najafli: "Social Varieties of English", Zeynab Hasanova: "The Possibilities of Translating Proper Names from English into Azerbaijani", Narmin Zamanli: "Contrastive Analysis of Body-Related Idioms in English and Azerbaijani", Nargiz Novruzlu: "The Challenges in Translation of Commercial Advertisements", Shamkhal Badalov: "Reconstruction of Azerbaijani EFL Learners' Identity in Light of SLA Experience", Abdullah Miftachul Irvan: "A Sociolinguistic Analysis of Multilingualism in Indonesian Context", Fatima Mammadova: "Borrowing as a Word Formation Process in the Globalization Era: The Case of English to Azerbaijani", Afat Gahramanova: "The Role of Code-Switching in Azerbaijani EFL Classrooms", Firuza Dadashova: "An Investigation of Linguistic Realizations of Racism in Political Discourse", Laman Umarova: "An Investigation of Euphemism and Dysphemism in Political Discourse",Sabina




**Ön cərgədə:** *Zamirə Qurbanova (İngilish dili və ədəbiyyatı departamenti), Milana Abbasova, Azad Məmmədov (ADU), Hüseynağa Rzayev, İmran Məhəmməd;* **arxa cərgədə:** *Zeynəb Həsənova, Ləman Umarova, Fatimə Məmmədova, Firuzə Dadaşova, Səbinə Əhmədova, Ülkər Rəsulova (Xəzər Universiteti)*

mədovanın "ChatGPT-4 və insan tərərfindən elmi mətnlərin tərcüməsinin müqayisəli keyfiyyət qiymətləndirilməsi" mövzularında dissertasiya işlərinin müdafiəsi keçirilib. Müdafiə komissiyasının sədri filologiya elmləri doktoru, Azərbaycan Dillər Universiteti Ümumi dilçilik kafedrasının müdiri Prof. Azad Məmmədov, komissiya üzvləri isə Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova, Azərbaycan Dillər Universitetinin müəllimi Dos. İrina Orucova , Xəzər Universitetinin müəllimi Dr. Hüseynağa Rzayev, Səudiyyə Ərəbistanındakı Şahzadə Sultan Universitetinin müəllimi Dr. İmran Məhəmməd olublar. Mövzular ətrafında təqdimatlar və müzakirələr keçirildikdən sonra işlər müsbət qiymətləndirilib.

Ahmedova: "A Comparative Quality Assessment of ChatGPT4 and Human Translation of Scientific Texts".

The defense commission was chaired by Prof. Azad Mammadov, Doctor of Philological Sciences and Head of the Department of General Linguistics at Azerbaijan University of Languages. The commission members included Milana Abbasova, Head of the Department of English Language and Literature at Khazar University; Assoc. Prof. Irina Orujova, lecturer at Azerbaijan University of Languages; Prof. Huseynaga Rzayev, lecturer at Khazar University; and Dr. Imran Mahammad, lecturer at Prince Sultan University in Saudi Arabia.

Following the presentations and discussions, the dissertations were evaluated positively.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNDƏ DİSSERTASİYA MÜDAFİƏLƏRİ

## DISSERTATION DEFENSE HELD AT DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY

İyunun 20-21-də Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin Beynəlxalq münasibətlər və diplomatiya, Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi, Dünya siyasi prosesləri, Konfliktologiya və regionşünaslıq ixtisasları üzrə təhsil alan magistr tələbələrin dissertasiyalarının müdafiəsi keçirilib. Nurlanə Haqverdiyevanın "Comparative Analysis of US and Russian Foreign Policy Approaches in the Middle East" ("ABŞ və Rusiyanın Yaxın Şərqdə xarici siyasət yanaşmalarının müqayisəli təhlili"), Nahidə Rəsulzadənin "EU- Azerbaijan relations: Energy and The Armenian -Azerbaijan conflict" ("Avropa İttifaqi və Azərbaycan münasibəti: enerji və Ermənistan - Azərbaycan münaqişəsi"), Hanhae Hong`un "Evaluation of South Korea's Nation-Building Process: The origins of the conservative cartel in Korean politics" ("Cənubi Koreyanın milli quruculuğu prosesinin qiymətləndirilməsi: Koreya siyasətində mühafizəkar kartelin mənşəyi"), Çiçək Nəsirlinin "Turkey's Middle East Policy in the Justice and Development Party Era: Strategic Objectives and Resources" ("Ədalət və İnkişaf Partiyasi dövründə Türkiyənin Orta Şərq siyasətində strateji hədəflər və resurslar),

(*Ardı səh.66-da*)

On June 20-21, the dissertation defense of the master's students studying international relations and diplomacy, history and theory of international relations, world political processes, conflictology and regional studies of the Department of Political Sciences and Philosophy of Khazar University was held. MA students defended their dissertations on the following topics: Nurlana Hagverdiyeva "Comparative Analysis of US and Russian Foreign Policy Approaches in the Middle East", Nahida Rasulzadeh "EU- Azerbaijan relations: Energy and The Armenian -Azerbaijan conflict", Hanhae Hong "Evaluation of South Korea's Nation-Building Process: The origins of the conservative cartel in Korean politics", Chichak Nasirli "Turkey's Middle East Policy in the Justice and Development Party Era: Strategic Objectives and Resources", Mahammad Akhundov "The future of the Europeanization process in Eastern Partnership countries after the War in Ukraine" Brilliant Windy Khairunnisa "Cultural Diplomacy in International Relations: A Case Study of Indonesia's Engagement", Laman

(*To be continued page 66*)

Məhəmməd Axundovun "The future of the Europeanization process in Eastern Partnership countries after the War in Ukraine" ("Ukrayna müharibəsindən sonra Şərq Tərəfdaşlığı ölkələrində avropalaşma prosesinin gələcəyi"), Brilliant Windy Khairunnisa`nın "Cultural Diplomacy in International Relations: A Case Study of Indonesia's Engagement" ("Beynəlxalq münasibətlərdə mədəni diplomatiya: İndoneziyanın münasibətinin tədqiqi"), Ləman Qəhrəmanovanın "Origins of the Russia-Ukraine War: Realizm versus Constructivism" ("Rusiya-Ukrayna müharibəsinin mənşəyi: konstruktivizmə qarşı realism") mövzularında dissertasiya işlərinin müdafiəsi keçirilib.

Müdafiə komissiyasının sədrləri Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Dr. Vasif Hüseynov və Bakı Dövlət Universiteti Politologiya və sosiologiya kafedrasının müəllimi Dr. Mehman Həsənov, komissiya üzvləri isə Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev, departamentin müəllimləri - siyasi elmlər doktoru Prof. Vəsilə Hacıyeva və müəllimi Dr. Fərid Quliyev olmuşdur.

Dissertasiyalar komissiyalar tərəfindən müsbət qiymətləndirilib.



**Ön cərgədə:** *Aydan Raufqızı (Xəzər Universiteti), Vəsilə Hacıyeva, Orxan Vəliyev, Vasif Hüseynov,* **arxa cərgədə:** *Hanhae Hong, Brilliant Windy Khairunnisa, Çiçək Nəsirli, Nurlanə Haqverdiyeva, Ləman Qəhrəmanova*

Gahramanova "Origins of the Russia-Ukraine War: Realism versus Constructivism".

The defense commission was chaired by Dr. Vasif Huseynov, a lecturer at the Department of Political Sciences and Philosophy of Khazar University, Department Head of the Center for the Analysis of International Relations, and Dr.Mehman Hasanov, a lecturer at the Department of Political Science and Sociology at Baku State University. The members of the commission were Dr. Orkhan Valiyev, the head of the Khazar University Political Sciences and Philosophy Department, the department's lecturers - Doctor of Political Sciences Prof. Vasila Hajiyeva and lecturer Dr. Farid Guliyev.

The dissertation works were evaluated positively.

# XƏZƏR UNİVERSİTETİ "TÜRK DÜNYASI TƏHSİL SƏRGİSİ"NDƏ

# KHAZAR UNIVERSITY AT "TURKISH WORLD EDUCATION EXHIBITION"




*Əli Mirzəzadə, Ələvsət Əmirbəyli, Fatimə Vəliyeva*

İyunun 22-sində Bakıda "Türk Dünyası Təhsil Sərgisi" adlı tədbir keçirildi. Tədbirin keçirilməsində əsas məqsəd türk dünyasının perspektivli universitetlərini bir araya gətirmək, onlar arasında əməkdaşlığı gücləndirmək və həmin universitetlərin Azərbaycanda daha da tanınmasına imkan yaratmaq idi.

Sərgidə iştirak edən yerli universitetlərdən biri də Xəzər Universiteti idi.

Sərgidə yerli və xarici təhsil mərkəzlərinin rəhbərləri, Milli Məclisin deputatları, Türkiyə təhsil nümayəndələri və digərləri iştirak edirdilər

Xəzər Universitetini sərgidə İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəyli, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatorları Turan Əlizadə, Əli Mirzəzadə təmsil edirdilər. Sərgiyə gələnlərin əksəriyyəti Xəzər Universitetindəki ixtisaslarla tanış olmaq istəyirdilər. Bakı şəhərinin bir çox məktəbliləri və onların müəllimləri universitetdə mövcud olan imkanlarla, təqaüd qaydaları və universitetin qəbul şərtləri ilə maraqlanırdılar. Onlara ətraflı məlumat verildi.

On June 22, Baku hosted the "Turkish World Education Exhibition." The event aimed to unite leading universities from the Turkic world, enhance collaboration among them, and to create an opportunity for those universities to become more recognized in Azerbaijan. Khazar University was one of the local universities participating in the exhibition. Heads of local and foreign educational centers, MPs of the Milli Majlis, representatives of Turkish education and others took part in the exhibition.

Khazar University was represented at the exhibition by Alovsat Amirbeyli, the director of Public Relations and Media, Fatima Valiyeva, the head of the International Relations Department, and coordinators Turan Alizade and Ali Mirzazade. The majority of exhibition visitors were keen to learn about Khazar University's specialties. Many schoolchildren of Baku and their teachers were interested in the opportunities available at the university, scholarship rules and admission conditions of the university.They were given detailed information.

## "DİZAYN PORTFOLİO" BURAXILIŞ İŞLƏRİNİN MÜDAFİƏSİ

## FINAL DEFENSE OF "DESIGN PORTFOLIO" GRADUATION PROJECTS





*Şəhla Abbasova, Leyla Hüseynova, Sevinc Həsənova, İlahə Təhməzli, Arzu Məmmədova*

İyunun 22-də Xəzər Universitetinin Mərmər zalında 4-cü kurs Dizayn ixtisası tələbələrinin "Dizayn Portfolio" buraxılış işlərinin müdafiəsi keçirilib. Müdafiə komissiyasının sədrliyinə Bakı Mühəndislik Universitetinin Memarlıq və inşaat fakültəsinin dosenti Arzu Məmmədova dəvət olunmuşdu. Müdafiədə Xəzər Universiteti Memarlıq və dizayn departamentinin müdiri Dos. Şəhla Abbasova, aparıcı müəllimlər Leyla Hüseynova, Sevinc Həsənova, İlahə Təhməzli komissiya üzvləri qismində iştirak ediblər.

On June 22, the "Design Portfolio" final defense of the 4th year Design major students took place in the "Marble" hall of Khazar University. Chairman of the State Attestation Commission Assoc. Prof. Arzu Mammadova, elected by Khazar University, was invited to the final defense commission. Assoc. Prof. Shahla Abbasova, head of the Architecture and Design Department, leading teachers Leyla Huseynova, Sevinj Hasanova, Ilaha Tahmezli participated in the defense as commission members.






4-cü kurs Dizayn ixtisası tələbələrinin təqdim etdikləri "Dizayn Portfolio" adlı buraxılış işləri komissiya üzvlərinin marağına səbəb olub və tələbələrin gələcək iş həyatına hazırlıq üçün vacib bir məqam olduğu vurğulanıb.

Müdafiə zamanı tələbələr öz bacarıqlarını, üslublarını və yaradıcılıq potensiallarını nümayiş etdiriblər. Təqdim olunan işlər komissiya üzvləri tərəfindən müsbət qiymətləndirilib.







The graduation works called "Design Portfolio" presented by the 4th year Design major students aroused the interest of the commission members and it was emphasized that it is an important point for the preparation of the students for the future working life.

During the defense, students demonstrated their skills, style, and creative potential. The submitted works were positively evaluated by the commission members.



# "XƏZƏRİN LƏPƏLƏRİ" ADLI SƏRGİ VƏ XEYRİYYƏ YARMARKASI

# EXHIBITION AND CHARITY FAIR CALLED "RIPPLES OF KHAZAR"



*Hamlet İsaxanlı tələbələrlə*

İyun ayının 25-də Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin Memarlıq və dizayn departamentinin təşəbbüsü ilə "Xəzərin Ləpələri" adlı sərgi və xeyriyyə yarmarkası keçirilmişdir.

On June 25, the Department of Architecture and Design at Khazar University's School of Science and Engineering organized an exhibition and charity fair



*Fərida Tatardar, Fəxrəndə Əfəndiyeva (Xəzər Universiteti)*



İradə Xəlilova, Şəhla Abbasova

Sərgidə Memarlıq, Dizayn, Təsviri incəsənət müəllimliyi ixtisaslarında təhsil alan tələbələrin 2023-24-cü tədris ilində yerinə yetirdikləri praktiki kurs işləri və dərsdənkənar fərdi işləri sərgilənmişdir. Tədbirdə universitetin rəhbərliyi, professor-müəllim heyəti və tələbələrlə yanaşı, bir sıra qonaqlar, eyni zamanda Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov da iştirak etmişlər.

Tələbələrin və həmçinin departamentin müəllimlərinin fərdi işləri sərgidən sonra baş tutan xeyriyyə yarmarkasında satışa çıxarılmışdır. Yarmarkadan əldə olunan gəlirin uşaq evinə bağışlanması nəzərdə tutulmuşdur.

2024-cü ilin Azərbaycanda "Yaşıl Dünya Naminə Həmrəylik İli" elan edilməsi ilə bağlı sərginin bir hissəsi bu mövzuya həsr edilmişdir.

Qeyd edək ki, sərgilənən işlər ekodizayn layihələri, "Yaşıl Dünya" mövzusunda reklam plakatları, keramika məhsulları, memarlıq layihələri və maketlər, loqo və brendinqlər, rəsm, milli geyimlər kimi sahələri əhatə edirdi.



Cəmilə Səfərova

titled "Ripples of Khazar."

The event featured practical coursework and extracurricular projects created by students of Architecture, Design, and Fine Art Teaching during the 2023-24 academic year. Alongside university faculty and students, the event was attended by various guests, including Faig Mutallimov, the head of the Environmental Policy Department of the Ministry of Ecology and Natural Resources.

Students' and faculty members' individual works from the department were sold at the charity fair following the exhibition. The money raised from the fair will be donated to the orphanage.

A section of the exhibition, which aligns with the declaration of 2024 as the "Year of Solidarity for a Green World," focused on this theme. It is worth mentioning that the displayed works included eco-design projects, "Green World" advertising posters, ceramic products, architectural projects and models, logos and branding, paintings, and national costumes.



Şəhla Abbasova, İbadulla İbrahimli

# DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNDƏ MAGİSTR DİSSERTASİYALARININ MÜDAFİƏSİ



*Yuxuan Tang*

İyunun 25-də Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentində magistr dissertasiyalarının müdafiəsi keçirildi. Azərbaycan dili ixtisası üzrə magistr təhsili alan Siyuan Wang "Transliterasiya qaydaları, fonetik interferensiya (Azərbaycan və Çin dilləri materialları əsasında)" və Yuxuan Tang "Azərbaycan dilində hal kateqoriyası və onun Çin dilində ifadə vasitələri" mövzularında elmi tədqiqat işlərini təqdim etdilər. Hər bir iddiaçı elmi müzakirə şəraitinə uyğun olaraq komissiya üzvlərinin və ekspertlərin suallarını düzgün cavablandırdılar. Komissiya üzvləri – Dos. Dilbər Zeynalova, Dos. Rasim Heydərov, Dr. Reyhan Mədətova, Dr.Zəminə Ziyayeva, ekspertlər – Dos. Sevinc Ağayeva və Dr. Almaz Bədəlova iddiaçıların elmi biliklərinin nümayişindən və hazırlıq səviyyələrindən razı qaldıqlarını bildirdilər. Magistrlər də öz növbələrində təhsil aldıqları müddətdə onlara göstərilən diqqət və qayğıya görə elmi rəhbərlərinə - Dos.Rasim Heydərova, Dr.Reyhan Mədətova və müəllimlərə,eləcə də universitet rəhbərliyinə təşəkkürlərini bildirərək, əldə etdikləri bilik və təcrübələrin gələcəkdə Çin-Azərbaycan elmi əlaqələrinin inkişafında əhəmiyyətli olacağına əminliklərini ifadə etdilər.

Sonda qaydalara uyğun olaraq komissiya üzvlərinin ümumi rəyi əsasında təqdim olunan magistr elmi-tədqiqat işləri müsbət qiymətləndirildi.

# MASTER'S THESES DEFENSE IN THE DEPARTMENT OF LANGUAGES AND LITERATURES



*Siyuan Wang*

On June 25, Khazar University's Department of Languages and Literatures hosted the defense of master's theses. Siyuan Wang presented research titled "Rules of Transliteration, Phonetic Interference (based on Azerbaijani and Chinese languages)," while Yuxuan Tang discussed "The Case Category in Azerbaijani and Its Means of Expression in Chinese." Both candidates, who are pursuing their master's degrees in Azerbaijani language from the department, responded accurately to the commission members' and experts' questions in line with the scientific discussion's criteria. Commission members – Assoc. Prof. Dilbar Zeynalova, Assoc. Prof. Rasim Heydarov, Dr. Reyhan Madatova, and Dr. Zamina Ziyayeva – along with experts Dr. Sevinj Aghayeva and Dr. Almaz Badalova, expressed their satisfaction with the candidates' demonstration of scientific knowledge and level of preparation. The master's students expressed their appreciation to their supervisors – Assoc. Prof. Rasim Heydarov, Dr. Reyhan Madatov, and their instructors, along with the university administration, for the support and care provided throughout their studies. They also expressed confidence that the knowledge and experience gained would contribute to the future development of China-Azerbaijan scientific relations.

Finally, in line with the regulations, and based on the consensus of the commission members, the master's research projects were positively assessed.





*Əliməmməd Nuriyev*

## KORRUPSİYAYA QARŞI MÜBARİZƏ MÖVZUSUNDA SEMİNAR

İyunun 27-də Xəzər Universitetində Hüquq departamentinin təşkilatçılığı ilə "Korrupsiya xoşbəxtlik gətirə bilərmi – biz niyə korrupsiyaya qarşı mübarizə aparmalıyıq?" mövzusunda seminar keçirildi.

Universitet əməkdaşlarının iştirakı ilə keçən seminarda əsas məruzəçi – Azərbaycan Respublikası Milli Məclisinin sabiq üzvü, Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev çıxış etdi. Natiq Azərbaycan dövləti tərəfindən ölkədə korrupsiyaya qarşı geniş mübarizə aparıldığını söyləyərək qeyd etdi ki, hələ 2004-cü ildə yaradılmış Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyası korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyalarını həyata keçirir və korrupsiyaya qarşı mübarizənin vəziyyəti barədə Azərbaycan Respublikasının Prezidentini, Azərbaycan Respublikası Milli Məclisini və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsini mütəmadi olaraq məlumatlandırır. Eyni zamanda, hazırda Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq müəyyən tədbirlər görülməkdədir. Məruzəçi, bunlarla yanaşı, ictimai nəzarətin zəruri olduğunu müvafiq maarifləndirmə işinin aparılmasının vacibliyini nəzərə çatdırdı.

Məruzədən sonra ətraflı fikir mübadiləsi, müzakirələr aparıldı.

Sonda Hüquq departamentinin müdiru Cabir Xəlilov məruzəçiyə və iştirakçılara təşəkkürünü bildirərək, gələcəkdə belə tədbirlərin daha geniş formatda keçirilməsinə ehtiyac olduğunu vurğuladı.

## SEMINAR ON FIGHT AGAINST CORRUPTION

On June 27, Khazar University's Department of Law hosted a seminar titled "Can Corruption Bring Happiness - Why Should We Fight Corruption?"

Alimammad Nuriyev, a former member of Azerbaijan's Milli Majlis and President of the Constitutional Research Foundation, addressed the seminar, which was attended by university staff. He stated that the Azerbaijani government is actively combating corruption and mentioned that the Anti-Corruption Commission of the Republic of Azerbaijan, established in 2004, serves as a specialized body for corruption prevention. This commission collaborates with the legislative, executive, and judicial branches, regularly reporting on anti-corruption efforts to the President, the Milli Majlis, and the Constitutional Court of the Republic of Azerbaijan.

At the same time, various measures are being implemented as per the "2022-2026 National Action Plan on Strengthening the Fight Against Corruption," approved by a Presidential Decree of the Republic of Azerbaijan. The speaker also highlighted the importance of public control, citizen involvement, and educational initiatives aimed at the public. Following the report, an extensive discussion and exchange of ideas took place.

In the end, the head of the Law Department, Jabir Khalilov, expressed gratitude to the speaker and participants and stressed the importance of conducting such events on a larger scale in the future.

# XƏZƏR UNİVERSİTETİNİN REKTORU KAPUSÇİNSKİ İNKİŞAF MÜHAZİRƏLƏRİNDƏN BİRİNDƏ İŞTİRAK ETMİŞDİR

# KHAZAR UNIVERSITY RECTOR, ATTENDS KAPUSCINSKI DEVELOPMENT LECTURE




İyunun 27-də Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova BMT İnkişaf Proqramının və Avropa Komissiyasının birgə təşəbbüsü ilə təşkil olunan Kapusçinski İnkişaf Mühazirələrindən (Kaptalks) birində iştirak etmişdir.

Qonaq məruzəçi, Malayziyanın Sunway Universitetinin Planetar Sağlamlıq Mərkəzinin icraçı direktoru, professor Tan Sri Dr. Jemilah Mahmood "Mürəkkəb dünyada necə yaşamalı: planetar sağlamlıq çıxış yolu kimi" mövzusunda mühazirə oxuyub.

Tədbirdə səhiyyə və təhsil sahəsinin mütəxəssisləri, ekspertlər, alimlər, tələbələr, dövlət orqanlarının nümayəndələri, diplomatlar və vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Hibrid formatda təşkil olunan mühazirə bu il Azərbaycanda keçiriləcək COP29 hazırlıqları çərçivəsində baş tutub.

Sonda Planetar Sağlamlıq Alyansının üzvləri olan Dr. İradə Xəlilova və Dr. Jemilah Mahmood Xəzər Universiteti ilə Sunway Universiteti arasında COP29 çərçivəsində və digər əməkdaşlıq imkanlarını və tədqiqat layihələrini müzakirə ediblər.

On June 27, Khazar University Rector, Assoc. Prof. Irada Khalilova participated in one of the Kapuscinski Development Lectures organized by a joint initiative of the UN Development Program and the European Commission.

Guest speaker Prof. Tan Sri Dr. Jemilah Mahmood, the executive director of the Centre for Planetary Health of Sunway University Malaysia, delivered the lecture titled "Living in a complex world: can planetary health offer a way forward?"

The event brought together members of the health and education community, experts, academicians, students, local authorities, diplomats, and civil society.

The lecture, which was organized in a hybrid format, was part of the preparations for COP29 Azerbaijan.

As members of the Planetary Health Alliance, Dr. Irada Khalilova and Dr. Jemilah Mahmood discussed cooperation possibilities and research projects between Khazar University and Sunway University for COP29 and beyond.



*Jemilah Mahmood* *İradə Xəlilova*

# XƏZƏR UNİVERSİTETİ "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK: DAYANIQLI GƏLƏCƏK ÜÇÜN TULLANTILARDAN DƏYƏRƏ" MÖVZUSUNDA BEYNƏLXALQ FORUMDA TƏMSİL OLUNUB



# KHAZAR UNIVERSITY REPRESENTED IN THE "GREEN WORLD SOLIDARITY: WASTE TO VALUE FOR A SUSTAINABLE FUTURE" INTERNATIONAL FORUM

İyunun 27-28-də Bakıda Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Təmiz şəhər" ASC-nin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik: dayanıqlı gələcək üçün tullantıdan dəyərə" mövzusunda beynəlxalq forum keçirilib. Qeyd edək ki, bu il Azərbaycan dövləti Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə, xüsusən Məqsəd 11 (Dayanıqlı Şəhərlər və İcmalar) və Məqsəd 12 (Məsuliyyətli İstehlak və İstehsal) ilə uyğunlaşan qlobal ekoloji əməkdaşlığa və davamlılığa sadiqliyini nümayiş etdirərək, ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdir.

Tədbirdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmiləri, BMT, ali təhsil müəssisələri, müxtəlif beynəlxalq təşkilatlar və xarici ölkələrdən nümayəndələr iştirak ediblər. Xəzər Universiteti forumda rektor Dos. İradə Xəlilova ilə təmsil olunub.

İki gün davam edən forum iştirakçı təşkilatlar və şirkətlər tərəfindən "Sıfır Tullantı" Bakı Təşəbbüsünün qəbul edilməsi ilə yekunlaşıb. Təşəbbüs davamlı tullantıların idarə olunması təcrübələrini, innovativ qablaşdırma həllərini, təkrar emalın təşviqi və tullantıların azaldılması strategiyalarını əhatə edir.

Forum çərçivəsində Beynəlxalq Forum salonunun girişində tullantı materiallarından hazırlanmış müxtəlif əl işləri və rəsm əsərlərindən ibarət sərgi nümayiş etdirilib.

On June 27-28, the international forum "Solidarity for a green world: from waste to value for a sustainable future" was held in Baku under the organization of the Ministry of Ecology and Natural Resources, "Clean City" OJSC.

This year, Azerbaijan has officially declared the year of the "Green World Solidarity Year," showing its dedication to global environmental cooperation and sustainability that aligns with the United Nations Sustainable Development Goals, particularly Goal 11 (Sustainable Cities and Communities) and Goal 12 (Responsible Consumption and Production) by emphasizing commitment to advancing global sustainability agendas.

Officials from the Ministry of Ecology and Natural Resources, UN representatives, representatives of Higher Educational Institutions, and delegates from various international organizations and foreign countries attended the event. Khazar University was represented at the forum by Rector Associate Professor Irada Khalilova.

The two-day forum was finalized by the adoption of the "Zero Waste" Baku Initiative by participating organizations and companies. The initiative commits to sustainable waste management practices, innovative packaging solutions, and the promotion of recycling and waste reduction strategies.

During the Forum, a tour of the exhibition showcased various artifacts designed from waste materials and paintings at the International Forum Hall entrance.

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI ÜÇÜN TƏŞKİL OLUNAN DİL KURSU BAŞA ÇATIB

İyunun 28-də İngilis dili və ədəbiyyatı departamentinin təşkil etdiyi "Əməkdaşlar üçün ingilis dili" kursu 2023-2024-cü tədris ili üçün fəaliyyətini yekunlaşdırmışdır.

Həmin müddətdə əməkdaşlar öncədən keçirilmiş səviyyə testinə uyğun olaraq, iki səviyyədə qruplara ayrılmış, dərslər həftədə 2 dəfə olmaqla hər iki qrupda İngilis dili və ədəbiyyatı departamentinin ştat müəllimi Leyla Alməmmədova tərəfindən aparılmışdır. Kurs müddətində 2 dəfə qiymətləndirmə imtahanı keçirilmişdir.

2024-cü ilin sentyabr ayından etibarən əməkdaşlar üçün təşkil edilən dil kursları öz fəaliyyətini davam etdirəcək.

# KHAZAR UNIVERSITY'S 'ENGLISH FOR STAFF MEMBERS' COURSE CONCLUDES

On June 28, the "English for Staff Members " course, organized by the Department of English Language and Literature, wrapped up its activities for the 2023-2024 academic year.

Employees were split into two groups based on their results from a placement test, and Leyla Almammadova, a full-time instructor in the English language and literature department, taught the classes twice a week.

During the course, there were two evaluation exams. Starting in September 2024, the language courses for employees will resume.



*Nərminə Qasımova, Mehdi Samadi, Leyla Alməmmədova, Aybəniz Namazova, Lalə Atamova,*

## ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI

İyulun 5-də Xəzər Universiteti Elmi Şurasının növbəti iclası keçirildi.

İclası universitetin rektoru Dos. İradə Xəlilova açaraq, gündəlikdəki məsələləri Elmi Şura üzvlərinin nəzərinə çatdırdı.

Gündəliyin 1-ci məsələsi olan məzunlar haqqında məlumatları Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Aygün Verdiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova və İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov təqdim etdilər. Universitetin məzun olan bakalavriatura və magistratura tələbələri, onların qiymətləri, ixtisasları və s. haqqında ətraflı məlumat dinlənildi və müzakirələr aparıldı.

Gündəliyin ikinci məsələsi olan fəlsəfə doktorluğu proqramı üzrə hazırlanan qəbul imtahanlarının proqramları haqqında Elmi Şuranın katibi Günel Bahəddinova məlumat verdi. O qeyd etdi ki, 2024-cü ildə fəlsəfə doktorluğu proqramı üzrə Beynəlxalq münasibətlər, Dünya iqtisadiyyatı, Genetika, German dilləri, Kompüter elmləri, Neft və qaz yataqlarının işlənməsi və istismarı, Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi, həmçinin Ümumi psixologiya üzrə qəbul imtahanları keçiriləcək. Uyğun departamentlər tərəfindən hər bir ixtisas üzrə qəbul proqramları hazırlanmış, proqramlara müsbət olmaqla daxili və xarici rəylər verilmişdir. Elmi Şura üzvləri proqramlarla tanış olaraq, onları təsdiq etdilər.

Sonra sədr gündəliyin üçüncü məsələsi olan departamentlərin illik fəaliyyətlərinin hesabatı haqqında məlumat vermək üçün departament rəhbərlərinə söz verdi. İqtisadiyyat və menecment departamentinin müdiri Ceyhun Məmmədov, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar, Həyat elmləri departamentinin müdiri Cəmalə Eldarova, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Orxan Vəliyev 2023-2024-cü tədris ilində departamentin fəaliyyəti haqqında ətraflı məlumat verdilər. Məsələ Elmi Şura üzvləri tərəfindən müzakirə edildi və hesabatlar təsdiq olundu.

İclasın sonunda sədr növbəti Elmi Şurada digər departamentlərin illik fəaliyyət hesabatlarının dinləniləcəyini qeyd etdi.

## NEXT SCIENTIFIC COUNCIL MEETING

On July 5, Khazar University's Scientific Council convened for its next meeting. Rector of the university, Assoc. Prof. Irada Khalilova, opened the session and brought the issues on the agenda to the attention of the Scientific Council members.

Information about the graduates, which is the 1st issue of the agenda, was presented by Fakhranda Alimardanova, dean of the School of Science and Engineering; Jeyhun Mammadov, dean of the School of Economics and Management; Aygun Verdiyeva, deputy dean of the School of Humanities, Education and Social Sciences; Saida Sharifova, dean of the Graduate School of Science, Art and Technology; and Ingilab Ahmadov, dean of the Graduate School of Economics and Business. Detailed information about undergraduate and graduate students of the university, their grades, specialties et c. was heard and discussions were held.

The secretary of the Scientific Council, Gunel Bahaddinova, provided information about the entrance exam programs for the PhD program, which was the second item on the agenda. She noted that in 2024, entrance exams for the PhD program will be conducted in International Relations, World Economy, Genetics, German Languages, Computer Science, Development and Operation of Oil and Gas Fields, General Pedagogy, History of Pedagogy and Education, as well as General Psychology. Admission programs for each specialty were prepared by the relevant departments and received positive internal and external reviews. The members of the Scientific Council reviewed and approved these programs.

The chairman then called on the department heads to present their annual activity reports, which was the third item on the agenda. Jeyhun Mammadov, Head of the Department of Economics and Management; Milana Abbasova, Head of the Department of English Language and Literature; Farida Tatardar, Head of the Department of Physics and Electronics; Jamala Eldarova, Head of the Department of Life Sciences; and Orkhan Valiyev, Head of the Department of Political Sciences and Philosophy, provided detailed information about their departments' activities during the 2023-2024 academic year. The members of the Scientific Council discussed the reports and approved the reports.

At the end of the meeting, the chairman noted that the annual activity reports of other departments would be presented at the next Scientific Council.

MARAQLI

# DÜNYANIN 10 ƏN YAŞAMALI ŞƏHƏRİ




Oxford Economics 2024 - Qlobal Şəhərlər İndeksini 6 əsas göstəriciyə görə müəyyən edib ki, bunlar da insanların gözlədiyi həyat, adambaşına düşən gəlir, gəlir bərabərliyi, istirahət və mədəniyyət sahələri, internet sürəti və mənzil xərcləridir.

Bu göstəricilər nəzərə alınan zaman dünyanın ən yaşamalı şəhərlərinin başında Fransanın Qrenobl şəhəri gəlir. Alp dağlarının "paytaxtı" sayılan bu şəhər 100-dən 100 almağı bacarıb. Qrenobl populyar gəzinti yeri olmaqla yanaşı, həm də elmi tədqiqat mərkəzi kimi tanınır.

Beləliklə, siyahıda ilk onluğa daxil olan şəhərlərin siyahısı aşağıdakı kimidir:

Qrenobl (Fransa), Kanberra (Avstraliya), Bern (İsveçrə), Bergen (Norveç), Bazel (İsveçrə), Lüksemburq (Lüksemburq), Reykyavik (İslandiya), Sürix (İsveçrə), Gent (Belçika), Nant (Fransa)

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin Tədris işləri üzrə prorektoru Məhəmməd Nuriyevə həyat yoldaşı

**Nurcənnət Hacıyevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi